Xalqın qəzeti!

# Xalq qəzeti

№ 60 (30754) 19 mart 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Milli ideya XXI əsrin yeni geosiyasi çağırışları fonunda



Səhifə ⇨ 6

## Novruz tonqalları azad Qarabağı nurlandırdı



Səhifə ⇨ 2

## Ermənistan hakimiyyətinin saxta konstruktivliyi

**Ermənistan baş nazirinin aparatı atəşkəs rejiminin pozulmasına dair bəyanatında rəsmi İrəvanın dəmir yolu ilə yükdaşımalar probleminin həllinə yönələn təklifini Azərbaycan tərəfinə təqdim etdiyini açıqlayıb. Söhbətimiz bu barədədir. Ancaq əvvəlcə bir məqama diqqət yetirək.**



Bəyanatın başlıca məğzi ondan ibarətdir ki, Azərbaycan atəşkəsin pozulması ilə əlaqədar faktları Ermənistana təhvil versə, ölkənin Müdafiə Nazirliyi məsələni araşdırmağa hazırdır. Bu, hiyləgər yanaşmadır, çünki atəş nöqtələrinə dair faktları ötürmək, qarşı tərəfə mövqelərimizdən özünün necə göründüyünü bilmək və potensial cavab tədbirlərini müəyyənləşdirmək imkanı yaradır. Hər halda, belə bir ehtimal var. Axı Ermənistan MN Azərbaycanın eyni adlı qurumunun atəşkəsin pozulduğunun əksini tapdığı məlumatlarına cavab olaraq atəşin özünə məxsus silahlı qüvvələr tərəfindən açılmadığını bildirmir, yalnız ümumi ifadələrlə ölkəmizin baş hərbi idarəsini dezinformasiya yaymaqda günahlandırır. Görəsən niyə? Deməli, ehtimalımızın özünü doğrultma faizi yüksəkdir.

Digər yandan, Ermənistan MN bildirir ki, baş nazirin aparatı atəşkəsin pozulması hallarının araşdırılması üçün birgə mexanizmin yaradılmasını təklif edib və Azərbaycan təklifə müsbət reaksiya verməyib. Hazırda Paşinyan hakimiyyətinin ölkəmizdən atəşkəs rejiminin pozulmasına dair faktlı hesabat istəməsi sözügedən mexanizm üçün, bir növ, baza hazırlamaq məqsədi güdür.

Beləliklə, erməni iqtidarı, faktiki olaraq, atəşkəsə riayət edilməməsinə görə məsuliyyətini danaraq həyasızlığa baş vurur. Həyasızlığın isə barəsində söz açacağımızı bildirdiyimiz “dəmir yolu ilə yükdaşımalar probleminin həllinə yönələn təklifin Azərbaycana təqdim edilməsi” tərəfi də var.

(ardı 7-ci səhifədə)

## “Üzrü günahından betər”

*Tramp ABŞ mediasını nə üçün cəzalandırır?*



**ABŞ Prezidenti Donald Tramp martın 14-də 7 federal qurumun ləğv edilməsi barədə fərman imzalayıb. Onların sırasında Qlobal Media Agentliyi (USAGM) də yer alır. Bundan bir müddət öncə isə ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) fəaliyyəti dayandırılmışdı. USAID kimi USAGM da əsasən ABŞ-ın xaricə yönəlik layihələrini maliyyələşdirib. Beynəlxalq auditoriya üçün məlumatlar yayan “Azad Avropa” (“Azadlıq”), “Amerikanın səsi”, “Azad Asiya” radiolarının fəaliyyəti Qlobal Media Agentliyinin ayırdığı vəsaitlə təmin edilib.**

(ardı 12-ci səhifədə)

## İrəvanın yeni paxırları da üzə çıxacaq

**Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və adətlərini pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən şəxslərin Bakı Hərbi Məhkəməsində mühakimə olunmalarına Hayastanda bəzi şəxslər tərəfindən isterik reaksiyalar verilir. Həmin şəxslər məhkəməsi keçirilənləri “hərbi əsirlər”, ədalət mühakiməsini “saxta məhkəmə” adlandırırlar, onların həyatları üçün təhlükə olduğunu iddia edirlər və guya, bundan narahatdırlar.**



Belələrindən biri də Ermənistanın sabiq baş naziri, “Birlikdə” adlanan hərəkatın həmtəsisçisi Qrant Baqratyandır. O, martın 17-də Hayastan mediasına verdiyi müsahibədə iddia edib ki, Azərbaycan məhkəmə prosesini uzatmağa çalışacaq. Baqratyanın açıqlamasındakı hər bir söz şər-böhtandır. O, Ermənistandakı ümumi xora qoşularaq, ədalət mühakiməsini “qondarma məhkəmə prosesi”, erməni əsilli şəxsləri “erməni əsirlər” adlandırır. İddia edir ki, Azərbaycan guya onların cinayətkar olduğunu sübut etməyə çalışacaq. Onun sözlərinə görə, amma məhkəmə farsları (yüngül məzmunlu komediya–S.H.) nəticə verməyib və guya, onlarda hansısa faktlar var: “Ruben Vardanyanın çıxışını buna misal göstərmək olar. General Lyova Mnatsakanyanın da çıxışı çox cəsarətli idi. Yəni onlar sınmayıblar...”

Sabiq baş nazir hazırkı hökumət başçısının qarasınca danışmağa da imkan tapıb. Deyib ki, R.Vardanyan Qarabağa getməzdən əvvəl Nikol Paşinyanın kabinetinə daxil olub, onunla qəhvə içib. Paşinyan Vardanyana uğurlar arzulayıb. İddia edib ki, Vardanyan Paşinyanın ofisinə Arayik Arutyunyanla birlikdə daxil olub: “Əgər mən haqsızamsa, qoy həqiqəti söyləsinlər. İndi isə Paşinyan deyir ki, Vardanyanın “Artsax”a niyə yollandığını anlamaq lazımdır. Bu, Paşinyanın nə qədər təhlükəli olduğunu göstərir. Bu həm də onu göstərir ki, ona etibar etmək olmaz”.

(ardı 11-ci səhifədə)

## Qərbi Azərbaycana Qayıdış ümumxalq hərəkatına çevrilib

Səhifə ⇨ 8

## Siyasi sabitlik və iqtisadi inkişaf sosial yüksəlişə təkan verib



Səhifə ⇨ 9

## Qırmızı dəniz alov saçır



Səhifə ⇨ 15

# Ağdərənin bahar təravətli ağ günləri

## Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Ağdərə rayonuna səfəri

### Sərsəng Su Anbarından Umudlu kəndinə gedən avtomobil yolunun açılışı

**Martın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Sərsəng Su Anbarından Ağdərə rayonunun Umudlu kəndinə gedən avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak ediblər.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, Prezident İlham Əliyevin ötən il imzaladığı sərəncama uyğun olaraq Sərsəng su anbarından Ağdərə rayonunun Umudlu kəndinə gedən avtomobil yolunun yenidən qurulması işləri yüksək səviyyədə həyata keçirilib. Dördüncü texniki dərəcəli avtomobil yolunun uzunluğu 9,4 kilometr, hərəkət zolaqlarının eni isə 6 metrdir. Yolda nəqliyyatın rahat və təhlükəsiz hərəkəti üçün zəruri işlər görülüb.

Azərbaycanın dövlət siyasətində yol infrastrukturunun yaxşılaşdırılması prioritet istiqamətlərdəndir. Dövlətimizin başçısının



tapşırıq və göstərişlərinə əsasən, yol təsərrüfatının bərpası, yenidən qurulması və müasir standartlara uyğunlaşdırılması istiqamətində işlər işğaldan azad olunmuş ərazilərdə də sürətlə davam etdirilir.

Bu ərazilərdə icra olunan yol layihələri yenidən öz doğma torpaqlarına qayıdan əhalinin həyat şəraitinin yaxşılaşdırılması, iqtisadi əlaqələrin gücləndirilməsi və təhlükəsiz nəqliyyat şəbəkəsinin təmin edilməsi baxımından da önəm daşıyır. Sərsəng Su Anbarından Ağdərə rayonunun Umudlu kəndinə gedən avtomobil yolunun yenidən qurulması da belə mühüm layihələrdən biridir.

Həyata keçirilən yenidənqurma işləri bu yolda rahat gediş-gəlişi təmin edəcək, yük və sərnişin daşınmasını asanlaşdıracaq, bölgənin turizm potensialının inkişafına da töhfə verəcək.



### Həsənriz kəndində sakinlərlə birlikdə Novruz tonqalı alovlandırılıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 18-də Ağdərə rayonunun Həsənriz kəndində buraya köçən bir qrup sakinlə görüşüb, fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olublar.**

Dövlətimizin başçısı sakinlərlə görüşüb söhbət etdi.

**Prezident İlham Əliyev:** Salaməleyküm. Xoş gördük, bayramınız mübarək olsun!

**Sakinlər:** Salam, xoş gəlmisiniz, Sizin də bayramınız mübarək olsun, Ramazan bayramınız da mübarək.

**Prezident İlham Əliyev:** Necəsiniz?

**Sakinlər:** Xoş gəlmisiniz, cənab Prezident, Sizinlə həmsöhbət olmaq bizim üçün şərəfdir. Xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Siz də xoş gəlmisiniz. Nə vaxt gəlmisiniz?

**Kişi sakin:** Biz mart ayının əvvəlindən - 3-dən buradayıq.

**Prezident İlham Əliyev:** Artıq yerləşmisiniz.

**Kişi sakin:** Bəli, yerləşmişik, çox gözəldir. İnanın ki, bura həmişə arzumuzda olub, o dağların arxasından buraya həsrətlə baxmışıq. İndi hər şey gerçəkliyə çevrilib.

**Qadın sakin:** Allah Sizdən razı olsun ki, bu günü bizə yaşatdınız.

**Prezident İlham Əliyev:** Sağ olun. Bu gözəl bayram günündə artıq sizinlə birlikdə burada olmaq mənim üçün də çox xoşdur. Həsənriz kəndi qədim Azərbaycan kəndidir, bilirsiniz. Burada Azərbaycan xalqı əsrlər boyu yaşayıb, hətta çar Rusiyası dövründə dərc edilmiş xəritələrdə Həsənrizin adı var - Həsənriz kəndi. Qanunsuz olaraq Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılandan sonra ermənilər başqa yerlərdən gətirilərək burada məskunlaşdırıldı və bunun adı da dəyişdirildi. Artıq adını da bərpa etdik, tarixi ədaləti də bərpa etdik, Azərbaycan xalqı da buraya qayıdıb, indi rahat, xoşbəxt yaşayacaq.





**Kişi sakin:** Ədalət də bərpa olundu. Hamısı Sizin sayənizdə.

**Qadın sakin:** Allah Sizi qorusun, ailənizi qorusun. Sizin və güclü siyasətinizin sayəsində biz bu gün firavan yaşayırıq.

**Digər kişi sakin:** 33 ildən sonra bizi doğma Vətənə, ata-baba yurduna qaytarmağınız bizim üçün böyük səadətdir, eyni zamanda, elimiz-obamız üçün yeni həyatın başlanğıcıdır. Dediyiniz kimi, bu bölgələr bizim ulu babalarımızın vətəni olub. O cümlədən onu da qeyd edim ki, bizim əzəli və əbədi düşmənlərimiz bu bölgəni böyük güclər hesabına işğal etmişdir. Amma Sizin komandanlığınız altında Azərbaycan Ordusu cəmi-cümlətanı 23 saata işğala son qoymuşdur. Çox sağ olun, cənab Prezident, Siz Azərbaycan xalqının, o cümlədən dövlətimizin gücünü dünyaya bəyan etdiniz.

**Prezident İlham Əliyev:** Sağ olun, biz tarixi ədaləti bərpa etməli idik, beynəlxalq hüququ bərpa etməli idik və öz haqqımızı bərpa etməli idik. Ona görə İkinci Vətən müharibəsindən keçən üç il ərzində biz gələcək planlarımız haqqında həm düşünürdük, həm çalışırdıq və əlbəttə ki, separatçıların hər hansı bir formada bu bölgədə qalmaları qeyri-mümkün idi. Biz burada məskunlaşdırılmış erməni əhalisinə də o vaxt təklif etmişdik ki, gəlin, Azərbaycan Bayrağı altında yaşayın, Azərbaycan vətəndaşlığını qəbul edin və burada sizə söz deyən olmayacaq. Bu gün də Xankəndi şəhərində erməni əhalisi var, onlara söz deyən yoxdur, əksinə, bizim sosial işçilərimiz onlara qayğı göstərirlər. Bax, bizim xalqımızın böyüklüyü bundan ibarətdir. Onlar isə bizi bu torpaqlardan, qədim torpaqlarımızdan didərgin salmışdılar, soyqırımı törətmişlər, Azərbaycan xalqına olmazın əzablar vermişdilər, xalqımızın böyüklüyü məhz bundadır. Biz haqlı olan tərəfik, həm işğal dövründə öz haqq səsimizi ucalda bilmişik və bütün dünyaya sübut edə bilmişik ki, bu, bizim tarixi və hüquqi torpağımızdır. Həm də İkinci Qarabağ müharibəsi dövründə baxmayaraq ki, Ermənistanın arxasında bir çox ölkələr, bir çox qüvvələr dayanmışdı, heç kim bizə əsaslı irad tuta bilməmişdi. Çünki biz beynəlxalq hüquq çərçivəsində öz torpağımızda müharibə aparırdıq. O cümlədən cəmi bir neçə saat çəkən antiterror əməliyyatı zamanı da bizə qarşı siyasi, ondan sonra digər hərəkətlər olsa da, onların heç bir nəticəsi olmadı. Beynəlxalq təşkilatlarda Ermənistanın havadarları Azərbaycana qarşı sanksiyalar tətbiq etməyə, digər addımlar atmağa çalışdılar, buna nail ola bilmədilər. Haqq-ədalət bizim tərəfimizdədir. Həsənrizin azad olunmasının təməli məhz İkinci Qarabağ müharibəsi zamanı qoyulmuşdur. O vaxt artıq Qarabağın böyük hissəsi işğalçılardan azad edilmişdir. İkinci Qarabağ müharibəsindən sonra bir neçə əməliyyat nəticəsində mövqelərimizi daha da yaxşılaşdırdıq ki, ən qısa müddət ərzində az itki verməklə bütün qalan yerləri də nəzarətə götürək. Bu gün Həsənrizdə İlaxır çərşənbə günündə görüşürük. Sizi, Azərbaycan xalqını bayram münasibətilə təbrik edirəm. Ramazan bayramı da gəlir, Novruz bayramı da gəlir, bu gözəl bayram günündə, bayramlar ərəfəsində sizinlə görüşmək böyük məmnuniyyət doğurur.

**Sakinlər:** Sizin də bayramlarınızı təbrik edirik. Siz Ali Baş Komandan kimi Qələbəni təmin etdiniz.



**Prezident İlham Əliyev:** Allah şəhidlərimizə rəhmət eləsin, biz bu torpaqları onların qanı-canı bahasına azad etmişik.

**Kişi sakin:** Bu kənddən çıxanda o Murov yolunda nə zillətlər görən camaat indi toy-bayramla qayıtdı. 34 ildən sonra hamı sevinclə buraya qayıtdı.

**Prezident İlham Əliyev:** O vaxt işğal dövründə camaat buradan Murov yolu ilə çıxmışdı?

**Kişi sakin:** Bəli, qoca qadın evdə yanıb, çarpayıda sümükləri qalmışdı. O, mənim nənəm idi. O cür əziyyətlər yaşamışıq.

**Prezident İlham Əliyev:** O tərəf, yəni artıq buradan keçmək mümkün deyildi, bağlanmışdı? Suqovuşan tərəf də bağlanmışdı?

**Kişi sakin:** Bütün buralar bağlı idi, yalnız Murov dağından Kəlbəcər tərəfdən nə zülmlərlə.

**Prezident İlham Əliyev:** Uzaq yoldu, neçə kilometr olar? 40-50 kilometr olar?

**Kişi sakin:** 58 kilometr hələ Kəlbəcərlə sərhədə qədərdir.

**Digər kişi sakin:** Şükür bu günə, Sizin, Ordumuzun sayəsində qayıtmışıq.

**Prezident İlham Əliyev:** Burada evlər bərpa edildi, yeni evlər də tikiləcək. İndi, birinci mərhələdə 163 ailə yerləşəcək.

**Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov:** Cənab Prezident, ümumiyyətlə, burada 606 ev var. İlkin olaraq 92 evi təmir etmişik, 50 ailə artıq köçüb. Yəqin ayın sonuna 40 ailə də köçəcək. Ondan sonra da iki mərhələdə 192 ev. Amma təklif edərdik ki, bütün infrastruktur bərpa edilsin.

**Prezident İlham Əliyev:** Bütün, hamısını. Bəli, hamısını. Siz təklif verin, onların hamısını bərpa edək. Çünki mənə verilən məlumata görə, artıq burada həm Həsənrizdə, həm də Kəlbəcər rayonunda yaşamış insanlar yerləşir.

**Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov:** Artıq buraya köçmək üçün 360 nəfər siyahıya alınıb.

**Prezident İlham Əliyev:** Bura çox gözəl, səfalı yerlərdir.

**Kişi sakin:** Şuşa ilə bərabər yerdir, relyefi də oxşardır.

**Prezident İlham Əliyev:** Bəli, Şuşadan üstünlüyü ondadır ki, Sərsəng su anbarı da var, orada balıq tutmaq olar. İş yerləri ilə bağlı nə işlər görülür?

**Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov:** Böyük kənd olduğuna görə burada 13 təsərrüfat subyekti ilə, obyektlərlə bağlı müraciətlər olub. Bundan başqa, yaxın yerlərdə, icazə versəydiniz, fermalar var, o fermaları icarə verərdik.

**Prezident İlham Əliyev:** Əlbəttə. Bir də ki, əkin sahələri verilməlidir, əkin-biçinlə məşğul olsunlar. Heyvandarlıq üçün bura ən yaxşı yerdir.

**Kişi sakin:** Bu sakinlər hamısı heyvandarlıqla məşğul olublar. Cənab Prezident, əmin edim ki, bizim kənddə müxalifətçi olmayıb. Bizim kəndin camaatından bir adam fikirləşə bilmirdi ki, kimsə müxalifətçi olub. Heç vaxt. Hamımız təsərrüfatla, dövlətə qulluqla məşğul olmuşuq. İndi də inanmıram, görməmişik, eşitməmişik.

**Prezident İlham Əliyev:** Olsa da bir problem yoxdur. Əsas dövlətə, dövlətçiliyə müxalifətdə olmasınlar.

**Kişi sakin:** Ümumiyyətlə, bizə gülünc gəlir.

**Prezident İlham Əliyev:** Özlərini müxalifətçi adlandıran bəziləri dövlətə qarşı, o cümlədən İkinci Qarabağ müharibəsi dövründə, antiterror əməliyyatı dövründə, indinin özündə ermənilərlə birləşib. Bu, dövlətə qarşı düşmənçilikdir və əslində, xəyanətdir.

**Kişi sakin:** Bəli, bəli, xəyanətdir.

**Prezident İlham Əliyev:** Ona görə burada yaxşı təsərrüfatlar qurulmalıdır. İndi bizim İqtisadiyyat Nazirliyinin xətti ilə kredit xətləri açılmalıdır ki, kim mal-qara saxlamaq, əkin-biçinlə məşğul olmaq istəyir, burada su problemi olmamalıdır.

**Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov:** Düzdür cənab Prezident, bunlarla məşğul oluruq, su problemi də yoxdur.

**Prezident İlham Əliyev:** Bulaqlar var?

**Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov:** Gözəl suyu var.

**Prezident İlham Əliyev:** İşıq var, qaz var, su da var, internet, istilik.

**Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov:** Hər həyətdə su var. Su, işıq, qaz, 500 nəfərlik məktəb, internet. Təmir olunan evlərin hamısında istilik.

**Prezident İlham Əliyev:** Məktəb də budur, onu da təmir etmişik.

**Kişi sakin:** Bəli, xəstəxanamız da var.

**Prezident İlham Əliyev:** Əlavə nə lazımdır?

**Kişi sakin:** Sizin sağlığınız.

**Qadın sakin:** Sizinlə qürur duyuruq hər zaman. İnsan həm sevinir, həm qürurlanır.

**Prezident İlham Əliyev:** Harada yaşamısınız? Laçınlısan?

**Qadın sakin:** Bəli, atam da birinci qrup Qarabağ qazisidir. Bir qazi övladı olaraq Sizə, Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevaya minnətdarlığımı bildirirəm ki, hər zaman şəhid ailələrinə və qazilərimizə dəyər vermisiniz.

**(ardı 3-cü səhifədə)**

# Ağdərənin bahar təravətli ağ günləri

## Həsənriz kəndində sakinlərlə birlikdə Novruz tonqalı alovlandırılıb





(əvvəli 2-ci səhifədə)

**Prezident İlham Əliyev:** Bayramınız mübarək olsun.

**Sakinlər:** Bayramınız mübarək olsun, Allah Sizi qorusun cənab Prezident!

**Prezident İlham Əliyev:** Burada birlikdə şəkil çəkdirək.

**Mehriban xanım Əliyeva:** Tonqal da görünəcək.

*

Sonra dövlətimizin başçısı və birinci xanım kənd sakinləri ilə birlikdə Novruz tonqalını alovlandırdılar.

*

**Prezident İlham Əliyev:** Rahat yaşayın, xoşbəxt yaşayın. Siz 30 il əzab-əziyyət içində idiniz. Həm mənəvi əzab, həm də ki, qaçqın-köçkün kimi. O söz də artıq yavaş-yavaş lüğətimizdən çıxır.

**Sakin**: Ulu Öndər Heydər Əliyev vaxtilə deyirdi ki, Azərbaycan cəmiyyəti lazım gələrsə, istənilən çətinliyə tab gətirməyi bacarmalıdır. Məhz müstəqillik, azadlıq, güclü dövlət naminə. Biz Qələbə əldə etdikdə bir daha əmin olduq ki, Ulu Öndər nə qədər gözəl, qiymətli fikirlər söyləmişdir, ruhu şad olsun.

**Prezident İlham Əliyev:** Bəli, elədir. O vaxt Azərbaycan xalqının tələbi ilə hakimiyyətə gəlməsəydi, Azərbaycan tam məhv ola bilərdi. Əslində, 1993-cü ilə qədər gedən proseslər ona gətirib çıxarırdı. Həm torpaqlarımızın işğal altına düşməsi, həm daxili çəkişmələr, vətəndaş müharibəsi. Bütün bunların qarşısını Ulu Öndər almışdı və nizami ordu quruculuğu da onun adı ilə bağlıdır. Biz - onun davamçıları, sadəcə olaraq, onun yolu ilə gedərək ölkəmizi daha da gücləndirdik, bütün gücümüzü səfərbər etdik, "dəmir yumruğ"u yaratdıq, düşmənin başını əzdik, indi belə bayramları burada qeyd edirik. Bundan böyük xoşbəxtlik ola bilməz. Bir daha təbrik edirəm sizi. Bir daha bayramınız mübarək.

**Sakinlər:** Çox sağ olun. Uğurlar, Sizin də bayramınız mübarək.

*

Sonra dövlətimizin başçısı və birinci xanım Həsənriz kəndindəki Bayraq meydanında oldular. Burada üçrəngli Bayrağımız 17 metr hündürlüyündə dirəkdə dalğalanır. Bayraq meydanının yeri elə seçilib ki, buradan Həsənriz kəndi ilə yanaşı, digər kəndlərə də gözəl mənzərə açılır.

## Azad kəndin yeni məscidi



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 18-də Ağdərə rayonunun Suqovuşan kəndində məscidin açılışında iştirak ediblər.**

Eyni vaxtda 100-ə yaxın insanın ibadət edə biləcəyi məscidin birinci mərtəbəsi kişilər, ikinci mərtəbəsi isə qadınlar üçün nəzərdə tutulub. Məscidin həyəti də yaşıllaşdırılıb. İbadət ocağının daxilində xüsusi bəzək elementlərindən istifadə olunub.



Xatırladaq ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2022-ci ilin martında bu ibadət ocağının təməlqoyma mərasimində iştirak ediblər.

Bu məsciddə yaradılan şərait bir daha təsdiqləyir ki, milli-mənəvi dəyərlərimizin qorunması və inkişaf etdirilməsi Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Dövlətimizin başçısının təşəbbüsünə və tapşırıqlarına əsasən, paytaxtda və ölkəmizin bölgələrində onlarla məscid, dini məbəd, tarixi abidə və ziyarətgah inşa edilib və ya əsaslı şəkildə bərpa edilib.

Qeyd edək ki, işğal zamanı məscidlərimiz də vəhşiliklə dağıdılıb, 67 məsciddən 65-i məhv edilib. İşğaldan azad olunmuş ərazilərimizdə hazırda aparılan geniş quruculuq işləri çərçivəsində yeni məscidlərin inşası da mühüm yer tutur. Suqovuşan kəndindəki məscidin tikintisi, eyni zamanda, ölkəmizdə milli-mənəvi dəyərlərin qorunması ilə bağlı görülən işlərin ardıcıl xarakter aldığını göstərir.

## Suqovuşanda yaşayış kompleksinin açılışı

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 18-də Ağdərə rayonunun Suqovuşan kəndində inşa olunan yaşayış kompleksinin istifadəyə verilməsi mərasimində iştirak edib, yeni mənzillərə köçən kənd sakinlərinə evlərin açarlarını təqdim ediblər.**



Dövlətimizin başçısına və birinci xanıma burada görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, kəndə köçlə bağlı ümumilikdə 180 ailə (591 nəfər) siyahıya alınıb. 2,3 hektar sahədə yaradılan kompleks 5 mərtəbəli olmaqla 5 yaşayış binasından ibarətdir. Bu binalarda ümumilikdə bir, iki, üç və dördotaqlı 190 mənzil var.

Kənddə yararsız vəziyyətdə olan 144 şagird yerlik tam orta məktəbin binasında da əsaslı təmir işləri aparılıb. Bundan əlavə, ümumi gücü 7,8 meqavat olan "Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su Elektrik stansiyaları yenidənqurmadan sonra istifadəyə verilib. Suqovuşanda "istirahət kompleksi layihəsi" icra olunub. Ərazisi 6 hektar olan kompleksdəki 16 kottec və 2 mərtəbəli hotel binasında əsaslı təmir işləri aparılıb.



Dövlətimizin başçısı sakinlərlə görüşüb söhbət etdi.

**Prezident İlham Əliyev:** Salam.

**Sakinlər:** Salam, xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Salam, xoş gördük.

**Sakinlər:** Xoş gördük, xoş gəlmisiniz. Xoş gəlmisiniz, cənab Prezident.

**Prezident İlham Əliyev:** Bayramınız mübarək olsun. Sağ olun.

**Sakinlər:** Xoş gəlmisiniz, cənab Prezident.

**Prezident İlham Əliyev:** Sağ ol, təşəkkür edirəm. Siz də xoş gəlmisiniz.

**Sakinlər:** Xoş gününüzə gələk, Mehriban xanım.

**Prezident İlham Əliyev:** İlk növbədə, sizi bayram münasibətilə təbrik edirəm.

**Sakinlər:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Bu gün İlaxır çərşənbə günüdür. Həsənriz kəndində tonqalı alovlandırdım və qarşıdan gələn Novruz bayramı münasibətilə sizi təbrik edirəm.

**Sakinlər:** Biz də Sizi təbrik edirik.

**Prezident İlham Əliyev:** Xatırlayıram ki, 2022-ci ildə bu Novruz tonqalını Suqovuşan kəndində qalamışdım və o vaxt göstəriş verdim ki, buraya insanların köçürülməsi üçün şərait yaradılsın. Bu evlər tikildi, çox gözəl, yaraşıqlı evləriniz. Sıfırdan tikilib və bütün şərait var. Şadam ki, artıq birinci sakinlər bu evlərdə yerləşir və burada rahat yaşayacaqlar.

**Sakinlər:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Burada yaşamaq üçün bütün şərait var. Evlər çox gözəl, geniş, işıqlı evlərdir. Təbiət də təbii olaraq bu bölgəyə əlavə dəyər verir. Gözəl su anbarının yanında yaşamaq, əlbəttə ki, adamın zövqünü oxşayır. Ona görə burada yaxşı, rahat yaşamaq, işləmək üçün bütün imkanlar var və şadam ki, artıq Suqovuşan kəndində də keçmiş köçkünlər yerləşirlər.

Bu kənd İkinci Qarabağ müharibəsinin ilk həftəsində işğalçılardan azad edilmişdir. Bu, bizim birinci əhəmiyyətli uğurlarımızdan, hərbi qələbələrimizdən biri idi. Bildiyiniz kimi, 44 gün ərzində bizim Ordumuz, bütün Silahlı Qüvvələrimiz ancaq irəliyə gedirdi və hər bir kəndin, hər bir qəsəbənin azad olunması Ordumuza, bütün xalqımıza əlavə ruh verirdi. Özü də böyük yaşayış məntəqəsinin işğalçılardan azad edilməsi xüsusi əhəmiyyətə malik idi. Suqovuşan kəndi birinci kənd idi ki, işğalçılardan azad edildi. Təkcə bununla bu kəndin əhəmiyyəti məhdudlaşmır. Çünki bildiyiniz kimi, bunun çox böyük strateji əhəmiyyəti var. Bax, bu kəndin ətrafında və su anbarının ətrafında yerləşən bütün mövqelərdə qanunsuz silahlı birləşmələr, Ermənistan ordusunun şəxsi heyəti yerləşmişdi. Hərbi nöqteyi-nəzərdən bu kəndi işğalçılardan azad etmək həm böyük qəhrəmanlıq tələb edirdi, həm də fədakarlıq tələb edirdi. Bizim hərbçilərimiz də öz canlarından keçərək, özlərini güllələrin qabağına verərək, bu şərəfli missiyanı yerinə yetirdilər. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

(ardı 4-cü səhifədə)

# Suqovuşanda yaşayış kompleksinin açılışı



(əvvəli 3-cü səhifədə)

**Sakinlər:** Allah rəhmət eləsin.

**Prezident İlham Əliyev:** Onların xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq. Allah bütün qəhrəmanlarımıza cansağlığı versin. Vətən uğrunda döyüşmüş, qəhrəmanlıq göstərmiş hərbçilərimizi biz hər zaman qiymətləndiririk. Biz gənc nəslin qəhrəmanlığı, şücaəti hesabına torpaqlarımızı geri aldıq, işğalçıları torpaqlarımızdan qovduq.

Əlbəttə ki, bu, uzun bir proses idi. İlk növbədə, dövlət quruculuğu prosesi getməli idi və güclü dövlət quruldu ki, bu gün Azərbaycan dünyada sayı o qədər də çox olmayan müstəqil siyasət apara biləcək ölkədir. İqtisadi inkişaf təbii ki, olmalı idi. Çünki bizə heç kim kömək etmirdi. Bu gün də heç kim kömək etmir və buna ehtiyac da duymuruq. Ona görə öz gücümüzə əsaslanaraq iqtisadi imkanlar yaratmalı idik ki, maliyyə imkanlarımız olsun. Güclü Ordu yaratmalı idik, bunu da etdik. Ordumuzu təchiz etməli idik, onu da etdik. Ordumuzun döyüş qabiliyyətini artırmaq üçün müntəzəm işlər gedirdi. Əlbəttə ki, gənc nəslin yetişdirilməsi. Vətənpərvərlik ruhunda, dövlətə, xalqa bağlı olan gəncləri yetişdirdik. Onlar 30 ildən sonra öz tarixi missiyalarını şərəflə yerinə yetirdilər və həm İkinci Qarabağ müharibəsi dövründə, həm də antiterror əməliyyatı dövründə böyük qəhrəmanlıq göstərmişlər. Bilirsiniz ki, indi bir çox xarici ali məktəblərdə bizim uğurlu əməliyyatımız öyrənilir. İndi dünyada müharibələr, qanlı toqquşmalar kifayət qədər geniş vüsət alır. İndi internet dövründə, informasiya azadlığı dövründə hər kəs hər şeyi bilir, görür və izləyə bilir. Görürük ki, heç də hər bir ölkə öz maraqlarını, ədalətli maraqlarını özü təmin edə bilmir, ya da öz ərazi bütövlüyü uğrunda mübarizə aparır, amma nəticəyə çata bilmir, ya da ki, hər hansı bir kiçikhəcmli hərbi uğura nail olur, amma tam qələbə əldə edə bilmir. Yəni, sadəcə olaraq, bu gün dünyada gedən toqquşmalara, münaqişələrə, müharibələrə nəzər salsaq, son tarixin müharibələrinə nəzər salsaq, hətta deyə bilərəm ki, İkinci Dünya müharibəsindən sonra Azərbaycan qədər birmənalı və tam qələbə heç kim tərəfindən qazanılmayıb. Ya yarımçıq qalıb, ya natamam qalıb, ya da ki, hər hansı bir başqa formada müharibə öz mahiyyətini dəyişməyərək modifikasiya olunub, başqa formalara keçib. Bizim Qələbəmiz isə tamdır və bu, həm dövlətimizin, Silahlı Qüvvələrimizin gücünü, həm də xalqımızın iradəsini göstərir. Siz də - bu bölgədə yaşamış insanlar, onların davamçıları yaxşı bilirsiniz ki, düşmən işğal dövründə elə güclü istehkamlar qurmuşdu ki, onları yarmaq həm qəhrəmanlıq, həm də peşəkarlıq tələb edirdi. Hətta bir çoxları əmin idi ki, biz heç vaxt o müdafiə xətlərini keçə bilməyəcəyik. Çünki relyef düşmənin xeyrinə işləyirdi, illər boyu qurduqları mühəndis istehkamları onların xeyrinə işləyirdi. Xarici qüvvələr, xarici ölkələr onların arxasında idi - ilk növbədə, guya bu məsələ ilə məşğul olmaq mandatını alan ATƏT-in Minsk qrupu. Onların əsas məqsədi bu münaqişəni əbədi etmək, torpaqlarımızı əbədi işğal altında saxlamaq, gözdən pərdə asmaq, bizim başımızı aldatmaq və sonsuz danışıqları aparmaqla bu reallığı bizə qəbul etdirmək idi. Onların hər üçünün məqsədi bu idi, burada bunların üçü də bir amal uğrunda birləşmişdi. Halbuki bu ölkələrin arasındakı indiki münasibətlər göstərir ki, bu, çox nadir bir hal idi. Yəni, nəyi göstərirdi, hər üçü Ermənistanın arxasında idi, hər üçü müxtəlif yollarla Ermənistanı dəstəkləyirdi. Biri silah verirdi, biri siyasi dəstək verirdi, biri iqtisadi imtiyaz verirdi. Bax, biz buna qarşı mübarizə aparmışıq, buna qarşı müharibə aparmışıq. İkinci Qarabağ müharibəsi başlayanda bilinmirdi kim özünü necə aparacaq. Mən böyük gücləri nəzərdə tuturam. Belə bir ağır siyasi mühitdə, belə bir ağır relyefdə, belə bir ağır istehkamlarla dolu olan ərazilərdə cəmi 44 gün ərzində düşməni böyrü üstə qoymaq xalqımızın gücünü göstərir. Axı onlar o vaxt da bizə bilirdik, əminəm ki, siz də bilirdiniz, bütün xalq bilirdi ki, bu, necə deyərlər, işimizin hələ tam başa çatması deyil. Çünki müəyyən səbəblərə görə separatçılar hələ ki, bizim torpaqlarımızda öz yuvalarını saxlamışdılar, sülhməramlı qüvvələr bölgəmizə gətirilmişdi və bu da separatçılara, necə deyərlər, alavə ürək-dirək verirdi. Onlar da hesab edirdilər ki, belə olan vəziyyətdə o separatçılıq davam edəcək və digər müxtəlif hadisələr baş verməsi mümkündür. Ancaq onlar bir şeyi hesablaya bilməmişdilər, o da Azərbaycan xalqının və dövlətinin iradəsi, qətiyyəti, cəsarəti, öz gücünə əminliyi idi. Onlar bunu hesablaya bilməmişdilər. İlyarım bundan əvvəl birgünlük antiterror əməliyyatı separatçılığın kökünü kəsdi, onunla da məsələ bitdi, onların kitabı bağlandı. Bu gün də biz bu gözəl bayramı burada qeyd edirik. Mən sizi təbrik edirəm. Burada xoşbəxt yaşayın. Siz buna layiqsiniz. Uzun illər əzab-əziyyət içərisində yaşamışınız, bundan sonra o əzab-əziyyət qaldı tarixdə. Təbrik edirəm sizi.

**Sakinlər:** Çox sağ olun. Bizi arzumuza çatdırdınız, Siz də arzunuza çatasınız. Allah balalarınızı saxlasın.

**Prezident İlham Əliyev:** Sağ olun. İndi də açarları təqdim edək.

*

Sonra açarların təqdim edilməsi mərasimi oldu.

*

**Sakin:** Allah Sizi arzunuza çatdırsın.

**Prezident İlham Əliyev:** Sağ olun, çox sağ olun.

**Qadın sakin:** Çox sevinirik, 6 yaşımda buradan çıxmışam. Doğma yerimizdə Sizi salamlamaq çox sevincli haldır. Sevincimizi sözlə ifadə etmək mümkün deyil. Allah Sizi qorusun. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin.

**Prezident İlham Əliyev:** Amin. Siz işğal dövründə harada yaşamısınız?

**Qadın sakin:** Şıxarx qəsəbəsində.

**Prezident İlham Əliyev:** O illəri xatırlayırsınız uşaq ikən?

**Qadın sakin:** Bu günümüzə şükür.

**Kişi sakin:** Mən də burada doğulmuşam, məktəbə getmişəm, 1973-cü ildə. Özüm də Birinci Qarabağ müharibəsi veteranıyam, döyüşlərdə iştirak etmişəm.

**Prezident İlham Əliyev:** Məktəb də təmir olundu, tam.

**Kişi sakin:** Bəli, olundu. Çox yüksək səviyyədə təmir olunub.

**Prezident İlham Əliyev:** İndi burada iş yerləri də yaradılacaq. Bura turizm zonasına çevrilməlidir, İnşallah. Bura gözəl, səfalı yerlərdir, Suqovuşan su anbarı da möcüzəvi bir əsərdir.

**Kişi sakin:** Ulu Öndərimizin əsəridir.

**Prezident İlham Əliyev:** Bəli. O vaxt həm Suqovuşan, həm Sərsəng su anbarlarının tikintisinin müəllifi Heydər Əliyev olmuşdur ki, Azərbaycanın bir neçə rayonunun su problemi həll edilsin. Amma mənfur düşmən işğal dövründə bizi o sudan da məhrum etmişdi. Biz faktiki olaraq o sudan istifadə edə bilmirdik, suyumuzu da kəsirdi. Sonra da lazım olmayan vaxtda, qışda açırdı və hər tərəfi su basırdı.

**Kişi sakin:** Bəli, yayda da vermirdilər.

**Prezident İlham Əliyev:** Yayda da vermirdilər. Yəni, bu düşmənçiliyin dərəcəsinə baxın, biz bunu necə unuda bilərik? Heç vaxt. Mən bunu demişəm, bir daha demək istəyirəm, biz heç vaxt bu vəhşiliyi, bu pisliyi unuda bilmərik. Xocalı soyqırımını necə unutmaq olar? Biz qisasımızı döyüş meydanında aldıq. Onlardan fərqli olaraq mülki əhaliyə qarşı heç bir nalayiq hərəkət etməmişdik, gücümüzü ancaq Ermənistan ordusuna məhv etmək üçün səfərbər etmişdik. Onlar isə əliyalın insanlara qarşı, qadına, uşağa, qocalara qarşı nə qədər çirkin əməllər etmişdilər, hərbi cinayətlər törətmişdilər. Vaxtilə bizi hədələyənlər, "biz Bakıya tanklarla gəlib Bakıda çay içəcəyik" deyənlər indi məhkəmə qarşısında cavab verirlər. Mən isə demişəm tanklar da Bakıdadır, Qənimətlər Parkında, çayı da içirlər lazım olan yerdə və xalq qarşısında, qanun qarşısında cavab verəcəklər.

**Sakinlər:** Hamısı Sizin sayənizdə.

**Prezident İlham Əliyev:** Ədalət budur, ədalətin təntənəsi budur və mən bunu dəfələrlə demişdim, işğal dövründə keçmiş köçkünlərlə mənim onlarla, bəlkə də yüzlərlə görüşlərim olub. Həm yeni qəsəbələrin açılışında, həm müxtəlif tədbirlərdə. Biz heç vaxt ümidimizi itirməmişdik, ancaq ildən-ilə görürdüm məndə də, bütün insanlarda da, necə deyərlər, ədalətə inam azalırdı. Çünki ədalət, necə deyərlər, mövqeyimizi gücləndirməli idi. Amma ədalət o vaxt zəfər çalır ki, iradən də var, gücün də var və haqqın da çatır. Bütün bu amillər bizdə olduğu üçün biz bu tarixi Zəfəri çaldıq. Bu Zəfərin, mən yenə də deyirəm, son onilliklər ərzində tayı-bərabəri olmayıb, bundan sonra da olmayacaq. Baxın, bu gün müxtəlif yerlərdə müharibələr gedir. O müharibələr həm uzun müddət ərzində gedir və həm də, necə deyərlər, real nəticə ilə nəticələnmir. Bizim qələbəmiz tam idi, mütləq idi, birmənalı idi və vaxtilə "Qarabağ Ermənistandır" deyən adam da bu gün deyir: "Qarabağ Azərbaycandır!".

**Sakinlər:** Qarabağ Azərbaycandır!

**Prezident İlham Əliyev:** Öz xoşu ilə yox, "dəmir yumruğ"un hesabına.

**Sakinlər:** Allah Sizi qorusun. Allah balalarınızı saxlasın.

**Qadın sakin:** Sizi və ailənizi milli bayramımız münasibətilə təbrik edirəm, uzun ömür, cansağlığı, uğurlar arzulayıram.

**Prezident İlham Əliyev:** Sağ olun, təşəkkür edirəm. Gəlin, şəkil çəkdirin Mehriban xanımla. Əvvəlcə burada, evlərin fonunda hamımız şəkil çəkdirək. Şəkil çəkdirilir.

**Prezident İlham Əliyev:** Sağ olun, təbrik edirik sizi.

**Sakinlər:** Sağ-salamat, Allah nəvələrinizi qorusun. Sağ olun.

**Kişi sakin:** Bizi buradan 1991-ci ildə çıxartdılar. Ən axırıncı köçənlərdən olmuşuq.

**Prezident İlham Əliyev:** Sovet vaxtı hələ. Bəs kim çıxartdı?

**Kişi sakin:** Ermənilər çıxartdı.

**Prezident İlham Əliyev:** Bəs sovet ordusu yox idi?

**Kişi sakin:** Yox, sovet ordusu bizə tərəf durmadı.

**Digər kişi sakin:** Moskvadan generallar gəlib təbliğat aparırdılar.

**Prezident İlham Əliyev:** Təbliğat aparırdılar ki, siz çıxasınız buradan.

**Kişi sakin:** Biz çıxaq, ermənilər möhkəm dursunlar burada. Bizə nə qədər dedilər, atam çıxmırdı, axırda da dedi ki, yox, mümkün deyil. Ona görə köçdük Tərtərə. 30 il də Tərtərdə xalqımıza qoşulub müdafiəyə qalxdıq. Müharibədə olmuşam, yaralanmışam, veteranam. Mən də borcumu yerinə yetirmişəm, gücüm çatan qədər. Amma bizim gücümüz o vaxt çatmazdı. İndi şükür Allaha.

**Prezident İlham Əliyev:** Bəli, o vaxt gücümüz yox idi, silahımız yox idi. Normal, necə deyərlər, vətənpərvər rəhbərlik yox idi.

**Kişi sakin:** Yox idi, heç arxamızda duran da yox idi.

**Prezident İlham Əliyev:** Heç, xalqı başlı-başına buraxmışdılar, hakimiyyət uğrunda, kreslo uğrunda mübarizə gedirdi. Torpaqlar da əldən gedirdi. Şuşanın da düşmənə təhvil verilməsi elə hakimiyyət uğrunda mübarizənin nəticəsi idi. Ondan sonra hakimiyyətə gəldilər. Ondan sonra qalan torpaqları da satdılar. Kəlbəcəri də, o biriləri də.

**Kişi sakin:** Ordumuz döyüşürdü o vaxt, amma gücümüz çatmadı. Ona görə ki, rəhbərlik olmadı, güc çatmadı. Allahın bu gününə çox şükür, Siz 2020-ci il sentyabrın 27-də əmr verdiniz, müzəffər Ordumuz birinci Suqovuşanı, sonra da bütün Qarabağı azad etdi.

**Prezident İlham Əliyev:** Bəli. Suqovuşan oktyabrın 3-də azad edilmişdir.

**Kişi sakin:** Özü də relyefi çox sərtdir buranın.

**Prezident İlham Əliyev:** Hətta o vaxt, İkinci Qarabağ müharibəsi başa çatandan sonra burada bəzi mövqeləri ermənilər saxlamışdılar. Əgər anbara o tərəfdən baxsanız, sol tərəfdə onların postları var idi. Biz sonra onları oradan məcburən çıxartdıq, çünki oradan çıxmaq istəmirdilər. Çünki oranı götürmək çox çətin idi və çox itkilər hesabına ola bilərdi. Bəlkə də ən ağır istiqamətlərdən biri də Talış-Suqovuşan istiqaməti idi. Burada həm minalar çox idi, həm bunların güclü istehkamları, həm də ki, bu dağlar öz-özlüyündə bir istehkamdır.

**Kişi sakin:** Bəli, istehkam, çox çətin bir mövqedə idik. Sizin sayənizdə, Sizin "dəmir yumruğ"unuzun sayəsində ermənilər öz paylarını aldılar.

**Kişi sakin:** Allah canınızı sağ eləsin, bütün planlarınızı həyata keçirəsiniz.

**Digər kişi sakin:** Mən də Suqovuşan sakini kimi xatirə olaraq bir şeir yazmışam.

**Prezident İlham Əliyev:** Bəli, de.

**Kişi sakin:**

Ali Baş Komandan əmr verdi, hücuma keç, Azərbaycan əsgəri,

Müzəffər Ordu pozdu düşmən oyunun bir göz qırpımında,

Kəsdi onun yolun, qurbanın olum, Azərbaycan əsgəri!

44 gündə Zəfər çaldın əbədi, Zəfər bayramını da etdin əbədi,

"Dəmir yumruq"la vurdun mənfur düşməni, qurbanın olum, Azərbaycan əsgəri!

Ayaq səslərinlə qorxutdun düşməni, qorxuya düşüb tərk eylədi Vətəni,

"İtiqovan"la qovdun yağı düşməni, qurbanın olum, Azərbaycan əsgəri!

Çox şəhidlər verdin Suqovuşanda, Füzulidə, Talışda, Şuşada, dastanlar da yazdın Hadrutda,

Zəfər bayrağını ucaltdın Şuşada, qurbanın olum, Azərbaycan əsgəri!

Bunu özüm yazmışam, qəlbdən gələn şeirdir.

**Prezident İlham Əliyev:** Sağ olun. Suqovuşanın tarixi adını da dərhal qaytardıq və o vaxt, azad olunandan sonra tarixi adını bərpa etdik. O keçmiş adlardan da əsər-əlamət qalmayıb.

**Kişi sakin:** Burada bir dənə də körpü olmayıb. Bir dənə Qarı körpüsü var, oradan çox təhlükəli keçərdik. Ulu Öndərimiz gəldi, o körpüləri də tikdirdi, suvarma kanallarını çəkdirdi, burada araba yolu olub, asfalt yol olmayıb, onu da çəkdirib. Burada Dəstəgül kəndi var, bir də Təpəkənd var. O kəndlərə heç yol olmamışdı, onu da çəkdirdi, körpüləri də saldırdı. İndi, Suqovuşan ümumilikdə Heydər Əliyevin bir əsəridir.

**Prezident İlham Əliyev:** Bəli, elədir. Ədalət indi Zəfər çaldı.

**Kişi sakin:** 300 ildən bəri heç kim torpaq almayıb. Bir Sizdən başqa. Ona görə Sizi səmimi-qəlbdən təbrik edirik. Suqovuşan əhalisi adından deyirəm, biz Sizi general yox, marşal görmək istəyirik. Sizi bir daha təbrik edirəm, cənab Prezident!

**Prezident İlham Əliyev:** Sağ olun, çox sağ olun, bir daha təbrik edirəm, salamat qalın, xoşbəxt yaşayın burada. Sağ olun.

**Sakinlər:** Sağ olun, çox sağ olun, cənab Prezident. Allah Sizi qorusun.

**Prezident İlham Əliyev:** Sağ olun. Salamat qalın.

**Qadın sakinlər:** Sərkərdəmiz güclüdür, biz həmişə güclü olacağıq. Allah qorusun Sizi, üstümüzdən əskik olmayasınız, səmimi insanlarsınız. Xalq Sizi sevir, həqiqətən də elədir.

**Prezident İlham Əliyev:** Sağ olun. Rahat yaşayın.

**Qadın sakin:** Cənab Prezident, Suqovuşana tez-tez gələsiniz, inşallah.

**Mehriban xanım Əliyeva:** İnşallah.

*

Sonra xatirə şəkilləri çəkdirildi.



**AZƏRTAC**

## Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik

**Hörmətli həmvətənlər!**

Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə bahar əhval ruhiyyəsi, cansağlığı və uğurlar arzulayıram.

Ulu əcdadlarımızın müqəddəs yadigarı olan Novruz bayramı müdrik Azərbaycan xalqının zəngin həyat fəlsəfəsini və nikbin dünyagörüşünü günümüzədək yaşadaraq milli-mənəvi varisliyin bariz nümunəsinə çevrilmişdir. Bu böyük el bayramı təbiətə məhəbbətin, ruhi paklıq və gözəlliyin, mərhəmət və xeyirxahlığın yüksək təntənəsidir. Ali ümumbəşəri dəyərlərin daşıyıcısı olduğu üçün o, dünya mədəni irsinin qiymətli nümunələri sırasında layiqli yer tutur.

Novruz bayramı milli təfəkkürümüzün ayrılmaz parçası kimi ənənəvi dəyərlərimizin formalaşmasında müstəsna rol oynamışdır. Ölkəmizi sivilizasiyaların qovuşuğundakı qədim mərkəzlərdən biri olaraq tanıtmış misilsiz mənəviyyat xəzinəmizdə Novruz mərasimləri xüsusi mövqeyə malikdir. Baharın gəlişinin əsrlərin yaddaşında iz qoymuş adətlərə uyğun şəkildə bu gün də rəngarəng el şənlikləri ilə Vətənimizin hər bir guşəsində geniş qeyd edilməsi tarixi-mədəni irsə bağlılığımızın parlaq ifadəsidir.

Cəmiyyətdə ünsiyyəti, qarşılıqlı səmimi münasibətləri dərinləşdirən və bizi azərbaycançılıq məfkurəsi işığında sıx birləşdirən Novruz bayramı milli həmrəyliyimizi getdikcə daha da möhkəmləndirir. Əminəm ki, bu həmrəylik duyğusu yaz fəslinin yeniləşdirici ab-havası və beşinci ildönümünə hazırlaşdığımız şanlı Zəfərin verdiyi mənəvi güclə vəhdətdə ümumxalq əhəmiyyətli bütün işlərimizin lazımi səviyyədə icrasını təmin edəcəkdir. Bayram sevincini işğaldan azad olunmuş əzəli torpaqlarımızda yaşayan soydaşlarımız əbədi qayıtdıqları öz dədə-baba yurdlarında aydın səma altında əmin-amanlıq içində daim şən qeyd etməkdə olsunlar.

Üzümüzə gələn Novruz bayramının hər evə, hər ocağa firavanlıq, səadət və bol ruzi-bərəkət gətirməsini diləyirəm.

Bayramınız mübarək olsun!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 mart 2025-ci il**

## Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin əməkdaşlarının "Miqrasiya orqanlarında qulluqda fərqlənməyə görə" medalı ilə təltif edilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin aşağıdakı əməkdaşları "Miqrasiya orqanlarında qulluqda fərqlənməyə görə" medalı ilə təltif edilsinlər:

Babayev Toğrul Cavanşir oğlu
Cabbarova Könül Şamil qızı
Əsgərov Nəbi Allahverdi oğlu
Fətəliyev Sahil Əli oğlu
Həsənov Cahandar Vidadi oğlu
Musayev Səbuhi Əbülfət oğlu
Mustafayev Şəhriyar Elman oğlu
Orucov Vüsal Ramiz oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 mart 2025-ci il**

## Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinin qeyd edilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

2025-ci ildə ölkənin ali elmi təşkilatının – Azərbaycan Milli Elmlər Akademiyasının təsis edilməsinin 80 ili tamam olur.

Azərbaycan Milli Elmlər Akademiyası yarandığı vaxtdan etibarən nailiyyətlərlə zəngin bir yol keçmiş, respublikanın elmi-intellektual potensialını milli sərvətə çevirən mərkəz kimi tanınmışdır. Akademiyanın ötən müddət ərzindəki səmərəli fəaliyyətinin əsasında elmin zamanın tələblərinə uyğun prioritet problemlərinin araşdırılması, ən müxtəlif elmi istiqamətlər üzrə yüksək hazırlıqlı kadrların yetişdirilməsi, elmi məktəblərin formalaşdırılması və nüfuzlu beynəlxalq elm qurumları ilə qarşılıqlı əlaqələrin genişləndirilməsi prinsipləri dayanmışdır. Bu gün də Akademiya elm sahəsində dövlət siyasətinin uğurla həyata keçirilməsində fəal iştirak edir, sosial-humanitar tədqiqatlarla cəmiyyətin yeni biliklərə yiyələnməsi və elmi-mədəni sərvətlərin yüksəldilməsi işinə töhfələr verir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Milli Elmlər Akademiyasının ölkədə elmin inkişafı, bu sahədə fəaliyyətin təşkili və yüksəkixtisaslı kadrlar hazırlanmasında rolunu nəzərə alaraq **qərara alıram:**

**1.** Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə birlikdə Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 mart 2025-ci il**

## Mehriban Əliyeva Ağdərədən paylaşım edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial şəbəkə hesablarında Ağdərədən paylaşım edib.

Paylaşım deyilir: "Ağdərə rayonu, Həsənriz kəndi. 18.03.2025. Uca Allah hər kəsə möhkəm cansağlığı, bol sevinc, sevgi və səadət, hər evə xoş ovqat, hər ocağa ruzi-bərəkət bəxş etsin! İlaxır çərşənbəniz mübarək!".



# Qəzalı binalar nəzarətdədir



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə ölkə ərazisində qəzalı vəziyyətə düşmüş çoxmənzilli yaşayış binaları ilə bağlı verilmiş tapşırıqların icra vəziyyəti, görüləcək işlər və digər əlaqəli məsələlərə dair iclas keçirilib.**

İclasda Fövqəladə Hallar Nazirliyinin, İqtisadiyyat Nazirliyinin, Maliyyə Nazirliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin, Bakı Şəhər İcra Hakimiyyətinin rəhbər şəxsləri iştirak edib, məruzələr dinlənilib.

İclasın yekununda müzakirə olunan məsələlər barədə qərarlar qəbul olunub, aidiyyəti qurumlara tapşırıqlar verilib.

***XQ***

# Milli Məclisin iclası



**Martın 18-də parlamentin sədri Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin yaz sessiyasında növbəti iclası keçirilib.**

S.Qafarova gündəliyə 14 məsələnin daxil edildiyini və birinci məsələnin “Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumətləri arasında rəqəmsal iqtisadiyyat üzrə tərəfdaşlıq Sazişi”nin təsdiq edilməsi haqqında qanun layihəsi olduğunu deyib. O bildirib ki, beynəlxalq sənədlə bağlı olduğuna görə layihə “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda qəbul edilməlidir.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Zaur Şükürov bu qanun layihəsini təqdim edib. Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov sənədin iqtisadi baxımdan və beynəlxalq münasibətlər nöqteyi-nəzərindən xüsusi əhəmiyyət kəsb etdiyini deyib, rəhbərlik etdiyi komitənin müsbət rəy verdiyini bildirib. Deputatlar məsələ ilə bağlı fikirlərini açıqladıqdan sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Sahibə Qafarova növbəti 5 məsələnin uyğunlaşdırma və dəqiqləşdirmə xarakteri daşıdığını, həmin sənədlərin müvafiq qanunvericiliyə uyğun olaraq bir oxunuşda qəbul ediləcəyini bildirib.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov “Lisenziyalar və icazələr haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə dair məlumat verib. Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov “Qiymətləndirmə fəaliyyəti haqqında” Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1052-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə” qanun layihəsinin mahiyyətini nəzərə çatdırıb.

Bildirilib ki, sənəd on üç qanunun qiymətləndirmə məsələlərini tənzimləyən müddəalarının "Qiymətləndirmə fəaliyyəti haqqında" Qanunun ayrı-ayrı normalarına uyğunlaşdırılması məqsədilə hazırlanıb. Aqrar siyasət, Hüquq siyasəti və dövlət quruculuğu, Regional məsələlər komitələrinin bu məsələ barədə müsbət rəy verdiyi qeyd edilib. Qanun layihəsi səsə qoyularaq qəbul olunub.

İclasda Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov “Ətraf mühitin mühafizəsi haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Parlamentin Əmək və sosial siyasət komitəsinin üzvü Vüqar Bayramov “Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı məlumat verib. Nəzərə çatdırılıb ki, adıçəkilən Qanunda əlilliyi olan şəxslərin səhhətinə və ailə başçısını itirmiş ailələrə vurulmuş ziyana görə zərərçəkmiş şəxslərə onların əlillik dərəcəsindən asılı olaraq birdəfəlik kompensasiyanın verilməsi, habelə 1986-1990-cı illərdə Çernobıldа qəzanın nəticələrinin ləğv edilməsi iştirakçılarına səhhətinə vurulmuş ziyana görə hər il üzrə kompensasiya verilməsi ilə bağlı müddəalar nəzərdə tutulub. Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Sonra Azər Əmiraslanov “Azərbaycan Respublikasının Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Milli Məclisin sədri gündəliyin növbəti 4 məsələsinin birinci oxunuşda qanun layihələri olduğunu söyləyib. Sonra Azər Əmiraslanov “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında”, “Üzümçülük və şərabçılıq haqqında”, “Dərman vasitələri haqqında” və “Reklam haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev “Sosial xidmət haqqında” Qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsinə dair məlumat verib. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli “Mediasiya haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev “Baytarlıq haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumat verib.

Qanun layihələri birinci oxunuşda qəbul edilib.

Milli Məclisin sədri Sahibə Qafarova bildirib ki, gündəliyin qalan dörd məsələsi ikinci oxunuşda olan qanun layihələridir. On birinci məsələ barədə məlumat verən Azər Əmiraslanov bildirib ki, “Nəqliyyat haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı birinci oxunuşda ətraflı məlumat verilib və sənədlə bağlı deputatlar tərəfindən hər hansı bir təklif, qeyd irəli sürülməyib. "Təhsil haqqında" və "Peşə təhsili haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov məlumat verib. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Elşən Musayev “Feldyeger rabitəsi haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı məlumat verib. Gündəliyin sonuncu məsələsi olan "Konstitusiya Məhkəməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov məlumat verib.

Deputatların dəyişikliklər barədə fikirləri dinlənildikdən sonra qanun layihələri ikinci oxunuşda qəbul edilib.

***XQ***

# Mərkəzi Seçki Komissiyasında

**Məzahir Pənahovun sədrliyi ilə martın 18-də Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib.**

Əvvəlcə Komissiyanın fevralın 12-də və fevralın 14-də keçirilən iclaslarının protokolları təsdiq edilib.

Sonra bəzi seçki dairələri üzrə dairə seçki komissiyalarının tərkibində dəyişikliklər edilməsi məsələsinə baxılıb. Aparılan müzakirələrin ardınca 15 saylı Yasamal birinci, 18 saylı Nərimanov-Nizami-Binəqədi, 43 saylı Sumqayıt ikinci və 79 saylı Astara seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsinə qərar verilib.

Media mənsublarının iştirakı ilə keçirilən iclasda, həmçinin cari məsələlərə də baxılıb.

***XQ***

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın Quba rayonuna səfəri

## “Səkinə xanım” məscidini ziyarət



**Martın 18-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Qubaya səfəri zamanı “Səkinə xanım” məscidini ziyarət edib.**

Məscidin imamı Hacıhəmdulla Dəniyarlı Leyla Əliyevaya bu ibadət ocağı barədə məlumat verib.

Bildirilib ki, Quba şəhərindəki “Səkinə xanım” məscidi Abbasqulu ağa Bakıxanovun xatirəsini əbədiləşdirmək məqsədilə həyat yoldaşı Səkinə xanım tərəfindən 1854-cü ildə tikdirilib.

Hündürlüyü 27 metr olan tarixi məscid dördbucaqlı formadadır. 1930-cu illərdə məscid sovet hakimiyyəti tərəfindən bağlanaraq, ətrafındakı mədrəsə və köməkçi binalar dağıdılıb. Daha sonra məsciddən anbar kimi istifadə olunub. Bir müddət sonra isə burada tikiş sexi fəaliyyət göstərib.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bura yenidən məscid kimi istifadəyə verilib. Məscid əsaslı şəkildə təmir olunub, dəstəmazxana və digər köməkçi binalar inşa edilib.

Hazırda “Səkinə xanım” məscidi ölkə əhəmiyyətli tarixi abidə kimi dövlət qeydiyyatındadır.

## Şəhid övladlarının Novruz şənliyində

**Martın 18-də - İlaxır çərşənbəsi günündə Heydər Əliyev Fondunun dəstəyi ilə qəhrəman şəhidlərimizin övladları üçün Novruz şənliyi keçirilib.**



Bakıdan, Heydər Əliyev Mərkəzinin qarşısından xüsusi ayrılmış avtobuslarla Qubaya yola düşən uşaqlar burada onlar üçün təşkil olunan bayram süfrəsi ətrafında maraqlı bir gün keçiriblər.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva bayram şənliyində şəhid övladları ilə birgə olub.

Azyaşlılar və yeniyetmələr müxtəlif oyunlar və müsabiqələr vasitəsilə bacarıq və qabiliyyətlərini nümayiş etdirib, DJ-lərin, animatorların iştirakı ilə təqdim olunan



müxtəlif əyləncə və şou-proqramlara qatılıb, rəqs edib, oyunlarda iştirak ediblər.

Bayram şənliyinin sonunda doğum günü olan uşaqlarla birgə tort kəsilib və tədbir iştirakçılarına Heydər Əliyev Fondunun hədiyyələri təqdim olunub.

Qeyd edək ki, Heydər Əliyev Fondu valideyn himayəsindən məhrum, xüsusi qayğıya ehtiyacı olan uşaqları, həmçinin şəhidlərimizin bizə əmanəti olan övladlarını hər zaman diqqətdə saxlayır. Fond bu kateqoriyadan olan uşaqlar üçün mütəmadi tədbirlər keçirir, onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində daim layihələr reallaşdırır.

## Qırmızı qəsəbə Muzeyində





**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva martın 18-də Qırmızı qəsəbədəki Dağ Yəhudiləri Muzeyini ziyarət edib.**

Muzeyin direktor müavini Naum Naftaliyev Leyla Əliyevaya bu mədəniyyət ocağı barədə məlumat verdi.

Qeyd edildi ki, bura dünyada dağ yəhudilərinin ilk muzeyi sayılır. Burada dağ yəhudilərinin tarixini, adət-ənənələrini, mədəniyyətini əks etdirən eksponatlar sərgilənir.

Qarçaği sinaqoqunda yaradılan muzeydə Qafqazın müxtəlif yerlərindən gətirilmiş milli geyimlər, ayin qabları, əlyazmalar, kitablar, XIX əsrə aid antik əşyalar, dağ icmasının irsi və ənənələri qorunub saxlanılır.

Mövcudluğu ilə regionda Azərbaycanın tolerantlığının daha bir təsdiqinə çevrilən bu məkan həm də millətlərarası tarixi əlaqələri və multikulturalizmi təqdim edir.

## “Altı günbəz” sinaqoqunda

**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva martın 18-də Qubadakı Qırmızı qəsəbədə “Altı günbəz” sinaqoqunda olub.**

Leyla Əliyevaya sinaqoqun tarixi barədə məlumat verilib.

Bildirilib ki, 1888-ci ildə inşa edilən sinaqoq Şərq üslubunda tikilmiş qədim memarlıq abidəsidir. Böyük ibadət zalı olan sinaqoqun içərisindəki ibadət divarına baxan hissə aron-kaduş adlanır. Altıguşəli ulduz şəklində olan pəncərələr palıd ağacından hazırlanıb. Burada dini mərasimlərin keçirilməsi üçün 60 nəfərlik ibadət zalı var.

Sovet dövründə məbəd anbar kimi istifadə olunub. Müstəqillik illərində isə sinaqoq bərpa edilərək yenidən istifadəyə verilib.



***XQ***

# Milli ideya XXI əsrin yeni geosiyasi çağırışları fonunda




II MƏQALƏ

## Milli ideya və milli ideologiya

I məqalənin son tezisi milli ideyanın hər bir tarixi mərhələdə fərdi və kollektiv miqyaslarda sosial, psixoloji, mədəni, mənəvi, emosional və digər aspektlərdə identikliyin dövlət identikliyi ilə münasibətlərini tənzimləyən əsas faktor kimi anlamı ilə bağlı idi. XXI əsrin yeni çağırışları fonunda, bu, bir tərəfdən milli ideyaya kreativ yanaşaraq, onu dinamik yeniləşə bilən proses kimi təsəvvür etməyi, digər tərəfdən isə istənilən dəyişiklik fonunda belə milli ideyanın Azərbaycan üçün başlamış yeni tarixi mərhələ kontekstindən kənara çıxa bilməməsini qəbul edir. Bu, ümumi tezisdir və onu konkretləşdirməyə ehtiyac var.

Birincisi, milli ideyanın dinamik yeniləşməsi məsələsi dəqiq və konkret faktor üzrə ola bilər. Yəni burada universal miqyasda milli ideyanın yeniləşməsindən söhbət getmir. Onda baxdığımız məsələ milli ideyanı adekvat ifadə etmir. Çünki milli ideya öncədən müəyyən edilən elə əsas fəaliyyət məzmunu və məqsəddir ki, müəyyən perspektivdə toplum və dövlət üçün mahiyyətcə dəyişməz qalmalıdır. Müəyyən detallarda, aspektlərdə, xüsusiyyətlərdə isə korrektələr ola bilər və bəzən, bu, zərurətə çevrilir.

İkincisi, milli ideya dövlət və cəmiyyət üçün elə həssas və dərin məqamlarla bağlı özəlliklərə malikdir ki, onun daim bir ideoloji çərçivədə qalması vacibdir. Azərbaycan üçün, bu, yeni tarixi mərhələdə milli ideyanın azərbaycançılıq ideologiyası çərçivəsində hər korrektə edilmə ssenarisində (milli ideyanın məzmun və məqsədində) qalmasının təmini deməkdir.

Bizim üçün bu iki şərtin ödənmsəi strateji xarakter daşıyır. XXI əsrin yeni çağırışları ilə bağlı məsələ geosiyasi, siyasi, ideoloji və milli kimlik kontekstində daha da aktuallaşır. Vurğulanan situasiyanı daha aydın təsəvvür etmək üçün öncə XXI əsrin çağırışlarının hansı istiqamtədə milli ideyaya təsir edə biləcəyi üzərində dayanaq.

## Yeni çağırışların təsir hədəfləri

Burada iki prinsipial cəhəti qeyd etmək lazımdır. Birinci cəhət onunla bağlıdır ki, indi əksəriyyətin "XXI əsrin yeni çağırışı" dediyi proses təzə başlamışdır. Konkret olaraq biz Prezident İlham Əliyevin bununla bağlı mövqeyinin düzgünlüyünü nəzərdə tuturuq. İkinci cəhət isə dövlət başçısının məsələni qiymətləndirməsi fonunda və azərbaycançılıq ideologiyası kontekstində yeni tarixi mərhələdə milli ideyada hansı yeni məqamların diqqətə alınmasının müəyyənləşməsi ilə əlaqəlidir.

Öncə Azərbaycan Prezidentinin mövcud geosiyasi situasiyanın daha ədalətli dünya düzəni yaratmaq kontekstində fikir dinamikasına nəzər salaq. 2024-cü il martın 14-də XI Qlobal Bakı Forumunun mövzusu "Parçalanmış dünyanın bərpası" idi. Bu, təsadüf deyildi, əksinə müasir dünyanın real geosiyasi mənzərəsinin dəqiq ifadəsi idi. Forumun təşkilatçılarından olan Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin müasir vəziyyətlə bağlı demişdi: "Biz "Parçalanmış dünyanın bərpası" adı altında görüşürük. Dünya həqiqətən parçalanıb, hər yerdə ciddi çağırışlar var. Əslində, biz təhlükənin hökm sürdüyü vaxtda görüşürük... Təhdidlər ətrafdadır, yeni dünya düzəni yarandığı bir dövrdə böyük güclər formalaşmış düzənin quruluşunu parçalayır, mövcud sülh və təhlükəsizlik qaydalarının dəyişdirilməsi prosesinə cəlb olunurlar". Nümunə kimi, İsmail Serageldin Rusiya-Ukrayna müharibəsini, ABŞ-ın "dərindən parçalanmış siyasətini", Latın Amerikasında cinayətkarlıq və zorakılığın baş alıb getməsini, "hazırda qaçqınların və məcburi köçkünlərin sayının hətta 100 milyonu keçdiyi"ni, "Çinin formalaşan yeni dünya düzənində haqlı olaraq əsas rol oynamağa" çalışmasını göstərmişdir.

Həmin forumda Prezident İlham Əliyevin qlobal və regional miqyaslarda geosiyasi yanaşmasında aşağıdakı fikirlər əsas yer almışdır. Dövlət başçısı demişdir: "Dünya sürətlə dəyişir. Əfsuslar olsun ki, yeni qeyri-sabitlik və qarşıdurma ocaqları meydana çıxır. Ötən ilin martında müzakirə etdiklərimizlə bu gün müzakirə etdiklərimizi müqayisə etsək nəzərəçarpan dəyişikliklər görərik. Burada geosiyasi dəyişikliklər baş verir. Ona görə də qlobal əhəmiyyət kəsb edən məsələlərin həlli üçün bu gün dünyanın həqiqətən də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvlərinin və iştirakçılarının təcrübəsinə, biliyinə, onların dövlət, hökumət başçıları və xarici işlər nazirləri kimi təcrübəsinə ehtiyacı var".

Bütün bunların fonunda Cənubi Qafqazda baş verən prosesləri dövlət başçısı belə qiymətləndirmişdir: "Qeyd etdiyim kimi, ötən görüşümüzdən bu yana dünyada, eləcə də regionumuzda çox hadisələr baş verib. Regionumuzdakı dəyişikliklər lokal xarakterli kimi görünə bilər, əslində isə zənnimcə, onların daha geniş fəsadları var. Çünki bir il bundan əvvəl burada ötən görüşümüzdən bu yana baş verən əsas geosiyasi dəyişiklik Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tam bərpasıdır. Bu, həqiqətən də çox ciddi geosiyasi dəyişiklikdir ki, fikrimcə həll olunmayan kimi görünən münaqişələrin həllinə çox müsbət təsir göstərəcək".

Nəhayət, dövlət başçısı həm qlobal və regional miqyasda baş verənlərin Azərbaycana təsiri, həm də bu situasiyada dövlətimizin fəaliyyətini aydın ifadə etmişdir. İlham Əliyev bəyan etmişdir ki, "Azərbaycan sülh prosesini davam etdirməyə hazırdır. Hər iki ölkənin xarici işlər nazirləri səviyyəsində görüşlər bərpa olunub və indi biz düşünürük ki, sülhə nail olmaq mümkündür. Biz bunu istəyirik. Biz tarixi ədaləti və beynəlxalq hüququ bərpa etdik və indi regionda düşmənçiliyə son qoymaq vaxtı yetişib".

İndi yuxarıda vurğulanan məqamların prizmasında bir il sonra, 2025-ci il martın 13–15-də keçirilən XII Bakı Forumuna baxaq. Bu dəfə mövzu yeni çağırışlar fonunda dünya düzəninin formalaşması ilə bağlı idi. Deməli, keçən bir il müddətində faktiki olaraq qlobal və regional geosiyasətdə müsbət istiqamətdə ciddi yenilik olmamışdır. XII Bakı Qlobal Forumu zamanı "Euronews" televiziyasına verdiyi müsahibədə Azərbaycanın dövlət başçısı vurğulamışdır: "Bu gün hər kəs tərəfindən bölüşülən fikir odur ki, hazırda yeni qaydaların müəyyənləşdirilməsi prosesi baş verir. Bildiyimiz dünya nizamı artıq mövcud deyil. Hələ ki, beynəlxalq ictimaiyyət tərəfindən istifadə olunacaq qarşılıqlı əlaqə konfiqurasiyası heç kəsə bəlli deyil. Buna dair fərqli fikirlər var".

Buradan Azərbaycan lideri iki mühüm fikri məntiqi olaraq alır və bəyan edir. Birincisi, "hər bir ölkənin özünün daxili işlərinə və daxili imkanlarına daha çox diqqət ayırmalı, hər hansı bir yardıma və hətta beynəlxalq hüquqa arxalanmamalı olduğunu" qeyd edir, ikincisi, "beynəlxalq hüququn selektiv tətbiqinin qurbanı olan Azərbaycanın gələcəyini daxili resurslar hesabına qurmaq baxımından böyük təcrübəsi" olduğunu vurğulayır.

Son iki ildə dünya miqyasında baş verənlərə Azərbaycan Prezidentinin münasibəti göstərir ki, qlobal və regional miqyaslarda qeyri-müəyyənlik, risklər, təhdidlər, çağırışlar bütövlükdə geosiyasi sabitsizliyi gücləndirir, müstəqil dövlətlər bununla bağlı çətin vəziyyətə düşürlər. Bundan başqa, həmin proseslər faktiki olaraq müstəqil dövlətlərin daxili vəziyyətinə ciddi təsir edir. Bu təsirlərin özəlliyi ondan ibarətdir ki, hazırda xarici neqativ təsirlərlə daxili situasiya arasında ciddi bağlantı vardır. Nümunə kimi, dünyanın böyük güclərinin Azərbaycan–Ermənistan münaqişəsini (artıq həll olunmuş) ədalətli həll etmək istəməmələrini göstərmək olar. Bu vəziyyət uzun müddət (30 il) həm bütövlükdə Cənubi Qafqazı, həm də orada yerləşən dövlətləri ziddiyyətli vəziyyətdə saxlamışdır. Heç bir yerli dövlət tam mənası ilə təminatlı sabitliyə nail olmamışdır. Yalnız Azərbaycan daxili sabitliyini saxlamış və həm də onu qorumaq üçün titanik güc sərf etmişdir. Belə bir vəziyyətdə Azərbaycan məhz milli ideyanın məzmunu, hədəfi və məqsədini düzgün müəyyən etmək sayəsində uğurlar əldə etmişdir. "Ərazi bütövlüyünün bərpası" milli ideya kimi həmin mərhələdə bütün dövləti və sosial rıçaqları vahid məqsəd istiqamətində birləşdirməyə ciddi təkan vermişdir.

Deməli, həmin mərhələdə Azərbaycanın milli ideyasının konkret məzmun, forma və məqsəd almasında qlobal və regional geosiyasi dinamikanın çox ciddi rolu olmuşdur. Eyni məntiqlə deyə bilərik ki, bizim üçün çox əhəmiyyətli olan postmünaqişə və ya postmüharibə mərhələsində milli ideyanın məzmun və məqsədinin müəyyən edilməsində qlobal və regional geosiyasi dinamikanın təsiri əsaslı olaraq nəzərə alınmalıdır.

Bu fəaliyyətin birbaşa azərbaycançılıq məfkurəsi ideologiyası çərçivəsində həyata keçirilməsinin həm taktiki, həm də strateji zəruriliyi aydın görünür. Azərbaycan lideri İlham Əliyevin vurğuladığı kimi, qlobal və regional geosiyasi təsirlər müstəqil dövlətlərin daxili vəziyyətinə ciddi təsir edir ("hər bir ölkənin özünün daxili işlərinə və daxili imkanlarına daha çox diqqət ayırmalı, hər hansı bir yardıma və hətta, beynəlxalq hüquqa arxalanmamalı olduğunu"). Bu özəlliyi Azərbaycan həmişə nəzərə almışdır və ona əsasən fəaliyyət göstərmişdir ("beynəlxalq hüququn selektiv tətbiqinin qurbanı olan Azərbaycanın gələcəyini daxili resurslar hesabına qurması baxımından böyük təcrübəsi").

Deməli, Azərbaycan yeni mərhələdə də azərbaycançılıq məfkurəsi kontekstində siyasətini aparmalıdır. Bu o deməkdir ki, hər bir səviyyədə bizim ölkə, dövlət və cəmiyyət üçün əsas tezis belə olmalıdır: "Öncə Azərbaycan"! Bu tezis bəlkə də yeni tarixi mərhələdə milli ideyanın əsas parametrlərindən biri ola bilər. Lakin indidən deyə bilərik ki, regonlararası miqyasda Azərbaycan Respublikası üçün azərbaycançılıq ideologiyası kontekstində öncə Azərbaycanın maraqlarının təmini olmalıdır!

## Regional liderlik faktoru

Maraqlıdır, milli ideyada regional liderlik faktoru necə nəzərə alına bilər ki, praktiki nəticəsi olsun? Yuxarıda qısa təsvir edilən qlobal və regional çağırışlar diktə edir ki, hansısa formada bu məqam diqqətə alınmalıdır. Çünki Azərbaycan müstəqil və qalib dövlət kimi milli ilə yanaşı, regional təhlükəsizlik məsuliyyətini də öz üzərinə götürmüş olur. Bəs bunu milli ideya səviyyəsinə yüksəltməyə ehtiyac varmı?

Bizcə, çox böyük anlam və əhəmiyyətdə ehtiyac vardır! Məsələ onunla bağlıdır ki, regional liderlik Cənubi Qafqaz üçün bir dönüm nöqtəsidir. Elə bir nöqtə ki, yalnız Cənubi Qafqazla məhdudlaşmayan geniş bir geosiyasi məkanda tamamilə müsbət mahiyyətli yeni geosiyasi dinamika, mənzərə və konfiqurasiya yarana bilər! Bu prosesin əsas motivəedici və reallaşdırıcı gücü isə Azərbaycan Respublikasıdır! Bununla Azərbaycan "adi müstəqil dövlət" statusundan yeni səviyyəyə keçid prosesindədir. Onun milli ideya kontekstində izahını vermək gərəkdir.

Yığcam ifadə etsək, Azərbaycan tədricən ABŞ, Rusiya, Türkiyə, Çin kimi böyük güclərin malik olduqları geosiyasi statusla "orta güc" adlanan bir sıra dövlətlərin (İsrail, Argentina, Pakistan və s.) malik olduqları status arasında yer tutmaqdadır. Azərbaycan hələlik təsir baxımından "orta güc" statuslu dövlətlər səviyyəsində deyil. Lakin Bakı artıq öz regionunda şəriksiz liderdir və növbəti mərhələ onun üçün regionlararası miqyasda lider olmaqla bağlıdır. Yeni tarixi mərhələnin başlıca mahiyyəti bundan ibarətdir.

Deməli, Azərbaycanın yeni geosiyasi statusu "regionlararası lider" olmalıdır. Bunun başlıca əlamətini ədalətlilik, beynəlxalq hüquq və qarşılıqlı faydalı əməkdaşlıqla təhlükəsizliyin təmininin sintezi təşkil edir.

Deməli, Azərbaycan Respublikası regionlararası geosiyasi güc statusuna yüksəlmək üçün daxili inkişafın mənəvi potensialı, sosial, mədəni, siyasi birləşdirici imkanları ilə regionlararası mühitdə birləşdirici ola biləcək qüvvəyə, mənəvi potensiala, sosial, siyasi və mədəni kimliyə uğurlu proyeksiya etməlidir. Bu isə onu göstərir ki, Azərbaycan, məsələn, ABŞ-da olduğu kimi xarici məqsədini daxili milli strateji məsələ kimi görməli və onu dəqiq fəaliyyət proqramı çərçivəsində sistemli reallaşdırmalıdır.

Belə alınır ki, regionlararası liderlik məsələsi Azərbaycan üçün faktiki olaraq milli ideya səviyyəsinə yüksəlmiş məqamdır. Azərbaycan həmin məqsədinə cəmiyyət və dövlət olaraq bütün potensialını və real gücünü səfərbər edərək çata bilər!

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

---

**Kamal Adıgözəlovun nəfis tərtibatlı "Yeni tarixi mərhələdə Azərbaycanın xarici siyasətinin prioritetləri: politoloji təhlil" adlı monoqrafiyası işıq üzü görüb. Kitab ulu öndər Heydər Əliyevin əziz xatirəsinə ithaf edilib. Monoqrafiya yeni tarixi mərhələ üçün Prezident İlham Əliyevin müəyyən etdiyi xarici siyasətin 14 prioritet istiqamətinin politoloji təhlilinə həsr edilib. Tədqiqatın araşdırma məntiqi maraqlı siyasi-nəzəri süjet üzərində qurulub. Belə ki, xarici siyasətin prioritet istiqamətləri arasında politoloji aspektdə məzmun bağlantıları təhlil edilib.**

# Yeni politoloji tədqiqat

Bundan başqa, müəllif müasir mərhələdə Azərbaycanın xaici siyasətinin mahiyyət, məzmun və əsas məqsədlərini ümumiləşdirməyə çalışıb. Həmin aspektdə maraqlı qənaətlər əldə edilib. Bu sırada müəllifin Azərbaycanın xarici siyasətində multivektoralizmin, multilateralizmin, multiregionalizmin və mutikulturaslizmin (obrazlı, "4M" siyasəti) yeri və rolunu təhlil etməsi müsbət təsir bağışlayır.

Monoqrafiyanın maraqlı cəhətlərindən biri xarici siyasətin prioritet istiqamətlərinin ölkənin strateji inkişaf konsepsiyası fonunda təhlil edilməsidir.

Kitabın elmi redaktorları və rəyçiləri Azərbaycan elminin tanınmış simaları sırasındandırlar.

*XQ*




---

# Azərbaycanın müasir geosiyasi strategiyası

**Dünyada siyasi və iqtisadi güc balanslarının sürətlə dəyişdiyi, beynəlxalq münasibətlər sisteminin yeni mərhələyə qədəm qoyduğu bir dövrdə dövlətlərin xarici siyasət strategiyalarında mühüm dəyişikliklər baş verir. Müasir beynəlxalq sistem qeyri-müəyyənlik, güc rəqabəti və regional münaqişələrlə səciyyələnir. Belə bir şəraitdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin XII Qlobal Bakı Forumu çərçivəsində "Euronews" televiziyasına verdiyi müsahibə xüsusi diqqət çəkir. Bu müsahibə Azərbaycanın qlobal və regional proseslərə baxışını, ölkənin yeni geosiyasi konfiqurasiyada tutduğu mövqeyi və diplomatik prioritetlərini daha dərin təhlil etməyə imkan yaradır.**



Prezident İlham Əliyevin müsahibəsində beynəlxalq münasibətlər sisteminin hazırkı vəziyyətinə obyektiv yanaşma özünü göstərir. Dünya siyasəti artıq təkqütblü və ya ikiqütblü düzən çərçivəsində idarə edilmir, yeni güc mərkəzlərinin formalaşması isə beynəlxalq hüququn selektiv şəkildə tətbiqinə səbəb olur. Qlobal güclər arasında artan rəqabət fonunda beynəlxalq hüququn yalnız müəyyən maraqlara xidmət edən alətə çevrilməsi, Azərbaycanın 30 ildən artıq bir müddətdə üzləşdiyi reallıqdır. İşğal dövründə BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra olunmaması buna bariz nümunədir. Prezident Əliyevin müsahibədə vurğuladığı əsas məqam Azərbaycanın yeni geosiyasi düzəndə daha müstəqil, öz maraqlarına əsaslanan və qlobal reallıqlara uyğunlaşdırılmış xarici siyasət həyata keçirməsidir.

Azərbaycanın xarici siyasət doktrinasında beynəlxalq təşkilatlardan çox, ikitərəfli münasibətlərin ön planda olduğu açıq şəkildə ifadə edildi. Bunun başlıca səbəbi qlobal təşkilatların qərar qəbuletmə prosesində effektiv ola bilməməsi və bəzi hallarda böyük güclərin təsiri altında fəaliyyət göstərməsidir. Azərbaycan isə daha çevik və praqmatik yanaşma tətbiq edərək, ikitərəfli əlaqələr üzərindən strateji əməkdaşlıqlar qurmağa üstünlük verir. Türkiyə, Pakistan, İsrail, İtaliya, Macarıstan və Mərkəzi Asiya ölkələri ilə inkişaf edən tərəfdaşlıq bu siyasətin nəticəsidir. Xüsusilə, Türkiyə ilə strateji müttəfiqlik Azərbaycanı regional güc mərkəzinə çevirərək, onun təhlükəsizlik və iqtisadi sahələrdə yeni imkanlar əldə etməsinə şərait yaradıb.

Prezident İlham Əliyev, həmçinin Azərbaycan-Ermənistan münasibətlərinə də xüsusi yer ayırdı. Sülh prosesinin ləngiməsinin əsas səbəbi Ermənistanın daxili siyasi dilemmasıdır. Nikol Paşinyan hökuməti Qərbə inteqrasiya etmək və Azərbaycanla barışığa nail olmaq istəsə də, daxildəki radikal qüvvələrin təzyiqi altında cəsarətsiz mövqe sərgiləyir. Azərbaycanın bu məsələdə mövqeyi isə dəyişməz olaraq qalır: beynəlxalq hüquqa əsaslanan, ərazi bütövlüyünü və suverenliyini qoruyan bir sülh sazişi imzalanmalıdır. Eyni zamanda, Ermənistanla münasibətlərin normallaşması region üçün strateji əhəmiyyət kəsb edir, çünki bu, nəqliyyat dəhlizlərinin açılmasına və iqtisadi inteqrasiyanın sürətlənməsinə təkan verə bilər. Lakin burada Qərbin, Rusiyanın və İranın geosiyasi maraqları nəzərə alınmalıdır.

Azərbaycanın geosiyasi rolunun güclənməsində enerji diplomatiyası da mühüm yer tutur. Prezident İlham Əliyevin müsahibəsində Avropa İttifaqı ilə enerji əməkdaşlığı məsələsi xüsusi qeyd olundu. Son illərdə Azərbaycanın Avropanın enerji təhlükəsizliyində strateji oyunçuya çevrilməsi, xüsusilə Rusiya – Ukrayna müharibəsindən sonra daha da aktuallaşıb. Avropanın enerji asılılığını diversifikasiya etmək istəyi Azərbaycanın əhəmiyyətini artırıb, ölkənin Şərqi Avropaya və Balkanlara qaz ixracı isə Xəzər regionunun enerji marşrutlarının mühüm qovşağa çevrilməsinə şərait yaradıb. Prezidentin bu kontekstdə verdiyi mesajlar göstərdi ki, Azərbaycan təkcə enerji ixrac edən ölkə deyil, həm də qlobal enerji bazarlarında strateji aktordur.

"Euronews"a müsahibə Azərbaycanın beynəlxalq münasibətlər sistemində tutduğu yeni mövqeyi açıq şəkildə nümayiş etdirdi. Xarici siyasətdə daha praqmatik və müstəqil xəttə davam etdirilməsi, regional sabitliyin və təhlükəsizliyin təmin edilməsi, enerji diplomatiyasının gücləndirilməsi və ikitərəfli əlaqələrə üstünlük verilməsi bu siyasətin əsas konturlarını formalaşdırır. Prezident İlham Əliyevin strateji baxışı Azərbaycanın siyasi müstəqilliyini qorumaqla yanaşı, qlobal trendlərə uyğun çevik diplomatik manevrlər etməsinə imkan yaradır. Azərbaycanın yeni dünya düzənində güclü aktor kimi mövqeyini qoruyub saxlaması məhz bu strategiyanın uğurlu icrasından asılı olacaq.

***Şəbnəm ZEYNALOVA,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Ermənistan hakimiyyətinin saxta konstruktivliyi

*(əvvəli 1-ci səhifədə)*

Deməli, rəsmi İrəvan yaydığı bəyanatla öz gündəmini diktə etməyə köklənib. Gündəmin başlıca hədəfi ölkəmizin Zəngəzur dəhlizi ideyasına qarşı çıxmaqdır və bu baxımdan iki xətt nəzərə çarpır. Birincisi, Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən yol ancaq dəmir yolundan ibarət olsun. Nəzərə alaq ki, bu "formulun" əlahiddə məqsədi var və onu yazının sonunda diqqətə çatdıracağıq. Rəsmi İrəvanın ikinci xətti isə Azərbaycanla Ermənistan arasında avtomobil nəqliyyatı üzrə yükdaşımalarda alternativ marşrutun seçilməsinə əsaslanır.

İkinci məqamdan başlayaq. N.Paşinyan son günlər regional kommunikasiyaların açılması ilə bağlı Laçın–Kornidzor–Marqara marşrutunu irəli sürməkdədir və bu barədə həm türkiyəli jurnalistlərə müsahibəsində, həm də ondan əvvəl "Armenpress"də yayımladığı məqaləsində söz açıb. Nikolun "formuluna" görə, yük avtomobilləri Azərbaycan ərazisi Laçından Ermənistan ərazisinə – Kornidzora daxil olacaq, oradan isə Marqaraya, yəni Türkiyə ilə sərhədə yön alacaq.

Maraqlıdır ki, Nikol bu fikri dilə gətirərkən, təklif etdiyi marşrutun hazır durumda olduğunu qabartmaqla yanaşı, Naxçıvan istiqamətindəki daşımalar üçün infrastrukturun yoxluğu üzərində dayanır. Elə təsəvvür yaradır ki, sanki Laçın–Kornidzor–Marqara müvəqqəti istifadə ediləcək hərəkət trayektoriyasıdır. Erməni baş nazirin Naxçıvan istiqamətinin avtomobil yolu seqmentini sıradan çıxarmaq istəyi də elə budur. Yəni, guya, müvəqqəti kimi götürülən Laçın–Kornidzor–Marqara vasitəsilə TIR-lar, Naxçıvana doğru isə yalnız qatarlar hərəkət edəcək. Ancaq Nikolun qatar yolu ilə əlaqədar şərti də var.



Paşinyanın məntiqinə görə, Azərbaycanın digər ərazilərindən Naxçıvana doğru hərəkət edəcək yük qatarları Ermənistan ərazisindən keçdikləri üçün Ermənistanın Mehri rayonundan ölkənin Yerasx bölgəsinə yük qatarları yön almalı və onlar Azərbaycanın ərazisindən, dəqiq desək, Naxçıvandan keçməlidirlər. Nikol məsələni "Ermənistandan Ermənistana yol" kimi qiymətləndirir. Başqa sözlə desək, ölkəmizin muxtar respublikaya yol baxımından irəli sürdüyü "Azərbaycandan Azərbaycana yol" məntiqinə qarşı "alternativ" kimi müəyyənləşdirir.

Aydındır ki, Mehri ilə Yerasx arasında yol var və Ermənistana həmin istiqamət üzrə dəmir yolu da lazımdırsa, bunu çəkə bilər. Azərbaycanın isə Naxçıvana quru yolu ümumiyyətlə yoxdur, qədim diyarımız blokadadır. Yəni, Mehri və Yerasx oxşar durumda olmadığından, rəsmi İrəvan "Azərbaycandan Azərbaycana yol"la "Ermənistandan Ermənistana yol" arasında eyniləşdirmə aparmamalıdır.

"Ermənistandan Ermənistana yol" ideyası baxımından Naxçıvana quru yolunun yalnız dəmir yolu gündəmi aktualdır. Bu, avtomobil nəqliyyatı ilə hərəkət seqmentinin sıradan çıxarılması deməkdir. Paşinyanın məqsədi isə ümumən Naxçıvana yolun olmamasıdır. Yəni, Paşinyanın təsəvvürünə görə, regional kommunikasiyaların açılması baxımından başlıca halqa Laçın–Kornidzor–Marqara marşrutudur.

Əlbəttə, Ermənistan hakimiyyəti Azərbaycanın Naxçıvana yalnız dəmir yolu əlaqəli məhdud hərəkət seqmentindəki şərtləri qəbul etməyəcəyini gözəl anlayır. Anlayır və Naxçıvana yolun qarşısına sədd çəkməklə, bütövlükdə Zəngəzur dəhlizi ideyasını iflasa uğratmağa çalışır. Barəsində söz açacağımızı bildirdiyimiz əlahiddə məqsəd də elə budur.

*

Belə bir nəticəyə gəlirik ki, Ermənistan baş naziri aparatının bəyanatı sırf manipulyativ xarakter daşıyır. Rəsmi İrəvan mənasız təkliflər irəli sürüb regional gündəmi məşğul etməklə, Ermənistanı dünyaya konstruktiv kimi göstərməyə çalışır. Paşinyan və komandasının üzvləri yanaşmalarının Bakı–İrəvan sülh gündəliyinə mənfi təsirinin də fərqindədirlər. Sadəcə, erməni avantürası üçün üstünlük qazanmaq niyyətlərindən əl çəkmirlər. Elə silahlara da buna görə əl atır və atəşkəsi pozurlar. Havadarlarına güvənib, öz aləmlərində, Azərbaycana təzyiq göstərəcəklərini sanırlar.

Sonda bildirək ki, Ermənistan tərəfi 44 günlük müharibədən sonra avantürist niyyətlətini gerçəkləşdirməyə çalışıb, həmişə manipulyativ yol tutub, reallıqları təhrif edib, özü üçün əlverişli durum formalaşdırmağa çalışıb, lakin istəyinə çata bilməyib. Heç şübhəsiz, indi də elə olacaq. Amma illüziyalara qapılmış rəsmi İrəvanın və havadarlarının nəzərə almadıqları bir məqam var. Onlar primitiv yanaşmaları ilə Ermənistan üçün yaşam şərtlərini ağırlaşdırdıqlarını düşünmürlər. Daha doğrusu, bunu düşünməyəcək qədər iflic durumdadırlar.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Sülhdən qorxanların vay-şivəni

**Azərbaycan və Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında saziş layihəsinin mətni üzrə danışıqların yekunlaşması İrəvandakı revanşistlərin yenidən hərəkətə keçmələrinə səbəb olub. Çünki iki ölkə arasında münasibətlərin normallaşması ölkəni 20 ildən çox idarə etmiş, onun olan-qalan sərvətlərini yağmalamış, talançılıqla məşğul olmuş Qarabağ klanının (1997–2018-ci illərdə Ermənistan dövlətini idarə edən, əsasən Qarabağ məsələsi ilə bağlı hərbi ritorika fonunda hakimiyyətə gələn mütəşəkkil cinayətkar dəstənin qeyri-rəsmi adı – S.H.) başçılarına sərf etmir.**




Burada haşiyə çıxaraq qeyd etmək lazımdır ki, haqqında söz açdığımız cinayətkar dəstənin hakimiyyəti dövründə Ermənistan, demək olar ki, sənayesizləşmiş, kasıb, dilənçi ölkəyə, Rusiya Federasiyası üçün əmək miqrantlarının əsas mənbələrdən birinə çevrilib, ordu xeyli zəifləyib, onun müdafiə qabiliyyəti heçə endirilib. Qarabağ klanı iki onillik ərzində, necə deyərlər, vampir kimi erməni xalqının qanını içib və Ermənistanın gələcək – İkinci Qarabağ müharibəsi zamanı biabırçı məğlubiyyətini, ermənilərin milli rüsvayçılığını əvvəlcədən müəyyən edib. Bu mütəşəkkil cinayətkar dəstə 2018-ci ilin mayında erməni xalqı tərəfindən siyasi səhnədən süpürülüb atılsa da, hələ də geri çəkilmək istəmir, 7 il öncə itirdiyi hakimiyyəti ələ keçirməyə çalışır. Məqsəd yenə də varlanmaq, itirilən mövqeləri bərpa etmək, hazırda hakimiyyətdə olanlarla haqq-hesab çəkmək və cəzasızlıq mühiti şəraitində ölkənin, necə deyərlər, bütün şirələrini sovurmaqdır. Qarabağ klanı hazırda Respublika partiyası, "Ermənistan" bloku, "Ana Ermənistan", "Şərəfim var" və digər kiçik partiyalarda birləşdib. Onun "xaç atası" yenə də bir zamanlar Ermənistan prezidenti olmağı bacarmış quldur Robert Koçaryandır. Prezident vəzifəsini "estafet" kimi 2008-ci ildə Koçaryandan təhvil almış Serj Sarkisyan, keçmiş müdafiə naziri Seyran Ohanyan kimilər isə onun sözəbaxan əlaltıları kimi tapşırıqlarını icra edirlər. Sonuncu şəxsə, yəni Ohanyana hazırda faktiki olaraq, Ermənistanda müxalifət düşərgəsinə rəhbərlik etmək missiyası həvalə edilib. O, bir neçə gün öncə növbəti revanşist bəyanatla çıxış edib.

"Ermənistan" blokunun parlament fraksiyasının rəhbəri Ohanyan revanşistlər üçün hər zaman tribuna rolu oyanayan "Nyus.am" saytına müsahibəsində deyib: "Düşünürəm ki, Qarabağ münaqişəsinin (?) düzgün həlli istiqamətində danışıqlar davam etməli və bu danışıqlarda Ermənistanın səsi eşidilməlidir".

Seyranın daha sonra səsləndirdiyi fikirlər məlum düşərgənin hazırda iki ölkə arasında əldə olunmuş razılığa münasibətinin açıqlanması baxımından maraq doğurur: "Bunlar ilk növbədə Qarabağın taleyi ilə bağlı danışıqlardır. Burada üç məqam nəzərə alınmalıdır. Birincisi, münaqişə bitməyib, Azərbaycanın "Qarabağ xalqının zorla deportasiyası yolu ilə törətdiyi cinayət əməlləri soyqırımı"dır və Azərbaycan buna görə cavab verməlidir. İkincisi, "Arsax respublikası"nın institutları fəaliyyət göstərməlidir, bütün idarəetmə sistemi işləməlidir və bu, Ermənistanda olmalıdır. Qarabağın taleyi ilə bağlı danışıqların alternativi yoxdur. Danışıqlar formatı isə Minsk qrupunun həmsədrliyidir. Bu proseslərin həyata keçirilməsi üçün hər şeyi etmək lazımdır. Danışıqlar, təbii ki, asan deyil, insanlar Qarabağın taleyinin həll olunduğunu düşünürlər. Təbii ki, bütün bunları bərpa etmək çətindir, lakin gecikmə cinayət kimidir".

Bu bəyanatın özü açıq şəkildə göstərir ki, Ermənistanın müxalif siyasi düşərgəsi,ələlxüsus radikallar və revanşistlər Qarabağ məsələsini qətiyyən həll olunmuş hesab etmirlər. Bu isə onu göstərir ki, həmin qüvvələr hakimiyyətə gələrlərsə, Ermənistan yenidən Azərbaycana qarşı ərazi iddiaları siyasətinə qayıdacaq. Yəni, Ohanyan və onun arxasında dayananlar doğrudan da heç anlamırlarmı ki, bu, ilk növbədə Ermənistanın özünə bədbəxtliklər gətirəcək?! Eyni zamanda, onlar bu yanaşmanın, bütövlükdə, Cənubi Qafqaz regionunda sabitliyə töhfə vermədiyini başa düşmürlər?!

Hələ sovet dövründə Bakıda – Ali Ümumqoşun Komandirləri Məktəbində hərbi təhsil almış, keçmiş SSRİ-nin bir çox yerlərində xidmət etmiş, "tuşonka" satan erməni generallarından fərqli olaraq, hərb işindən az-çox başı çıxan Ohanyan, aydın görünür ki, hazırkı geosiyasi vəziyyəti və Azərbaycan Ordusunun döyüş hazırlığının səviyyəsini, müdafiə qabiliyyətini nəzərə almır. Bu gün istənilən hərbi ekspert çox gözəl başa düşür ki, Ermənistan ordusunun Qarabağ ərazisinə müdaxiləsi bir neçə gün, hətta saatlar ərzində yatırdıla bilər. Üstəlik, onların hərəkətləri də heç bir real beynəlxalq dəstək almayacaq. Bundan əlavə, bu halda Ermənistan Sovet dövründə ona verilmiş ərazilərini itirmək riski ilə üzləşə bilər. Ohanyan və onun kimiləri Ermənistan və onun vətəndaşları haqqında düşünürlərmi? Görünən odur ki, düşünmürlər.

Bugünlərdə Qarabağ klanından aldığı direktivlərlə hərəkət edən erməni apostol kilsəsinin arxiyepiskopu, "Müqəddəs mübarizə" adlı qondarma hərəkatın rəhbəri Baqrat Qalstanyan da dilə gəlib. O, vətəndaşlarla canlı efirdə söhbət edərək ötən həftə baş verən hadisələrin yekunlarını təhlil edir və ona öz qiymətini verir. Keşiş, xüsusilə sülh sazişi ətrafında baş verənlərə toxunub və bunların Ermənistan dövlətinin maraqlarına cavab vermədiyini bildirib.

Baş verən prosesləri təhrif edən daha bir açıqlama tarixçi və politoloq Armen Ayvazyandan gəlib. O, "Nyus.am"a müsahibəsində deyib: "Kompromis söhbəti artıqdır, çünki Paşinyan həm Azərbaycanın, həm də Türkiyənin tələblərini bənd-bənd qəbul edir. Başa düşmək lazımdır ki, Ermənistanın kapitulyasiyası sənədləşdirilir".

Ermənistanın müstəqillik əldə etməsindən sonrakı ilk xarici işlər naziri Raffi Ovannisyan isə Ermənistan və Azərbaycan arasında sülh sazişinin mətni üzrə danışıqların başa çatması ilə bağlı müxtəlif ölkələrdən gələn bəyanatlara əhəmiyyət verməməyə çağırıb. O, revanşist fikirlərini davam etdirərək indiki siyasətin davamının yeni müharibəyə və ölkənin özünü məhvinə gətirib çıxaracağını iddia edib: "Nə bu sözlərin, nə də mətnin özünün uzunmüddətli və real sülhə heç bir aidiyyatı yoxdur".

Ümumiyyətlə, Ermənistanda bu kimi açıqlamalar verənlərin sayı getdikcə çoxalır. Onlar iki dövlət və xalq arasında düşmənçiliyin əbədi davam etməsini arzulayanlardır. Məqsədləri isə yazımızın girişində qeyd etdiyimiz kimi, erməni xalqının faciələri üzərindən şəxsi ambisiyalarını təmin etməkdir.

Əlbəttə, Ermənistanda baş qaldıran revanşizm meyilləri rəsmi Bakıda da diqqətlə izlənilir. Xarici işlər naziri Ceyhun Bayramovun "Milli Məclis" analitik informasiya jurnalında dərc olunan "Azərbaycanın müstəqil və suveren xarici siyasət modeli" məqaləsində qeyd etdikləri də bunun daha bir göstəricisidir. Nazir qeyd edib ki, Ermənistanda revanşizm tendensiyası normallaşma prosesinin yekunlaşdırılmasında ən ciddi maneədir.

XİN başçısı məqaləsində Azərbaycan–Ermənistan sülh müqaviləsinin mətni ilə bağlı aparılan danışıqlardan söz açıb: "Azərbaycanla Ermənistan arasında sülh sazişi üzrə ikitərəfli danışıqlar çərçivəsində əldə edilmiş irəliləyişə baxmayaraq, Ermənistanın konstitusiyasında və digər normativ hüquqi aktlarda ölkəmizə qarşı ərazi iddialarını ehtiva edən müddəaların dəyişdirilməsi istiqamətində Ermənistan tərəfinin siyasi iradə nümayiş etdirməməsi fonunda bu ölkədə davam edən revanşizm tendensiyası, xarici qüvvələrin birbaşa dəstəyi ilə Ermənistanın sürətlə silahlanması normallaşma prosesinin yekunlaşdırılması üçün ən ciddi maneə olaraq qalmaqda davam edir. Qeyd olunan təhdidlərin daim diqqət mərkəzində saxlanılması diplomatiyamızın əsas hədəflərindən biridir. Bunlarla yanaşı, Ermənistanın 30 ilə yaxın davam edən təcavüzü nəticəsində yaranmış itkin düşmüş şəxslər probleminin həlli istiqamətində beynəlxalq səylərin genişləndirilməsi, genişmiqyaslı humanitar minatəmizləmə əməliyyatları üçün dəstəyin cəlb edilməsi, habelə Ermənistandan qovulmuş 300 minə yaxın azərbaycanlının hüquqlarının bərpa olunması məsələsinin diqqət mərkəzində saxlanılması səyləri olduqca əhəmiyyətli istiqamətlərdəndir".

Nazir əlavə edib ki, 30 illik işğal dövründə olduğu kimi 44 günlük Vətən müharibəsində və antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpasından sonra da Azərbaycana qarşı Ermənistan və onun havadarları tərəfindən aparılan qarayaxma kampaniyasının qarşısının alınması, suverenliyimizə və ərazi bütövlüyümüzə qarşı təhdidlərin neytrallaşdırılması istiqamətində addımların beynəlxalq ictimaiyyətə izah edilməsi və bu addımları sual altına almaq, məhdudlaşdırmaq cəhdlərinin qarşısının alınmasına yönəlmiş ardıcıl, sistemli və qətiyyətli xarici siyasət fəaliyyəti davam etməlidir.

Əlbəttə, bu gün İrəvanda revanşist ideyalarla alışıb-yananlar çox güman ki, heç vaxt hakimiyyətə qayıtmayacaqlar. Onlar Ermənistan cəmiyyəti qarşısında özlərini bədnam ediblər. Bu səbəbdən çətin ki, nə vaxtsa hansısa məsul vəzifə tuta bilsinlər. Hərçən ki, heç nəyi tamamilə istisna etmək olmaz. Eyni zamanda, onlar keçmişin qalığı olan Qarabağ münaqişəsi və digər bu kimi mövzulardan istifadə edərək, əvvəlki fəaliyyətlərinə haqq qazandırmağa və Ermənistanın siyasi spektrində mövqelərini möhkəmləndirməyə çalışırlar. Hazırda Ermənistan cəmiyyətində, bütövlükdə, pasifist əhval-ruhiyyə hökm sürür. Bu isə Ermənistanın 44 günlük Vətən müharibəsində düçür olduğu ağır məğlubiyyətinin, eləcə də İrəvanın regiondakı siyasi vəziyyətə hərbi yolla təsir göstərməsinin qeyri-mümkün olduğunu sübut edən sonrakı hadisələrin nəticəsidir.

**Bu istiqamətdə fikirlərini XQ ilə bölüşən politoloq Yeganə Hacıyeva** bildirdi



ki, Ermənistan cəmiyyəti monoetnik olsa da, monolit deyil. Onun sözlərinə görə, müxtəlif qrupların təsir dairəsində olan təbəqələr var. Bura ABŞ-dakı, Avropa İttifaqındakı, həmçinin Rusiyadakı erməni lobbi qruplarının Ermənistan siyasəti və cəmiyyətindəki dəstəkçiləri daxildir. Bu səbəbdən sülh sazişi ilə bağlı məsələlərə fərqli yanaşmalar var: "Sülh sazişi regionda hamının maraqlarına cavab versə də, müxtəlif dairələr prosesi sabotaj etməyə çalışırlar. Həmin dairələrin hərəkətləri kənardan dəstəklənir. Avropa İttifaqından gələn direktivlər əsasında hərəkət edən siyasi qruplar hərəkətdədirlər. Əslində, onlar fəaliyyətlərini heç dayandırmamışdılar. Aİ-nin Ermənistana yardım qismində göndərdiyi maliyyənin bir hissəsi iki ölkənin münasibətlərinin gərginləşməsi üçün revanşist əhval-ruhiyyənin, necə deyərlər, diri qalmasına xərclənir".

Politoloq qeyd etdi ki, ancaq təkcə Aİ deyil, bütün dünyadakı erməni lobbisinin "dilən-dolan" mexanizmi proseslərin önündə gedir. Ötən il onlar keşiş Baqartı özlərinə birləşdirici fiqur seçiblər: "Əslində, dünyəvi ölkənin siyasi proseslərinin önündə kilsə nümayəndəsinin getməsinin özü də çox maraqlı hadisədir. Amma bu qəribəlik, Ermənistanın siyasi reallığıdır. Ermənistanda Azərbaycanla münasibətlərin normallaşmasından məmnun olmayan dairələr var. Bu dairələrə onların müxtəlif beynəlxalq təşkilatlardakı havadarları dəstək verir".

***Səxavət HƏMİD***
***XQ***

# Qərbi Azərbaycana Qayıdış ümumxalq hərəkatına çevrilib

## Soydaşlarımızın doğma yurda qayıdışının qarşısını heç bir qüvvə ala bilməz



**Artıq Qərbi Azərbaycana qayıdış məsələsinin ümummilli məsələyə çevrildiyini deyə bilərik. Vaxtilə bu coğrafiyada – Azərbaycanın tarixi torpaqlarında təkcə İrəvan xanlığı deyil, Qarabağ, Naxçıvan, Gəncə xanlıqları, Borçalının dağlıq hissəsi yerləşirdi. Böyük Qayıdışın ayrılmaz tərkib hissəsi olan Qərbi Azərbaycan uğrunda mübarizə həm də milli birliyin nümayişidir.**

Prezident İlham Əliyevin bir sözü var: beynəlxalq hüquq güc deyil, güc beynəlxalq hüquqdur. Bu baxımdan Qərbi Azərbaycan həqiqətlərinin beynəlxalq müstəviyə çıxarılması, erməni saxtakarlıqlarının tam ifşa edilməsi çox vacibdir. 1988-1991-ci illərdə doğma yurdlarından qovulan soydaşlarımıza dəyən maddi və mənəvi ziyan da gündəmə gətirilməlidir. Bəs, sülhə bu qədər yaxınlaşdığımız indiki mərhələdə rəsmi İrəvanın bizim üçün ümummilli əhəmiyyət kəsb edən bu məsələyə qorxu içində yanaşmasının, bir çox hallarda panika vəziyyətinə düşməsinin səbəbi nədir? Bu qəbildən olan suallarımızı Qərbi Azərbaycan İcmasının sədri, Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupunun rəhbəri Əziz Ələkbərli cavablandırır.

**– Əziz müəllim, Ermənistan xarici işlər naziri Ararat Mirzoyan son açıqlamasında sülh sazişinin mətnində SSRİ dağılana qədər iki ölkənin ərazisində yaşayan insanların öz evlərinə, yaxud dədə-baba yurdlarına dönüşü barədə bəndin olmadığına diqqəti çəkib. Bu paralelliyi aparmaqda onun məqsədi nədir?**

– Ararat Mirzoyanın sülh sazişinin mətnində iki ölkənin ərazisində yaşayan insanların öz doğma evlərinə, dədə-baba yurdlarına dönüşü barədə bəndin olmadığına diqqət çəkməsi ilk növbədə Ermənistan tərəfdə Qərbi Azərbaycan qaçqınlarının geri qayıdışı ilə bağlı böyük bir qorxunun olmasının əlamətidir. İkincisi, Ararat Mirzoyanın açıqlaması bir daha sübut edir ki, Ermənistan tərəfi Levon Ter-Petrosyanın bu yaxınlarda sosial şəbəkələrdə paylaşılan videoda etiraf etdiyi Qərbi Azərbaycanda azərbaycanlılara qarşı etnik təmizləmə siyasətinin nəticələrinin aradan qaldırılmasında qətiyyən maraqlı deyil və buna haqq qazandırmaqda israrlıdırlar. Bu o deməkdir ki, Ermənistan tərəfi sülh sazişi məsələsində də səmimi deyil və bundan sonra da olmayacaq.

Və nəhayət, Ararat Mirzoyan birdəfəlik bilməlidir ki, sülh sazişində qaçqınların öz doğma evlərinə qayıtması məsələsinin olmaması onların qayıdışının həyata keçməyəcəyi anlamına gəlmir. Bu gün Azərbaycanda qaçqın həyatı yaşayan Qərbi Azərbaycan əsilli insanların sayı milyonlarladır və onların ata-babaları, əcdadları Ter-Petrosyanın, Ararat Mirzoyanın və digər ermənilərin ata-babaları kimi hansısa xarici ölkədən köçüb gəlməyiblər, min illərdir bu torpaqların əzəli sakinləri olublar. Bu gün heç bir qüvvə onların doğma yurda qayıdışının qarşısını ala bilməz.

**– Sizcə, Ermənistan hakimiyyəti vətəndaşlarımızın Qərbi Azərbaycana qayıtmaq haqqını tanımaqdan niyə bu qədər qorxur?**

– Maraqlı sualdır: nədən qorxurlar? Cavab aydındır: Azərbaycan xalqına və Azərbaycan dövlətinə qarşı törətmiş olduqları cinayətlərin haqq-hesabının bir gün onlardan mütləq soruşulacağından. Geri qayıdan insanların qəbiristanlıqlarını, dini inanc yerlərini nədən söküb, dağıdıb, təhqir etdikləri barədə suallara cavab verə bilməyəcəklərindən. Tutaq ki, mən getdim öz doğma yurduma – Vedi rayonunun Qaralar kəndinə. 1988-ci ilin fevralında babamı kəndimizin qəbiristanlığında dəfn etmişik, gedib görəcəm ki, qəbiristanlığımızın izi-tozu da yoxdur, şumlayıb yerində taxıl əkiblər. Soruşmayacağammı ki, hanı mənim babamın qəbri? Kəndimizin içində iki müsəlman məscidi vardı. Soruşmayacağammı ki, hanı o məscidlər?



Digər tərəfdən, ermənilər bizim camaatı yaxşı tanıyırlar və bilirlər ki, bizim xalq öz yurduna, torpağına bağlı insanlardır. Ermənilərdən fərqli olaraq, azərbaycanlıların qayıdış hüququ tanınsa, onlar hamısı qayıdacaq öz doğma ocaqlarına. Amma erməniləri zorla da olsa, Azərbaycana qaytarmaq mümkün olmayacaq. Çünki Azərbaycan əraziləri ermənilərin ata-baba yurdu deyil, onlar hansısa ölkədən – Suriyadan, Livandan, İrandan, Türkiyədən son iki yüz il ərzində köçürülüb gətiriliblər. Azərbaycanlıların əcdadları isə minillərdir o torpaqların sakinləridir.

**– Azərbaycan Prezidenti İlham Əliyev Paşinyana Qərbi Azərbaycan İcmasının nümayəndələri ilə görüşüb onları dinləməyi təklif edib. Bu planın reallaşacağı nə dərəcədə realdır? Əgər, bu, baş verərsə, Paşinyandan tələbiniz nə olardı?**

– Paşinyana edilən həmin təklif Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistana qarşı növbəti humanist addımıdır, Ermənistana öz dövlətçiliyini qoruyub saxlamaq üçün verilən yeni fürsətdir. Lakin, təəssüf ki, qarşı tərəf hələ də bunu anlamaq iqtidarında deyil. Anlamırlar ki, bu fürsət onlara həmişə verilməyə bilər. O ki qaldı, icma nümayəndələrimizin Paşinyanla baş tuta biləcək görüşü, əlbəttə, bu, mütləq olacaq, mən deyə bilmərəm bu görüş nə vaxt baş tutacaq, amma mütləq baş tutacaq. Həm də elə hesab edirəm ki, bu görüş o vaxt baş tutacaq ki, bu görüşdə şərtləri icmamız diktə edəcək. Şərtlərimiz, tələblərimiz nədən ibarət olacaq, bu da görüşün baş tutduğu konkret şəraitdən asılı olacaq.

**– Tarixi torpaqlarımıza – Qərbi Azərbaycana Böyük Qayıdışın texnologiyasını necə təsəvvür edirsiniz?**

– Cənab Prezident 24 dekabr 2024-cü ildə Qərbi Azərbaycan İcmasındakı tarixi çıxışında bildirdi ki, soydaşlarımızın doğma yurdlarına qayıdışı kortəbii ola bilməz. Bu qayıdışın hüquqi, siyasi əsaslarını ehtiva edən konsepsiyası olmalıdır və biz qısa müddətdə bu konsepsiyanı hazırlayıb qəbul etdik. Konsepsiyada qayıdışımızın bütün detalları, o cümlədən texnologiyası da öz əksini tapıb. Yeri gəlmişkən, xatırladım ki, son iki ildə icmamızın doqquz sənədi BMT-nin rəsmi sənədi kimi qəbul edilib və yayılıb. O sənədlərdən biri də icmamızın Qayıdış Konsepsiyasıdır. Yəqin ki, Paşinyanla ilk görüşümüzdə bu konsepsiyanın bir nüsxəsini ona hədiyyə edəcəyik.

* * *

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri qayıdış ideyasının gənclər arasında lazımi səviyyədə təbliğinin əsas hədəflərdən olduğu barədə də danışdı. Qeyd etdi ki, əsas tələb Qərbi Azərbaycan qaçqınlarının təməl hüquqlarının bərpasıdır. Bununla bağlı bütün beynəlxalq təşkilatlara müraciət etdiklərini, amma təəssüf ki, həmin qurumlar tərəfindən bu istiqamətdə real addımların atılmadığına diqqət çəkdi. Buna baxmayaraq, icmanın bu ideya uğrunda mübarizəni davam etdirəcəyini vurğuladı: "İnsanlar sonuncu nəfərinə, hər qarış torpağına dinc yolla qayıdana qədər bu yolda mübarizəmiz davam edəcək".

*Hazırladı:*
***İ.HƏSƏNQALA***
***XQ***

# Erməni vəhşiliyinin qurbanı olmuş aşıq



**Naxçıvan aşıq mühiti tarixən qonşu bölgələrin və türk toplumlarının ozan sənətinin təsirləri ilə formalaşaraq özünəməxsusluq qazanıb. Bu baxımdan Güney Azərbaycan, Dərələyəz və Göyçə, eləcə də Türkiyə aşıq yaradıcılığının bu mühitə təsiri danılmazdır.**

Naxçıvan aşıqlarının diqqətçəkən fəaliyyətlərindən biri də qonşu ərazilərin aşıq və el şairləri ilə sıx sənət əlaqələri yaratmaqları idi. Bunu onlar öz könül istəyi, gör-götür arzusu ilə edirdilər. Onların qonşu bölgələrin el şənliklərinə, sənət məclislərinə tez-tez dəvət olunmaları Naxçıvan aşıq mühitinin inkişafına böyük təsir göstərirdi. Dədə Ələsgərin Naxçıvana gəlişini əks etdirən "Aşıq Ələsgərin Naxçıvan səfəri" dastanı bu baxımdan qiymətli sənət örnəyidir.

Naxçıvan aşıq mühitinin bir çox nümayəndələri Qərbi Azərbaycandan köç edərək burada məskunlaşmış sənətkarlardır. Bu, daha çox onların zaman-zaman erməni basqılarından Naxçıvana pənah gətirmələri və burada doğma münasibət görmələri ilə bağlı olub. Lakin bir aşıq da var ki, onun doğulduğu və böyüdüyü məkan Naxçıvan olsa da fəaliyyətinin əsas məkanı Qərbi Azərbaycan olub.

Aşıq Abbasın həyatının əsas hissəsi Qərbi Azərbaycanla bağlı olub. O, burada daşnakların millətçi, antitürk siyasəti ilə çətin mübarizədə ömrünü başa vurub. Aşıq Abbas Rüstəm oğlu Abbasov müxtəlif illərdə Ordubadda yaşayıb-yaratmış aşıq sənəti nümayəndələrindəndir, həm Naxçıvan, həm də Qərbi Azərbaycan aşıq ənənəsinin inkişafına töhfələr bəxş etmiş sənətkar kimi tanınıb.

Aşığın oğlu mərhum Valeh Rüstəmovun illər öncə verdiyi məlumata görə, atası 1906-cı ildə Şahbuz rayonunun Kükü kəndində anadan olmuşdur. O, 1943-cü ildə Ordubadın Əndəmic kəndinə gəlmiş, burada ailə həyatı qurmuş, aşıqlıq etmişdir. Aşıq Ordubadda sayılıb-seçilən, hörmət sahibi olan el sənətkarı kimi yaşayıb fəaliyyət göstərmişdir.

Aşıq Abbas Abbasov Ordubadın kəndlərində toy məclisləri aparmış, el şənliklərində çalıb-çağırmışdır. Oğlu Valehin dediyinə görə, milli-mənəvi dəyərlərimizin basqı altında olduğu sovet zamanında aşıq rəsmi dairələrin ədalətsiz münasibəti ilə də üzləşmiş, incidilmiş, nəzərdən salınmışdır.

Aşıq Abbas Abbasov 1945-ci ildə ailəsindən ayrılıb Qərbi Azərbaycana üz tutmuş, Qafana gəlib sənətini burada davam etdirmişdir.

O, burda yenidən ailə həyatı qurmuş, lakin bu izdivacdan övladı olmamışdır. 1967-ci ildə Naxçıvana qayıdan sənətkar burada "Aşıqlar ansamblı" yaratmışdır. Ansamblın üzvləri Naxçıvanda fəaliyyət göstərən Aşıq Hidayət, Aşıq Bayram, Aşıq Soltan idi. Bu ansambl daha çox Ordubadın Parağaçay kəndində olar və orada konsertlər təşkil edərdi.






Aşıq Abbas ortada

Aşıq Abbas, əsasən Qərbi Azərbaycanda yaşasa da, tez-tez Ordubada gələr, buradakı toy məclislərində iştirak edərdi. Onun istedadı və şöhrəti həmişə erməniləri narahat edib. Aşıq Qərbi Azərbaycanda olarkən davamlı olaraq daşnak zümrələrinin təqibinə məruz qalıb. Dəfələrlə ondan tələb edilib ki, aşıq yaradıcılığının ermənilərə məxsus olmasını təsdiq etsin. Aşıq isə bunu qətiyyətlə inkar edib. Nəhayət, Qarabağ hadisələri başlayanda düşmənlərin əlinə Aşıq Abbasdan intiqam almaq fürsəti düşür. Bu zaman erməni dəstəsi Aşıq Abbası vəhşicəsinə döyür, onu ölmüş bilib əl çəkirlər. Başından ağır zərbə almış aşıq gətirildiyi Zəngilan xəstəxanasında 15 gündən sonra vəfat edir.

Aşığın gəzib məclislər apardığı yerlər Zəngilan, Qubadlı, Qafan, Naxçıvan, Ordubadın Biləv, Bist, Parağaçay kəndləri idi. Aşığın oğlu ilə apardığımız söhbət zamanı məlum oldu ki, onun şeirlərindən ibarət əlyazmaları olub. Qərbi Azərbaycanda ermənilər onun bu əsərlərini ələ keçirib yandırmışlar. Təəssüf ki, apardığımız araşdırmalar zamanı Aşıq Abbasın yaradıcılığından heç bir nümunə əldə edə bilmədik.

Naxçıvanın yaşlı əhalisindən Aşıq Abbasla bağlı az olsa da əldə etdiyimiz məlumatdan, oğlu Valeh və Ordubadın Yuxarı Əndəmic kəndində yaşayan nəvəsi Aslanla söhbətimizdən aydın olur ki, Aşıq Abbas Naxçıvan və Qərbi Azərbaycan aşıq mühitinə öz fəaliyyəti ilə xidmət etmiş, hər iki məktəbdən bəhrələnmiş və onları bir-birinə yaxınlaşdırmış yaradıcı və ifaçı aşıq olub.

***Aytən CƏFƏROVA,***
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı, fəlsəfə doktoru, dosent***

# Siyasi sabitlik və iqtisadi inkişaf sosial yüksəlişə təkan verib

## *Ötən ilin ümumi tərəqqisinin mənzərəsi belədir*



**Ölkədə həyata keçirilən uğurlu islahatlar nəticəsində ötən il iqtisadiyyatın neftdən asılılığı minimuma endirilib və sahibkarlığın inkişafını şərtləndirən rəqabətqabiliyyətli milli iqtisadiyyatda yeni mərhələnin əsası qoyulub. Biznes və investisiya mühitinin yaxşılaşdırılması, dövlət tənzimləməsi, o cümlədən inzibati qayda və prosedurların təkmilləşdirilməsi kimi məsələlər də diqqətdə saxlanılıb.**

Hesabat dövründə iqtisadiyyatın əsasını təşkil edən sənayedə yeni istehsal müəssisələrinin yaradılması, bu sahədə infrastruktur təminatının yaxşılaşdırılması ilə bağlı çoxsaylı layihələr icra olunub, bir sıra stimullaşdırıcı tədbirlər həyata keçirilib. Eyni zamanda, iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində görülən mühüm işlər sənaye sahəsində ümumi istehsalın artmasına səbəb olmaqla yanaşı, qeyri-neft sektorunun inkişafına da mühüm töhfələr verib.

Bu baxımdan 2024-cü il də ölkə sənayesi üçün dinamik inkişaf dövrü kimi xarakterizə oluna bilər. Dövlət Statistika Komitəsinin məlumatına görə, sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən hesabat ilində 64,1 milyard manatlıq və ya 2023-cü illə müqayisədə 1,1 faiz çox sənaye məhsulu istehsal edilib. Neft-qaz sektorunda məhsul istehsalı 0,5 faiz, qeyri-neft-qaz sektorunda isə 7,3 faiz çoxalıb. Sənaye məhsulunun 64,3 faizi mədənçıxarma, 29,8 faizi emal, 4,9 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunub.

Hesabat dövründə aqrar məhsullar 4,4 faiz (701,7 milyon dollar), aqrar-sənaye məhsulları 58,3 faiz (287,3 milyon dollar) çoxalıb. Bütövlükdə, aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 15,9 faiz artaraq 988,9 milyon dollar təşkil edib. Bu sahədə ən yüksək gəlir pambıq mahlıcı ixracından əldə olunub. Belə ki, son bir ildə bu növ məhsulun ixrac dəyəri 63,3 faiz artaraq 160,4 milyon ABŞ dolları təşkil edib.

Qeyd edək ki, 2024-cü ildə Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 176 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirib, 120 ölkəyə məhsul ixrac olunub, 167 ölkədən idxal edilib. Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla hesabat dövründə xarici ticarət dövriyyəsi 42 milyard 814 milyon dollar, o cümlədən ixracın dəyəri 24 milyard 42 milyon dollar, idxalın dəyəri 18 milyard 772 milyon dollar təşkil edib, nəticədə 5 milyard 270,3 milyon dollarlıq müsbət ticarət saldosu yaranıb. 2023-cü ilin yanvar–noyabr ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 1,1 faiz artıb, real ifadədə 3,1 faiz, o cümlədən ixrac 5,4 faiz azalıb, idxal isə 0,6 faiz artıb.

Bütün bu göstəricilər deməyə əsas verir ki, hesabat ilində respublikada ixrac potensialının gücləndirilməsinə də mühüm önəm verilib, bu istiqamətdə çoxsaylı mühüm layihələr reallaşdırılıb. Ölkənin gömrük prosedurları sadələşdirilib, ticarət maneələrinin azaldılması və tranzit daşımaların optimallaşdırılması kimi mühüm tədbirlər gerçəkləşdirilib. Eyni zamanda, yüksək keyfiyyətli məhsul istehsalı məqsədilə respublikamıza ən müasir texnika və avadanlıqlar gətirilib. Müəssisələrdə texnoloji proses günün tələbləri səviyyəsində tamamilə yenidən qurulub. Bütün bunlarla yanaşı, rəqabətin inkişafı ilə bağlı layihələr reallaşdırılıb, yeni Rəqabət Məcəlləsi qəbul edilib, istehlak mallarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarət gücləndirilib. Standartlaşdırma və metrologiya kimi mühüm sahələrin beynəlxalq tələblərə uyğunlaşdırılması da milli istehsalçıların xarici bazarlara çıxışını stimullaşdırıb. Belə bir şərait isə qeyri-neft sektorunda məhsul istehsalının artmasına səbəb olub. Bu da ixracın strukturunun genişləndirilməsinə imkan yaradıb.

### Ekspert rəyi

**Lətif ZEYNALLI,**
**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin aparıcı məsləhətçisi**



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabatında səsləndirilən göstəricilərə əsaslanıb deyə bilərəm ki, bu dövr Azərbaycanın müasir tarixinə mühüm siyasi və iqtisadi hadisələrin baş verdiyi il kimi daxil olub. Ötən il ölkə iqtisadiyyatı üçün dayanıqlı inkişaf, mühüm investisiya layihələri və sosial islahatlarla yadda qalıb. COP29 kimi qlobal əhəmiyyətli tədbirin Bakıda keçirilməsi və ölkəmizin D-8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzv seçilməsi Azərbaycanın beynəlxalq nüfuzunun artdığını nümayiş etdirib. Eyni zamanda, nəticələr göstərir ki, makroiqtisadi sahədə dayanıqlı inkişaf təmin edilib, ÜDM həcmi artıb, qeyri-neft sektoru da inkişaf edib.

Hesabat ilində dövlətin valyuta ehtiyatlarının artması, xarici dövlət borcunun azalması, inflyasiyanın illik 4,9 faiz, orta illik 2,2 faiz səviyyəsində qeydə alınması dayanıqlı iqtisadi artıma zəmin yaradıb. Bundan başqa, dövlət büdcəsinin gəlirlərinin 102 faiz, xərclərinin isə 95 faiz icra edilməsi fiskal intizamın və maliyyə idarəetməsinin səmərəliliyinə dəlalət edib. Sənaye zonalarında istehsal həcminin 3,3 milyard manata çatması, o cümlədən 1,1 milyard manatlıq ixracın həyata keçirilməsi sənayenin inkişafında müsbət dinamikanın davam etdiyini göstərib.

Sosial sahələrdə də böyük islahatlar həyata keçirilib. Belə ki, dövlət büdcəsinin böyük bir hissəsi sosial sahələrə ayrılaraq, pensiya və sosial yardımlar artırılıb, müharibə əlilləri və şəhid ailələrinə xüsusi diqqət göstərilib. Bu islahatlar sosial rifahın yaxşılaşdırılmasına və əhalinin həyat keyfiyyətinin yüksəldilməsinə yönəlmiş mühüm addımlar olub.

Azərbaycanın müdafiə və təhlükəsizlik sahəsində də 2024-cü ildə irəliləyişlər əldə edilib. Genişmiqyaslı minatəmizləmə işləri və müdafiə xərclərinə ayrılan vəsait ölkəmizin müdafiə qabiliyyətinin güclənməsinə xidmət edib. 2025-ci ildə 65 min hektardan artıq ərazinin təmizlənməsi planı isə həm iqtisadi, həm də sosial baxımdan mühüm önəm daşıyıb.

2025-ci ilin dövlət büdcəsində qəzalı binalarla bağlı problemlərin aradan qaldırılması və vətəndaşların yaşayış şəraitinin yaxşılaşdırılması məqsədilə 50 milyon manat vəsait ayrılması nəzərdə tutulub. Bu addım sosial rifahın artırılması və şəhər infrastrukturunun müasirləşdirilməsi, əhalinin təhlükəsiz və rahat yaşayış şəraitinin təmin edilməsi istiqamətində dövlətin davamlı siyasətinin tərkib hissəsinə çevrilib.

Bundan başqa, 2025-ci ilin dövlət büdcəsindən işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün 4 milyard manat məbləğində vəsaitin ayrılması nəzərdə tutulub. Bu vəsaitin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sosial-iqtisadi dirçəlişi, müasir infrastrukturun qurulması və dayanıqlı yaşayış mühitinin formalaşdırılması istiqamətlərində genişmiqyaslı layihələrin icrasına yönəldiləcəyi nəzərdə tutulub.

İşğaldan azad olunan ərazilərdə inkişafın təmin edilməsi məqsədilə yatırılan investisiyalar məcburi köçkünlərin doğma yurdlarına qayıdışını sürətləndirəcək və bölgənin iqtisadi potensialını daha da gücləndirəcək. Eyni zamanda, 2025-ci ildə Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə İğdır–Naxçıvan qaz kəmərinin açılışı qədim diyarımızın enerji təhlükəsizliyini və təminatını daha da artıracaq.

Beləliklə, təqdim olunan hesabatdan da aydın olur ki, ümumilikdə, 2024-cü il Azərbaycanın siyasi sabitliyini, iqtisadi inkişafını və sosial rifahını artıran bir il kimi yadda qalıb. Ölkənin beynəlxalq əlaqələri güclənib, iqtisadi dayanıqlılıq təmin olunub və sosial siyasət inkişaf etdirilib. 2024-cü ildə əldə olunan nailiyyətlər və 2025-ci ildə planlaşdırılan layihələr Azərbaycanın gələcək inkişafına təkan verərək ölkənin siyasi və iqtisadi gücünün artırılması istiqamətində mühüm addımların atılmasına şərait yaradacaq.

# Avropanın Azərbaycan enerjisinə tələbatı artır

## *Aİ nazirlərin Bakı görüşündən məhsuldar nəticələr gözləyir*

**Azərbaycan Avropa İttifaqı (Aİ) üçün əsas və etibarlı enerji təchizatçısı olaraq qalmaqda davam edir. Avropa Komissiyası gələn ay Bakıda Cənub Qaz Dəhlizi və Yaşıl Enerji məşvərət şuraları çərçivəsində nazirlərin iclaslarının yekunları üzrə bu əlaqələrin daha da güclənməsini gözləyir. Bu barədə Avropa İttifaqı açıqlama yayıb.**



Məlumata görə, Avropa İttifaqı enerji keçidi və 2030-cu ilə qədər Rusiyanın qalıq yanacağından imtina edilməsini nəzərdə tutan "RePowerEU" proqramının məqsədlərini nəzərə alaraq ittifaq ölkələrin tədarükün təhlükəsizliyinin gücləndirilməsində Azərbaycanla əməkdaşlığın davam etdirilməsinə ümid edir.

Xatırladaq ki, bu yaxınlarda Brüsseldə Slovakiyanın üzləşdiyi qaz təchizatı problemi ilə bağlı Avropa Komissiyası və Slovakiya arasında yaradılmış işçi qrupunun ilk iclası keçirilib. İclasda Avropa Komissiyasının Energetika üzrə Baş İdarəsinin direktoru Kristina Lobillo Borrero və Slovakiyanın Baş nazirinin müavini - iqtisadiyyat naziri Denisa Sakova iştirak ediblər. İclasda ölkəmizi energetika nazirinin müavini Orxan Zeynalovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Avropa İttifaqının nümayəndəsi Azərbaycan mətbuatına bildirib ki, iclas təmsil etdiyi qurumun enerji tərəfdaşları ilə mütəmadi olaraq saxladığı əlaqələr çərçivəsində baş tutub. Onun sözlərinə görə, görüşdə COP29 iqlim konfransının nəticələri üzrə sonrakı fəaliyyətlər, regional yaşıl enerji dəhlizlərinin inkişafı, Avropaya davam edən və potensial əlavə enerji tədarükü, apreldə keçiriləcək Cənub Qaz Dəhlizi və Yaşıl Enerji məşvərət şuralarının iclaslarına hazırlıq da daxil olmaqla bir çox mövzular müzakirə edilib. Məlumatda həmçinin qeyd edilib ki, Avropa İttifaqı Azərbaycanla Strateji Tərəfdaşlıq Sazişinin həyata keçirilməsini davam etdirir, Cənub Qaz Dəhlizinin ötürmə qabiliyyətinin iki dəfə artırılması üçün lazım olan əsas qaz infrastrukturu layihələrinin müəyyənləşdirilməsi və müzakirəsi edilməsində fəal iştirak edir.

# Qatarların sayı da, reysi də artırılıb

**"Azərbaycan Dəmir Yolları" QSC sərnişin sıxlığının qismən tənzimlənməsi məqsədilə bu il aprelin 1-dən Abşeron dairəvi dəmiryol marşrutu üzrə qatarların yeni cədvəlini müəyyənləşdirib.**

Cədvəldə Bakı–Pirşağı–Sumqayıt və Bakı–Xırdalan–Sumqayıt marşrutları üzrə reyslərin sayı artırılıb və xüsusən günorta saatlarında qatarlararası interval azaldılıb. Həmçinin sürət qatarlarının iş günləri, eləcə də şənbə və bazar günləri üçün ayrı-ayrılıqda üç hərəkət cədvəli tərtib edilib. Abşeron dairəvi dəmiryol marşrutu üzrə həftənin iş, şənbə və bazar günləri, ümumilikdə, 61 reys əlavə olunub.

İş günlərində Bakı–Xırdalan–Sumqayıt–Bakı marşrutu üzrə reyslərin sayı 24-dən 36-ya, Bakı–Pirşağı–Sumqayıt–Bakı marşrutu üzrə 42-dən 56-ya çatdırılacaq. O cümlədən sərnişinlərin çoxsaylı müraciətləri nəzərə alınaraq Bakı–Xırdalan–Sumqayıt istiqamətində saat 20:20 reysi əlavə olunur (əvvəlki cədvəllə sonuncu qatar 19:35-də idi). Bu isə işdən evə qayıdan sərnişinlər üçün daha çox seçim imkanı yaradır, sərnişin sıxlığının azaldılması, səyahət müddətinin qısaldılması və hərəkət intensivliyinin tənzimlənməsini mümkün edir.



Eyni zamanda, Bakı–Xırdalan–Sumqayıt istiqamətində səhər reysləri də optimallaşdırılıb. Belə ki, indiyədək saat 07:20-dən Sumqayıtdan çıxan qatar Bakıya 08:01-də çatırdı. Yeni cədvəllə saat 06:15-də çıxan qatar Bakıya 06:56-da çatacaq. Bundan başqa, Xırdalandan Bakıya birbaşa hərəkət edəcək yeni "FLİRT" qatarı Bakıya 07:15-də çatacaq. Bu da iş vaxtı saat 8-də başlayanlar üçün əlavə imkanlar yaratmış olacaq. Həmçinin bu istiqamətdə səhər saatlarında hərəkət edən ekspres tipli qatara Biləcəri və Xırdalan stansiyalarında dayanacaq veriləcək.

Şənbə günlərində Bakı–Xırdalan–Sumqayıt–Bakı marşrutu üzrə reyslərin sayı 10-dan 16-ya, Bakı–Pirşağı–Sumqayıt–Bakı xətti üzrə reyslərin sayı isə 20-dən 36-ya çatdırılacaq.

Optimallaşdırma çərçivəsində həftənin bazar günləri üçün də xüsusi cədvəl tərtib olunub. Belə ki, yeni cədvələ əsasən, bazar günləri Bakı–Xırdalan–Sumqayıt–Bakı marşrutu üzrə reyslərin sayı 10-dan 15-ə, Bakı–Pirşağı–Sumqayıt–Bakı xətti üzrə reyslərin sayı isə 20-dən 28-ə çatdırılacaq.

Bu dəyişikliklər Abşeron dairəvi dəmiryol marşrutunda günlük sərnişindaşıma sayını hazırkı 37–38 min nəfərdən 48–50 min nəfərə qədər artırmağa imkan verəcək.

# Nəhəng və modern İES istismara hazırlanır

**Son illər ölkədə icra edilən ən nəhəng layihələrdən biri olan, 2023-cü ilin fevral ayında təməli qoyulan 1280 meqavatlıq yeni elektrik stansiyasında işlər yekunlaşmaq üzrədir. "AzərEnerji"dən verilən məlumata əsasən, bu enerji infrastrukturu qoyuluş gücünə görə müstəqillik dövründə tikilən ən böyük elektrik stansiyası olmaqla yanaşı, respublikadakı digər istilik elektrik stansiyaları (İES) arasında hər kilovat-saat üçün ən az qaz yandıran elektrik stansiyası olacaq.**



Mingəçevir şəhərindəki "Azərbaycan" İES-in ərazisində inşa edilən bu nəhəng enerji obyektinin cədvələ uyğun olaraq, 2025-ci ilin sonuna kimi istismara verilməsi planlaşdırılsa da, artıq proses nəzərdə tutulan vaxtdan əvvəl başa çatır. Hazırda yeni elektrik stansiyasının 4 turbin və generatorlarından 3 dəsti test edilərək qoşulub və bir dəstinin isə yaxın vaxtlarda işə buraxılması həyata keçiriləcək.

Məlumatda qeyd edilib ki, yeni elektrik stansiyasının turbin və generatorları İtaliyanın "Ansaldo Energia", util qazanlar isə Çinin "Dongfang" şirkətinin istehsalı olduğundan son 2 ildə dəfələrlə bu şirkətlərin mütəxəssisləri Mingəçevirdə, "AzərEnerji" mütəxəssisləri isə İtaliya və Çində olub, əyani kurslarda iştirak ediblər. Hazırda isə stansiyada qurğuların, avadanlıqların texniki sistemlərinin tam və etibarlı şəkildə istismarının təmin edilməsi, qazan-turbin sexinin işçilərinin bilik və peşə vərdişlərinin təkmilləşdirilməsi məqsədilə aparılan turbin, generator və avtomatika sahələri üzrə kadr hazırlığı proqramı davam etdirilir.

Belə bir təlim proqramı isə İtaliyanın "Ansaldo Energia" şirkətinin nümayəndələri tərəfindən stansiyanın işçiləri üçün keçirilir və layihə kurs şəklində davam etdirilir. Bu kurslara "AzərEnerji" ASC-nin 130 əməkdaşı cəlb olunub.

Onu da bildirilib ki, bundan əvvəl yanvar ayında Çinin "Dongfang" şirkəti tərəfindən də belə bir təlim kursu keçirilib və təlimçilər müəyyənləşdirilən proqramlar üzrə mütəxəssislərin verdiyi bilik və bacarıqlara yiyələniblər.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 68** **Bakı şəhəri, 10 mart 2025-ci il**

**"Dövlət və qeyri-dövlət uşaq müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə dair tələblər"in təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 78-VIIQD nömrəli Qanununun tətbiqi və "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 24 avqust tarixli 761 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 dekabr tarixli 262 nömrəli Fərmanının 2.1.1-ci yarımbəndinin və Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 noyabr tarixli 2306 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı"nın 5.1.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dövlət və qeyri-dövlət uşaq müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə dair tələblər" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 69** **Bakı şəhəri, 10 mart 2025-ci il**

**"Mülki hava limanları və (və ya) aerodromların istismara yararlılıq, aeronaviqasiya təchizatı və təminatı, təhlükəsizlik tələblərinin təminatı baxımından sertifikatlaşdırılması, hava limanlarına və (və ya) aerodromlara uyğunluq sertifikatının alınması, onların dövlət qeydiyyatına alınması Qaydaları"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanının 2.3.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Mülki hava limanları və (və ya) aerodromların istismara yararlılıq, aeronaviqasiya təchizatı və təminatı, təhlükəsizlik tələblərinin təminatı baxımından sertifikatlaşdırılması, hava limanlarına və (və ya) aerodromlara uyğunluq sertifikatının alınması, onların dövlət qeydiyyatına alınması Qaydaları" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 70** **Bakı şəhəri, 12 mart 2025-ci il**

**"Fövqəladə ehtiyatların nomenklaturası"nın təsdiq edilməsi və "Fövqəladə hallarda istifadə olunması nəzərdə tutulan dövlət ehtiyatlarının nomenklaturası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 27 aprel tarixli 137 nömrəli Qərarının ləğv edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Dövlət ehtiyatları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 19 dekabr tarixli 1055-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 2 fevral tarixli 2463 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** "Fövqəladə ehtiyatların nomenklaturası" təsdiq edilsin (əlavə olunur).

**2.** "Fövqəladə hallarda istifadə olunması nəzərdə tutulan dövlət ehtiyatlarının nomenklaturası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 27 aprel tarixli 137 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2023, № 4, maddə 606 (Cild I) ləğv edilsin.

**3.** Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyi və digər məsul saxlayıcılar bu Qərardan irəli gələn məsələləri həll etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 72** **Bakı şəhəri, 12 mart 2025-ci il**

**"Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun Əsasnaməsi"nin təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 21 fevral tarixli 15 nömrəli Sərəncamının 2.4-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun Əsasnaməsi" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 73** **Bakı şəhəri, 12 mart 2025-ci il**

**"Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi haqqında" 2018-ci il 10 aprel tarixli 141-6 nömrəli Qərarında dəyişiklik edilməsi, "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin aparatının Xüsusi təyinatlı idarəsinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"nin təsdiq edilməsi haqqında" 2018-ci il 8 avqust tarixli 347-26 nömrəli, "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 141-6 nömrəli Qərarında dəyişikliklər edilməsi haqqında" 2018-ci il 30 avqust tarixli 363-27 nömrəli, "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 141-6 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" 2019-cu il 22 aprel tarixli 184-8 nömrəli və "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 141-6 nömrəli və "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin aparatının Xüsusi təyinatlı idarəsinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 8 avqust tarixli 347-26 nömrəli qərarlarında dəyişikliklər edilməsi barədə" 2019-cu il 2 may tarixli 206-11 nömrəli qərarlarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 388 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Bəzi dövlət orqanlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq tarif (vəzifə) maaşlarının artırılması haqqında" 2025-ci il 27 yanvar tarixli 296 nömrəli Fərmanının 3-cü hissəsinin və "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 27 yanvar tarixli 304 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 388 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1542 (Cild I); 2024, № 9, maddə 1105) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur, məxfi).

1.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur, məxfi).

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu Qərarın icrası ilə əlaqədar tələb olunan vəsaitin ödənilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsini təmin etsin.

**3.** Bu Qərar 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 74** **Bakı şəhəri, 12 mart 2025-ci il**

**"Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları və kursantlar istisna olmaqla) aylıq pul təminatının, ərzaq payı əvəzinə pul kompensasiyasının və mülki işçilərinin əməkhaqlarının məbləğlərinin təsdiq edilməsi barədə" 2008-ci il 15 sentyabr tarixli 213-25 nömrəli, "Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" 2018-ci il 10 aprel tarixli 142-7 nömrəli qərarlarında dəyişiklik edilməsi və "Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 142-7 nömrəli qərarında dəyişikliklər edilməsi barədə" 2018-ci il 17 iyul tarixli 305-23 nömrəli, "Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 142-7 nömrəli qərarında dəyişiklik edilməsi barədə" 2019-cu il 2 may tarixli 205-10 nömrəli, "Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 142-7 nömrəli qərarında dəyişikliklər edilməsi barədə" 2019-cu il 10 may tarixli 215-12 nömrəli və "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 142-7 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"ndə dəyişikliklər edilməsi barədə" 2019-cu il 10 iyun tarixli 263 nömrəli qərarlarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 391 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Bəzi dövlət orqanlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq tarif (vəzifə) maaşlarının artırılması haqqında" 2025-ci il 27 yanvar tarixli 296 nömrəli Fərmanının 3-cü hissəsinin və "Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 27 yanvar tarixli 303 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 391 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1545 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur, məxfi);

1.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur, məxfi).

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu Qərarın icrası ilə əlaqədar tələb olunan vəsaitin ödənilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsini təmin etsin.

**3.** Bu Qərar 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 77** **Bakı şəhəri, 13 mart 2025-ci il**

**Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahəsinin yaradılması məqsədilə ayrılmış su fondu torpaq sahəsinin və süni torpaq sahəsinin icarə haqqının hesablanması ilə bağlı bəzi məsələlər haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Azərbaycan Respublikasının 2024-cü il 7 may tarixli 1143-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 iyun tarixli 90 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahəsinin yaradılması məqsədilə ayrılmış su fondu torpaq sahəsinin və süni torpaq sahəsinin icarə haqqının hesablanması Qaydası" təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

2.1. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə razılaşdırılmaqla Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahəsinin yaradılması məqsədilə sahilboyu yerləşən şəhər və rayonların zonalar üzrə bölgüsünü və həmin zona bölgüsü əsasında ayrılacaq su fondu torpaq sahələrinin və süni torpaq sahələrinin kağız üzərində və elektron formada qrafik təsvirini (xəritəsini) təsdiq etsin;

2.2. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə birlikdə mütəmadi aparılan monitorinqlər nəticəsində şəhərsalma və ərazi planlaşdırılması sənədlərində edilmiş dəyişikliklər nəzərə alınmaqla, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahəsinin yaradılması məqsədilə ayrılacaq su fondu torpaq sahələrinin və süni torpaq sahələrinin icarə haqlarının real vəziyyətə uyğunlaşdırılması üçün sahilboyu yerləşən şəhər və rayonlar üzrə müəyyən edilmiş zonalar əsasında icarə haqqının məbləğinə (bazis qiymətinə) və qiymətləndirmə zonalarının sərhədlərinə yenidən baxsın və zərurət yarandıqda Azərbaycan Respublikasının Nazirlər Kabinetinə razılaşdırılmış təklif təqdim etsin;

2.3. bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 78** **Bakı şəhəri, 13 mart 2025-ci il**

**Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının, hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) və xüsusi rütbəsi olan əməkdaşlarının hərbi (xüsusi) rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları"nın təsdiq edilməsi, "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin büdcədən maliyyələşdirilən qurumlarında çalışan dövlət qulluqçusu olmayan mülki işçilərinin Vahid Tarif Cədvəli üzrə aylıq vəzifə (tarif) maaşlarının tənzimlənməsi haqqında" 2013-cü il 26 sentyabr tarixli 269-12 nömrəli Qərarında dəyişiklik edilməsi və "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarının məbləğləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 7 avqust tarixli 322-11 nömrəli qərarının ləğv edilməsi haqqında" 2018-ci il 13 aprel tarixli 149-11 nömrəli Qərarında dəyişikliklər və "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları"nın təsdiq edilməsi, "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin büdcədən maliyyələşdirilən qurumlarında çalışan dövlət qulluqçusu olmayan mülki işçilərinin Vahid Tarif Cədvəli üzrə aylıq vəzifə (tarif) maaşlarının tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 26 sentyabr tarixli 269-12 nömrəli qərarında dəyişiklik edilməsi və "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarının məbləğləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 7 avqust tarixli 322-11 nömrəli qərarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 13 aprel tarixli 149-11 nömrəli Qərarında dəyişikliklər edilməsi barədə" 2019-cu il 25 iyun tarixli 279 nömrəli Qərarının ləğv edilməsi barədə" 2019-cu il 25 iyul tarixli 324 nömrəli və "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) və xüsusi rütbəsi olan əməkdaşlarının hərbi (xüsusi) rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi barədə" 2008-ci il 24 iyun tarixli 145-14 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 13 sentyabr tarixli 407 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Bəzi dövlət orqanlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq tarif (vəzifə) maaşlarının artırılması haqqında" 2025-ci il 27 yanvar tarixli 296 nömrəli Fərmanının 3-cü hissəsinin və "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının və xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 27 yanvar tarixli 310 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 13 sentyabr tarixli 407 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1561 (Cild I); 2024, № 6 (II kitab), maddə 738) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının və xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur, məxfi);

1.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin büdcədən maliyyələşdirilən qurumlarında çalışan dövlət qulluqçusu olmayan mülki işçilərinin Vahid Tarif Cədvəli üzrə aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur, məxfi).

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu Qərarın icrası ilə əlaqədar tələb olunan vəsaitin ödənilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsini təmin etsin.

**3.** Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə tövsiyə olunsun ki, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri barədə müvafiq qərar qəbul etsin.

**4.** Bu Qərar 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 84** **Bakı şəhəri, 18 mart 2025-ci il**

**Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması haqqında**

"Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2025-ci il 1 iyul saat 06:00-dək uzadılsın.

**2.** "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddə 1209 (Cild I); 2024, № 3, maddə 308, № 6 (II kitab), maddə 732, № 9, maddə 1103, № 12 (II kitab), maddə 1450) 1.1-ci bəndində "aprel" sözü "iyul" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# Türk dünyası QHT-lərinin həmrəyliyi

## Bakıda "Türkman irsi" forumu Novruz təntənəsinə qovuşub

**Böyük coğrafi arealı əhatə edən Türk dünyasının ortaq dəyərlərinin – dil, adət-ənənə, milli ruhun əsrlərlə qorunub saxlanılması və müasir dövrümüzə qədər gətirilib çıxarılması tarixi nailiyyətdir. Əlbəttə, bu işdə vətəninə, torpağına, bayrağına bağlı aydınların danılmaz xidmətləri olub. Onların fədakarlıqları ilə yanaşı, ayrı-ayrı insanların, eləcə də vətəndaş cəmiyyəti fəallarının bu istiqamətdə gördüyü işləri də unutmaq olmaz. Zamanın ağır sınaqlarından üzüağ çıxmış bu fəaliyyətin ən başlıca xüsusiyyəti isə Türk ellərinin birliyi və həmrəyliyidir.**

Etiraf etmək lazımdır ki, eyni kökdən olan, eyni mədəniyyətə, tarixə malik Türk xalqları arasında əməkdaşlığın qeyri-hökumət təşkilatları – vətəndaş cəmiyyətləri platformasında yeni keyfiyyətdə və müstəvidə inkişafına böyük ehtiyac duyulurdu. Tarixin ayrı-ayrı dönəmlərində mövcud şəraitdən asılı olaraq parçalanmış, bir-birindən ayrı düşmüş eyni kökdən olan xalqların bu gün QHT platformasında bir araya gəlməsi, əməkdaşlığın gücləndirilməsi, gələcəyə yönəlik yeni baxışların yaranması, ortaq dəyərlərin çeşidli çalarlarının üzə çıxarılması baxımından böyük əhəmiyyət kəsb edir.

Bakıda Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikası QHT-lərə Dövlət Dəstəyi Agentliyinin xətti ilə təşkil olunan "Türkman irsi: vətəndaş cəmiyyətlərinin həmrəyliyi" adlı konfrans–forum türkmanların uzun illər öz ölkələrində və ölkələrindən kənarda gördükləri işlərə, sosial siyasi statusları uğrunda apardıqları mübarizələrə ictimai dəstək vermək məqsədi daşıyır. Son illər bir çox önəmli beynəlxalq layihələrə ev sahibliyi etmiş Azərbaycanda Türk dünyasının ortaq maraqlarının prioritet sayıldığı bu cür tədbirlərin keçirilməsi ənənə halını alıb. Bu da təsadüfi deyil. Axı Türk Dövlətləri Təşkilatının (TDT) ən fəal üzvü olan Azərbaycan bu coğrafiyaya ünvanlanan çağırışların tribunası rolunu oynayır.

* * *

Əslində, bu layihələrin böyük tarixi, ictimai-siyasi əhəmiyyəti var. Bakı Forumunda İraq, Suriya və Türkiyədən 30-dan çox vətəndaş cəmiyyəti təmsilçisi iştirak edir. Onların içərisində İraq parlamentinin Türkmanlar qrupunun sədri, ictimai-siyasi xadim Ərşad Saleh, İraq Tarixçiləri Birliyinin təmsilçisi, "Türkmaneli" qəzetinin baş redaktoru Najat Şükür, İraq türkmanlarının "Tert TV" kanalının rəhbəri Türkeş Saleh, Suriya Türkman Dərnəkləri Federasiyasının prezidenti Tarık Sulo Cevizci, Suriya Türkman Platformasının yaradıcısı Əsəd Arber və digər şəxslər var.

Bu konfransın məqsədi vətəndaş cəmiyyətlərinin həmrəyliyinin vacibliyini hamının diqqətinə çatdırmaqdır. Konfransda "Ortaq dəyərlər: tarix və mədəniyyətin izləri", "Gələcəyə baxış: yeni imkanlar və təşəbbüslər" adlı panellərdə türkman əsilli vətəndaş cəmiyyəti təmsilçiləri yerli QHT-lərlə birgə müzakirələr aparıblar.




"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi icmalçı Eıxan Şahinoğlu XQ-yə açıqlamasında bildirdi ki, Azərbaycana dost və qardaş olan türkmanların ölkəmizə, Qarabağa səfər etmələri, Bakı konfransında fikir mübadiləsi aparmaları, qarşılıqlı görüşlər keçirmələri çox faydalı və əhəmiyyətlidir. Bu cür təmaslar həm Azərbaycanın mövqeyinə, həm də türkman–azərbaycanlı qardaşlığının möhkəmlənməsinə xidmət edir. İraqda və Suriyada yaşayan türkmanlar hər zaman Türkiyənin və Azərbaycanın dəstəyini hiss etməlidirlər. Azərbaycan İraq və Suriya ilə münasibətlər qurarkən, ikitərəfli əlaqələri genişləndirərkən bu iki ölkədə türkmən amilinin varlığı Azərbaycanın yalnız xeyrinə işləyəcək. Yəni, bu amil həm də Azərbaycanın bu ölkələrdə mövqelərinin güclənməsinə dəstək anlamı daşıyır. Onlar da yaşadıqları ölkələrdə daim Azərbaycanın maraqlarını üstün tutacaqlar.

Bir vacib faktı qeyd etmək yerinə düşər. İraq türkmanlarının təmsilçisinin Bakıda verdiyi açıqlamasında İraq parlamentində Xocalı soyqırımı ilə bağlı qətnamənin qəbul edilməsinə çalışacaqlarını bildirməsi təsadüf sayıla bilməz. Bu faktın özü bir daha onu göstərir ki, Azərbaycanla qardaş türkmanlar arasında əlaqələrin intensivləşməsi, gediş-gəlişin artması hər iki tərəf üçün faydalıdır".

* * *

Bakı konfransına qədər Qarabağa səfər etmək imkanı qazanmış qonaqlar gördüklərindən aldıqları təəssüratlarını dilə gətiriblər. "Türk dünyası bir olsa, heç bir şey onu sarsıda bilməz". Bu fikri "Türkmana yardım gəncləri" könüllü hərəkatının sədri İsmayıl Bəyoğlu deyib. Onun sözlərinə görə, Qarabağa səfər etmək onlar üçün qürurverici olsa da, buradakı dağıntıları görmək çox məyusedici idi: "Biz işğaldan azad olunmuş ərazilərdə, Şuşada olduq. Doğrusu, ermənilərin o gözəl torpaqlarda törətdikləri vəhşiliyi, dağıntıları görəndə sarsıldım. Evlər, məktəblər viran qoyulub". Azərbaycanın bu sınaqdan üzüağ çıxdığını vurğulayan İ.Bəyoğlu azad olunan ərazilərdə aparılan bərpa-yenidənqurma işlərinin sürətlə getdiyini vurğuladı: "Deməli, bu ölkəni, bu xalqı sarsıtmaq mümkün deyil".

Bunu soy və qan qardaşımız olan bir türkmanın dilindən eşitmək qürurvericidir. Konfransda yaddaqlan çıxışlardan birini İraq parlamentinin deputatı Ərşad Salehi etdi. O, iraqlıların da Azərbaycan xalqı kimi mübariz olduğunu vurğuladı: "Birinci dünya müharibəsindən sonra İraq xalqı taleyin ümidinə buraxıldı. Amma onlar dillərini, mədəniyyətlərini və kimliyini unutmadı. Millətimiz öz kökündən heç vaxt imtina etmədi". Qarabağa səfərində böyük dağıntıların şahidi olduğunu, İraq türkmanlarının bunu 1991-ci ildə yaşadıqlarını dilə gətirən Ə.Salehi azərbaycanlılarla türkmanların ortaq taleyə malik olduqlarını vurğuladı.




Çıxışlarda tez-tez səslənən fikirlərdən biri də Türk dünyasını bir araya gətirən bu forumun Prezident İlham Əliyevin fəaliyyətinin nəticəsi olması barədə idi. Həqiqətən də, türkman əsilli vətəndaş cəmiyyəti təmsilçilərinin yerli QHT-lərlə birgə xalqlarımız arasında əməkdaşlığın daha da gücləndirilməsi yönündə apardıqları müzakirələr əlahiddə əhəmiyyət daşıyır.

Türkmanların tarixin acı sınaqlarına, müxtəlif dövrlərdəki çətinliklərə baxmayaraq, ləyaqətlə öz milli kimliklərini, dilini və mədəniyyətini qorumağı bacardıqlarını bildirən QHT-lərə Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyevanın sözlərinə görə, türkmanlar həm də yaşadıqları ölkələrin tərəqqisinə böyük töhfələr veriblər: "Onlar rifahın, əmin-amanlığın təmin olunmasında yaxından iştirak ediblər. Bu konfransın məqsədi də vətəndaş cəmiyyətlərinin həmrəyliyinin vacibliyini bir daha diqqətə çatdırmaqdır".

* * *

"Qarabağ və Kərkük universitetləri arasında tələbə mübadiləsi aparıla bilər". Bunu Türkman Akademiklər Təşkilatının sədri Nebil Şahin Kifrili "Gələcəyə baxış: yeni imkanlar və təşəbbüslər" panel müzakirəsində dedi. Onun sözlərinə görə, bununla bağlı Qarabağ Universitetinin rektoru ilə şifahi razılaşma əldə olunub: "Mən İraqın Azərbaycandakı səfiri ilə bununla bağlı danışıqlar aparmışam. Qarabağ və Kərkük universitetləri arasında tələbə mübadiləsi razılaşdırılıb. Ümid edirəm, nəticə müsbət olacaq".

Güney, Quzey Azərbaycan və İraq türklərinin bir bütövün parçaları olduqlarını qeyd edən Əməkdar elm xadimi, professor Qəzənfər Paşayev çıxışını "Azərbaycan daim kərküklülərin qəlbində olub" –deyə bitirdi.

"Azad olunmuş ərazilərdə gedən bərpa-quruculuq işləri məni heyrətə gətirdi. Modern otellər, evlər və yollar Azərbaycanın iradəsinin və gücünün göstəricisidir". Bu sözlərin müəllifi "Türkmaneli" qəzetinin baş redaktoru, yazıçı-jurnalist, tarixçi Necat Kevsəroğludur. O, forumun panel müzakirəsində maraqlı təşəbbüs irəli sürüb: Kərkükdə Azərbaycan Mədəniyyət Mərkəzi yaradılsın. Belə bir mərkəzin ədəbiyyatın, folklorun, eləcə də adət-ənənələrin müqayisəli şəkildə araşdırılaraq gələcək nəsillərə ötürülməsi üçün zəruriliyini deyən N.Kevsəroğlu özünün də könüllü şəkildə həmin mərkəzdə çalışmağa hazır olduğunu bildirib.

Bundan başqa, Kərkükdə Azərbaycan kitabxanasının açılmasının Türk dünyasının dahi şəxsiyyətləri haqqında geniş məlumatın əlçatanlığı və Azərbaycan haqqında araşdırma yazılarında müraciət edilə biləcək mənbənin olması baxımından faydalılığı önə çəkilib.

Panel müzakirələrdə Türkmaneli Federasiyası Dərnəklərinin sədri Mehmet Tütüncü maraqlı təkliflə çıxış edib. O, Kərkükdə Azərbaycan Universitetinin yaradılmasına dəstək verilməsini istəyib: "Səlahiyyətli şəxslərdən xahiş edirəm ki, bu mövzuya diqqət yetirsinlər. Bu məsələdə Azərbaycanın dəstəyi bizimçün çox önəmlidir. Bundan başqa, türkmanların gəlib Azərbaycanda təhsil almaları, azərbaycanlıların orada oxumaları, araşdırma aparmaları, əsərlər yazmaları bizim gələcəyimizə işıq tutacaq".

Çıxış edən Suriya Türkman Dərnəkləri Federasiyasının prezidenti Tarık Sulo Cevizci, Türkman Həmrəylik Təşkilatının sədri Kürşat Çavuşoğlu, Əbədi Turan Kitab Fondunun sədri Esmira Fuad və İraq Türkmanları İnsan Haqları Dərnəyinin Almaniya üzrə təmsilçisi Qənim Osman Türk dövlətləri arasında ortaq dəyərlərin qorunması, gələcək nəsillərə çatdırılması üçün birgə fəaliyyətlərin həyata keçirilməsi barədə fikirlərini bölüşüblər.

Onu da qeyd edək ki, forum öncəsi türkman qonaqlar İraqda yaşayıb-yaratmış dahi Azərbaycan şairi Məhəmməd Füzulinin adını daşıyan Füzuli şəhərinə, eləcə də işğaldan azad edilmiş digər ərazilərə – Şuşa, Xankəndi, Xocalı, Suqovuşana səfər ediblər, orada keçirilən Novruz şənliklərinə qatılıblar. Bakıda Zəfər Parkını, Hərbi Qənimətlər Parkını və digər görməli yerləri ziyarət ediblər. Dünən isə forumdan sonra türkman qonaqlar Bakıda ilaxır çərşənbə ilə bağlı bayram törənlərinə qatılıblar.

Beləliklə, Türk dünyasının qovşağına çevrilən Bakı növbəti möhtəşəm tədbirə evsahibliyi etdi. Vətəndaş cəmiyyəti xətti ilə qurulan bu təmasların türkdilli xalqların gələcək inkişafına öz töhfəsini verəcəyini əminliklə söyləyə bilərik.

***İmran BƏDİRXANLI***
***XQ***

# İrəvanın yeni paxırları da üzə çıxacaq



*(əvvəli 1-ci səhifədə)*

Onun açıqlamaları ilə bağlı qeyd etmək lazımdır ki, prosesi "qondarma məhkəmə" adlandırmaq ədalət mühakiməsini həyata keçirən orqana qarşı açıq-aşkar hörmətsizlikdir. Əslində, qondarma məhkəmə sözü Ermənistandakı oxşar qurumlara münasibətdə işlədilməlidir. Məhz Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərində 30 ildən çox mövcud olmuş qondarma separatçı rejimin mənsubları 2014-cü il iyulun 11-də Kəlbəcər rayonunda öz ata-baba yurdlarını ziyarət etmək istəyən soydaşlarımız Dilqəm Əsgərov və Şahbaz Quliyevi girov götürüblər. Həmin vaxt daha bir soydaşımız – Həsən Həsənov isə qətlə yetirilib. Sonra isə o dövrdə işğal altında olan Qarabağda D.Əsgərov və Ş.Quliyev üzərində saxta məhkəmə prosesi keçirilib. Qanunsuz rejimin qanunsuz "məhkəmə orqanlarının hökmü" ilə D.Əsgərov ömürlük, Ş.Quliyev isə 22 il müddətinə azadlıqdan məhrum edilmə cəzasına məhkum olunub.

Yaxud 2023-cü ilin aprel ayında Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Ermənistanla sərhədboyu ərazisində əlverişsiz hava şəraitində məhdud görmə səbəbindən azaraq Azərbaycan Ordusunun itkin düşmüş əsgərləri – 2004-cü il təvəllüdlü Aqşin Bəbirov və 2003-cü il təvəllüdlü Hüseyn Axundovun Hayastan tərəfindən əsir götürülməsini yada salaq. Daha sonra azərbaycanlı hərbçilər "bir qrup şəxslə əvvəlcədən əlbir olaraq Ermənistanın dövlət sərhədini qanunsuz keçməkdə, qanunsuz odlu silah və döyüş sursatı daşımaq" kimi saxta cinayət əməllərində ittiham olunaraq barələrində həbs qərarı verilmişdi. Bununla yanaşı, sonradan H.Axundov barəsində daha bir qurama cinayət işi başlanılmış və o, "Zəngəzur mis-molibden kombinatının gözətçisini qətlə yetirməkdə" təqsirləndirilmişdi. Nəticədə 2023-cü ilin mayın 8-də A.Bəbirov 11 il 6 ay, H.Axundov isə iyunun 21-də 20 il müddətinə qanunsuz olaraq azadlıqdan məhrum edilmişdi. Hətta, 2023-cü il dekabrın 7-də H.Axundovun cəzası ağırlaşdırılaraq ömürlük həbslə əvəz edilmişdi. Belə ki, Ermənistanın apellyasiya cinayət məhkəməsi bununla bağlı mühafizəçi Ayrapet Meliksetyanın hüquqi varislərinin şikayətini təmin etmişdi. Ancaq ordumuzun hər iki hərbi qulluqçusu Azərbaycan dövlətinin apardığı fəal danışıqlar sayəsində həmin ilin dekabrında azad edilmişdilər.

Bunu xatırlatmaqda məqsədimiz, əslində, qanunsuz məhkəmə orqanlarının Ermənistanda mövcud olduqlarını göstərməkdir. Zənnimizcə, bu nümunə özlüyündə çox mətləblərdən xəbər verir. Mühakimə prosesi isə açıq şəkildə keçirilir. Təqsirləndirilən şəxslər erməni dilində tərcüməçilərlə, habelə müdafiə üçün vəkillərlə təmin ediliblər. Prosesdə əvvəlcə tərcüməçilər elan olunub, onlara qanunvericiliyin tələbləri, o cümlədən hüquq və vəzifələri izah edilib. Təqsirləndirilən şəxslərin tərcüməçilərə, habelə proses iştirakçılarının məhkəmə tərkibinə, bir-birinə etirazlarının olub-olmaması dəqiqləşdirilib. Cinayət işi üzrə 531 mindən çox zərərçəkmiş və onların nümayəndələri var. İlk iclasda çıxış edən hakim qeyd edib ki, təqsirləndirilən şəxslərin hüquq və vəzifələri onlara erməni dilində izah olunub. Bununla yanaşı, məhkəmə iclası zamanı da onların hüquq və vəzifələri bir daha izah edilib. Bu mənada ədalət mühakiməsini şübhə altına almaq ölkəmizin ədliyyə sisteminə qara yaxmaq kampaniyasının tərkib hissəsi kimi qiymətləndirilməlidir.

Q.Baqratyanın separatçı rejimin "müdafiə naziri" – "müdafiə ordusu"nun "komandanı" Lyova Mnatsakanyanın "çox cəsarətli" çıxış etməsi, "sınmaması" və Azərbaycanın nəsə pis iş görəcəyinə dair açıqlaması isə anlaşılmır. Məsələ ondadır ki, Mnatsakanyan Bakı Məhkəmə Kompleksində yerləşən Bakı Hərbi Məhkəməsində davam etdirilən prosesdə olduqca maraqlı açlıqlamalar verib. Bildirib ki, 2015-ci ilin iyun ayında onu bu "vəzifə"yə Ermənistanın o vaxtkı prezidenti Serj Sarkisyan təyin edib. Əvvəlcə Ermənistanın müdafiə naziri Seyran Ohanyan onun bu "vəzifə"yə "təyin olunması" barədə təqdimat verib, S.Sarkisyan isə onu təsdiqləyib. Mnatsakanyanın sözlərinə görə, Sarkisyan təyinatla bağlı onu qəbul edib. "Görüş zamanı mənə dedi ki, bu, çox önəmli vəzifədir", – deyən Mnatsakanyan bununla da separatçı rejimlə bağlı vacib qərarların rəsmi İrəvan tərəfindən verildiyini etiraf edib. Halbuki, 2015-ci ildə qondarma rejimin yaydığı "rəsmi məlumat"a görə, L.Mnatsakanyanı "müdafiə naziri" vəzifəsinə, guya, o vaxtkı "prezident" Bako Sahakyan təyin edibmiş.

Məhkəmə prosesi zamanı verilən ifadələr nəticəsində da məlum olub ki, qondarma rejimdə yüksək rütbələri də Ermənistanın hərbi-siyasi rəhbərliyi verirmiş. Rejimin "ordusu"nun maliyyə məsələləri Ermənistanın müdafiə nazirliyi, silah-sursat isə tam olaraq Ermənistan silahlı qüvvələri tərəfindən təmin olunurmuş. Hər il Ermənistandan 7-8 min nəfər hərbi çağırışçı Azərbaycanın işğal olunmuş ərazilərində müddətli hərbi xidmətə göndərilib. Verilən ifadələr zamanı məlum olub ki, ildə iki dəfə hərbi çağırış olub və hər çağırış zamanı 3500-4000 Ermənistan vətəndaşı işğal edilmiş ərazilərə gətirilib. Qondarma rejimin "ordusu"nda xidmət edənlərin təxminən 70 faizi Ermənistan vətəndaşları, digər 30 faizi isə Qarabağda yaşayan erməni sakinlər olub. Həmçinin Azərbaycanın işğal edilmiş ərazilərində "İskəndər M", "Toçka U" və "Smerç" kimi silahların olmadığı, işğal edilmiş ərazilərdə hərbi xidmət çəkən erməni sakinlərin və Ermənistan vətəndaşlarının törətdikləri hərbi cinayətlərin təhqiqatını Hayastan hərbi polisinin, ibtidai istintaqını isə hərbi prokurorluğunun apardığı Mnatsakanyanın verdiyi ifadələr nəticəsində üzə çıxarılıb. Bu baxımdan Baqratyanın Mnatsakanyanla bağlı "çox cəsarətli" çıxış etməsi fikri anlaşılan deyil.

**Mövzu ilə bağlı XQ-yə açıqlama verən politoloq Ramiyə Məmmədova** bildirdi ki, məhkəmə prosesi keçirilən şəxslər bir sıra ağır cinayət əməllərində təqsirləndirilirlər. Onun sözlərinə görə, Qarabağ beynəlxalq hüquqla da, tarixi reallıq nöqteyi-nəzərindən də Azərbaycanın ayrılmaz, əbədi, suveren ərazisidir. Həmin ərazilərdə törədilən əməllərə Azərbaycan qanunları əsasında nə vaxtsa hüquqi qiymət verilməli idi. İndi isə bu proses həyata keçirilir: "Azərbaycan Xarici İşlər Nazirliyinin qeyd etdiyi kimi, Cenevrə Konvensiyalarına, beynəlxalq və milli qanunvericiliyə uyğun olaraq, Bakının bu cür cinayətləri araşdırmaq və mühakimə etmək hüququ var. Azərbaycandan fərqli olaraq, Ermənistan azərbaycanlı hərbi əsirlərə və həbs edilmiş mülki şəxslərə qarşı alçaldıcı rəftarla bağlı heç bir araşdırmaya başlamamış, itkin düşmüş 4000 azərbaycanlının harada olması barədə məlumatların verilməsində əməkdaşlıq etməmişdir. Bu baxımdan Ermənistandan Bakıdakı məhkəmə prosesi ilə bağlı açıqlama verənlər, təşvişə düşənlər əvvəl bu barədə düşünməlidirlər. Ümumiyyətlə, Ermənistandan verilən açıqlamalr göstərir ki, qonşu ölkənin indiki rəhbərliyi Qarabağ xuntasının keçmiş rəhbərlərinin etiraflarından çox qorxur".

Politoloq dedi ki, mühakimə olunan bir sıra şəxslər, xüsusilə Arkadi Qukasyan, Bako Sahakyan, Arayik Arutyunyan və digərləri Qarabağda baş verən proseslərdə əsas rol oynayıblar. Onlar Azərbaycan qanunları qarşısında cavab verməli idilər. Baş verənlərə irad bildirənlər təqsiri özlərində axtarmalıdırlar.

***Səxavət HƏMİD***
***XQ***

# "Üzrü günahından betər"

(əvvəli 1-ci səhifədə)



Müşfiq ƏLƏSGƏRLİ,
XQ-nin media eksperti

Prezident Donald Trampın imzaladığı fərman USAGM-i hədəf alsa da, mahiyyət etibarilə adı çəkilən media subyektlərini də sıradan çıxarır. Çünki maliyyə kəsilir. Nəzərə alaq ki, təkcə "Amerikanın səsi" radiosunun illik büdcəsi təxminən 260 milyon dollar məbləğində olub. "Azadlıq" radiosunun büdcəsi də təqribən həmin həcmdədir. Bu vəsaiti digər hər hansı bir donorun kompensasiya edə biləcəyi rasional görünmür. Doğrudur, Çexiyanın Xarici işlər naziri Yan Lipavski martın 17-də avropalı həmkarlarına müraciət edərək, maliyyədən məhrum edilmiş "Azad Avropa/Azadlıq Radiosu"nun fəaliyyətinin davam etdirilməsi üçün hərəkətə keçməyin zəruri olduğunu elan edib. Amma bu ideyadır, təklifdir. İcrasına qərar verilib-verilməyəcəyi bilinmir.

Dünən yayılmış məlumata əsasən, USAGM-in insan resursları üzrə direktoru Kristal Tomas hər üç radionun əməkdaşlarına elektron poçt göndərib. Redaksiyalara məxsus əmək texnikasını geri təhvil vermələrini istəyib. Bu xəbərdarlığa uyğun olaraq, "Amerikanın səsi" radiostansiyası 1300-dən çox əməkdaşını inzibati məzuniyyətə göndərib. "Azad Avropa" və "Azad Asiya" radioları da çaşqın duruma düşüb.



ABŞ hökuməti bu media subyektlərinin vəziyyətdən çıxması üçün xüsusi proqram imzalayacaqmı? İnandırıcı görünmür. Çünki ABŞ-ın Dövlət İdarəetməsinin Səmərəliliyi Departamentinin (DOGE) rəhbəri İlon Mask daha öncəki çıxışlarında "Azadlıq" və "Amerikanın səsi" radiostansiyalarını bağlamalı olduğunu demişdi. Nəticə çıxır ki, Tramp komandasının USAGM-i bağlamaqda hədəflərindən biri də elə bu radioları sıradan çıxarmaq olub.

Mövzu ətrafında yaranmış ajiotajın səbəbi də bu nöqtəyə bağlanır. Donald Tramp ABŞ-ın xarici ekspansiya siyasətinin əsas elementlərindən olan bu radiolara nə üçün hədəf alır? ABŞ-ın ümumilikdə xarici siyasət kursu dəyişirmi, yoxsa Tramp komandası ABŞ xarici siyasətini təbliğ etmək üçün yeni, daha effektiv mexanizmlər tapıb? Aydın cavab yoxdur. Ən müxtəlif versiyalar gündəmə gətirilir. Bu versiyaları 2 qrup üzrə təsnifatlaşdırmaq mümkündür.

Birinci istiqamət budur ki, həm USAID, həm də USAGM-in fəaliyyətində sövdələşmə, mənimsəmə, korrupsiya əlamətləri aşkara çıxıb. Son 2 ay ərzində transmilli KİV-lərdə bu agentliklər barədə verilən açıqlamaları sistemə salıb uzlaşdırsaq görərik ki, DOGE rəhbəri onları korrupsiya hallarına yol verməkdə qınayır. Ehtimal olunur ki, ABŞ büdcəsindən ayrılan və bu agentliklər üzərindən realizə edilən maliyyə vəsaitinin təqribən 40 faizə qədəri mənimsənilib. Yaxud israf edilib. Hər halda Prezident Donald Tramp yanvar ayında ABŞ-ın xaricə yönəlik xərclərinin araşdırılıb qiymətləndirilməsi üçün sərəncam verib. 2025-ci il yanvar ayının 24-də qüvvəyə minmiş sərəncama uyğun olaraq, qarşıdakı 90 gün ərzində ABŞ-ın bütün xarici yardım proqramlarının dondurulması məqbul sayılıb. Bu kontekstdə araşdırmalara cəlb edilən əsas subyektlər sırasında USAID və USAGM da var. 90 günlük təhqiqatlar yekunlaşdıqdan sonra, daha detallı bilgilər ortaya çıxacaq.

İkinci istiqamət isə USAID və USAGM-ın fəaliyyətinin qeyri-səmərəliliyi üzərində qurulub. Ehtimal olunur ki, Tramp komandası ABŞ-ın ekspansiya siyasətini daha effektiv mexanizmlər üzərindən qurmağı planlayır. Bu baxımdan ənənvi media üzərində qurulmuş təbliğat ruporları səmərəsiz görünür, sıradan çıxarılır.

Hansı versiyaların dayanıqlı olacağı yaxın zamanlarda bilinəcək. Bu yöndə fikirlərin durulmasına qədər, digər bir nüansa diqqət yetirilməsi zərurətə çevrilir.

"Amerikanın səsi" radiosunun veb-səhifəsində yerləşdirilmiş nizamnaməsində qeyd edilir ki, o, mətbuat azadlığı prinsiplərinə sadiqdir: "Məkandan asılı olmayaraq, VOA jurnalist fəaliyyəti, söz və ifadə azadlığı prinsiplərinə sadiqdir. Təhdidlərlə üzləşən jurnalistlərə tribuna verir...Onların obyektiv fikirlərinin cəmiyyətə çatdırılması üçün platforma rolunu oynayır... 1942-ci ildə yarandığı gündən "Amerikanın səsi" tamaşaçılara həqiqəti çatdırmaq öhdəliyi götürüb". "Azadlıq" radiosunun məramnaməsi də eyni tezislərin üzərində qurulub. Amma indiki situasiya bunun əksini göstərir. Bu radioların əsas missiyasının dünyaya həqiqəti çatdırmaq deyil, ABŞ xarici siyasətini təbliğ etmək üzərində qurulduğu faktı ortaya çıxır. Məsələn, "Azadlıq" radiosunun baş direktoru Stiven Kapus deyib: "Azadlıq" radiosunun qrant müqaviləsinin ləğv edilməsi Amerikanın düşmənlərinə böyük hədiyyə olacaq. İranın ayətullahları, Çinin kommunist liderləri, Moskva və Minskdəki avtokratlar 75 illik fəaliyyətindən sonra "Azadlıq" radiosunun bağlanmasını qeyd edəcəklər. USAGM-in fəaliyyətinin dayanması düşmənlərimizin qarşısında ABŞ təbliğatının zəifləməsi deməkdir". Stiven Kapus bu açıqlaması ilə təsdiq edir ki, adı çəkilən radio qurumları ABŞ xarici siyasətinin təbliğatçısı və təşviqatçısı olublar. Amma indiyədək bütün dünyaya obyektiv, qərəzsiz media subyekti kimi sırınıblar. Qərb nəzəriyyəsində qeyd edilir ki, "təbliğat və təşviqatın başlandığı yerdə azad jurnalistikanın fəaliyyəti bitir".

# Saxta hərbi videomaterial yaymış şəxs saxlanılıb



**Martın 17-də sosial şəbəkələrin xarici seqmentində Azərbaycan Respublikasının dövlət sərhədində, guya, hərbi əməliyyatlar keçirilməsi ilə bağlı tədbirlərin görüldüyü iddia olunmaqla, Azərbaycan Ordusuna məxsus hərbi texnikanın hərəkəti barədə videogörüntülər yayılıb.**

Bu barədə Dövlət Təhlükəsizliyi Xidmətinin mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, faktla əlaqədar Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətində cinayət işi başlanılıb, aparılmış ilkin araşdırmalar nəticəsində yayımlanmış videokadrların 2025-ci il 27 fevral tarixinə aid olduğu təsbit edilib.

Müəyyənləşdirilib ki, Azərbaycan Respublikasının vətəndaşı, 2007-ci il təvəllüdlü Rüstəmov Səməd Bəhman oğlu 27 fevral 2025-ci ildə Gədəbəy rayonu ərazisində Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə məxsus hərbi texnikanın hərəkətinin videoçəkilişini aparıb və qanunla yayılması qadağan olunan bu videomaterialı 15 mart 2025-ci ildə özünün "TikTok" sosial şəbəkəsindəki səhifəsində paylaşıb. Bundan sonra, həmin videogörüntülərə sosial şəbəkələrdə fərqli dövrlərə aid videokadrlar əlavə edilməklə, həqiqəti əks etdirməyən müxtəlif xəbərlərin istinad mənbəyi olaraq nümayiş etdirildiyi müəyyən olunub.

Görülən təxirəsalınmaz tədbirlərlə Səməd Rüstəmov saxlanılaraq istintaqa cəlb olunub, həmin videogörüntüləri çəkdiyi mobil telefon maddi sübut kimi götürülüb.

Bir daha bildirilir ki, Azərbaycan Ordusunun hərbi birləşmələri, onların dislokasiyası, yerdəyişmələri, döyüş və səfərbərlik hazırlığı, silahları, hərbi texnikası ilə bağlı videokadrların çəkilib internet informasiya ehtiyatında, o cümlədən sosial şəbəkələr vasitəsilə yayımlanması cinayət məsuliyyəti yaradır və belə əməllərə yol verən şəxslər barəsində qanunvericiliklə nəzərdə tutulmuş hüquqi tədbirlərin görülməsi təmin ediləcək.

*XQ*

# Mövqelərimiz atəşə tutulub

**Martın 18-i saat 08:55 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun İstisu yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan atəşə tutub.**

Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

*XQ*



REPLİKA

# Alen Simonyanı ekspertizaya göndərmək zərurəti

*Erməni spikerin əndərəbadi təklifinə cavab*



**Ermənistan Parlamentinin spikeri Alen Simonyan təklif edib ki, ölkəsinin və Azərbaycanın konstitusiyaları ekspertizaya göndərilsin və bu yolla Ermənistanın əsas qanununda Azərbaycana qarşı ərazi iddiasının olub-olmadığı müəyyənləşdirilsin. Görəsən, bu adam məzələnir, yoxsa anladığı budur.**

"Siz hər zaman deyə və bildirə bilərsiniz ki, məsələn, mənə sizin saçınızın rəngi, yaxud imzanız və ya başqa nəyinizsə xoş gəlmir. Amma hər şeyə bir əsaslandırma olmalıdır. Bu anadək Azərbaycanla danışıqlarda hər şeyə əsas tapmağa çalışırdıq və bu məntiqdən çıxış edərək onlarla işləyirdik. Düşünürəm ki, təklif (Ermənistanın və Azərbaycanın konstitusiyalarının ekspertizaya göndərilməsi) məntiqi və əsaslandırılmış olacaq", – deyən erməni spikerin fikrincə, hər iki ölkənin konstitusiyalarını nəzərdən keçirməli olan tərəf Avropa Şurasının Venesiya Komissiyasıdır.

Zənnimizcə, ekspertizaya göndərilməli olan nə isə varsa, bu, məhz A.Simonyanın beynidir. Ona görə yox ki, bu şəxsin indi səsləndirdiyi təklif absurddur və manipulyativ xarakter daşıyır, diqqəti reallıqlardan uzaqlaşdırmağa hesablanıb. O səbəbdən ki, A.Simonyan hay ictimai-siyasi industriyasında az-çox pozitiv təsir bağışlayan biridir. İlk növbədə, beləsinin düşüncə sistemi öyrənilməli və oradakı sərsəmliklər məyyənləşdirilərək müvafiq müdaxilə həyata keçirilməlidir. Söhbət tibbi müdaxilədən gedir.

Bəli, A.Simonyan sərsəmləmələri ilə yoluxduğu xəstəliyin çarəsizliyinə dair rəy formalaşdırır. Hərçənd, o, bir müddət əvvəl pozitiv sayılması mümkün davranışı ilə gündəmə gəlmişdi. Jurnalistlər spikerdən vaxtilə işğal altında olan Ağdamda əlində nar şəkli çəkdirib "Akna (ermənilər Ağdama belə sərsəm ad qoymuşdular – red.) mənim vətənim" şəklində paylaşımı ilə hazırda tutduğu mövqenin nə üçün bir-birinə zidd olduğunu soruşanda belə cavab vermişdi: "Hər kəs səhv edə bilər".

Hesab edirik ki, Simonyanın etirafı adi məsələ sayıla bilməz və bu, bütövlükdə erməni cəmiyyətinə dərs olmalıdır. Yəni hay cəmiyyəti xəstəliyi bir kənara qoymalı və səhvini boynuna alıb üzr istəməyi bacarmalıdır. Amma hələlik buna inamımız yoxdur. Çünki təkcə Simonyan deyil, elə Ermənistanın baş naziri Nikol Paşinyan da özünü sanki əlamətləri gedib-gələn xəstəlik daşıyıcısı kimi aparır.

Məsələn, Nikol ötən il düz iki dəfə Ermənistan konstitusiyasının dəyişdirilməsindən danışarkən ölkənin İstiqlaliyyət bəyannaməsinin üzərində dayanmışdı. Daha doğrusu, həmin bəyannamədən daniışaraq, fikrini əsas qanuna dəyişikliklərin aparılması zərurəti üzərində cəmləmişdi. Demişdi ki, İstiqlaliyyət bəyannaməsində işlədilən "Dağlıq Qarabağ" ifadəsi sülh yolundakı maneədir. Nikolun mövzuya dair daha təsirli fikri isə bu olmuşdu: "Son illərdə mən İstiqlaliyyət bəyannaməsini onlarca dəfə oxudum və dəhşətli nəticəyə gəldim ki, bu bəyannamənin mahiyyəti ilə Ermənistan Respublikası mövcud ola bilməz. Bu, bizim ən böyük problemimiz və faciəmizdir. İndi sual budur ki, əsl Ermənistan nədir və onun vətəndaşları kimlərdir? Əsl Ermənistanın vətəndaşı o kəsdir ki, bu yerdən kənarda vətən və ata axtarmır".

Mümkündür ki, Paşinyan diqqətə çatdırdığımız fikirləri ölkə parlamentindən səsləndirərkən, məhz silahdaşını nəzərdə tutub. Ancaq ortada nəticə yoxdur. Simonyan səsləndirdiyi təkliflə, mahiyyətcə, erməni avantürizminin davamı naminə çalışır. O yaxşı bilir ki, AŞ-nin Venesiya Komissiyası Ermənistanın tərəfində dayanacaq. Çünki qurum, ümumən Avropa Şurasının özü Avropa İttifaqının təsiri altındadır. Aİ-də isə hökmran Fransadır. O Fransa ki, Ermənistanın tərəfindədir və rəsmi İrəvanın əli ilə Cənubi Qafqazda qlobal məqsədlər reallaşdırmağa can atır. Belə olan halda, əlbəttə, Venesiya Komissiyası ədalətli yanaşa bilməz. Yəni ən azı Azərbaycan həmin komissiyanın ədalətli qərar çıxaracağına inanmayacaq.

Niyə Venesiya Komissiyası Azərbaycanın əsas qanununu təftiş etməlidir? Nə haqla? Elə isə Simonyan nə üçün gündəmi məşğul edir?

Məlumdur ki, Ermənistan rəhbərliyi 44 günlük müharibədən sonra müxtəlif sərsəm məsələlər gündəmə gətirməklə, sülh prosesini uzatmağa çalışır. Rəsmi İrəvan bu gün də "dəst-xəttinə" sadiqdir. Məsələn, erməni silahlı qüvvələri son günlər atəşkəsi pozmağa başlayıblar. Azərbaycan Müdafiə Nazirliyi bununla əlaqədar məlumatlar yayır. Ermənistan Müdafiə Nazirliyi isə təkzib yolu tutur və bildirir ki, ölkənin baş nazirinin aparatı sərhəd xəttində atəşkəs rejiminə nəzarət üzrə birgə mexanizmin yaradılması təklifini irəli sürüb və Azərbaycan məsələyə müsbət yanaşdığını açıqlamayıb. Belə çıxır ki, atəş səslərinin eşidilməsinə görə günahkar bizik.

Digər tərəfdən, rəsmi İrəvan Ermənistanla Azərbaycan arasında silahlanmaya nəzarət mexanizminin formalaşdırılmasına dair təklif də irəli sürür. Bir sözlə, Paşinyan administrasiyası əsl mahiyyətdən uzaqlaşmaq üçün hər vasitəyə əl atır. Hazırda Simonyanın da bildirdikləri ilə eyni "kursa" sadiqliyini göstərməkdədir. Spiker "ümumi işə" öz töhfəsini verməklə məşğuldur. Amma təkcə Paşinyanın və Simonyanın deyil, bütövlükdə hay hakim komandasının bilməli olduğu bəzi reallıqlar var. Həmin reallıqlara nəzərən, tam əminliklə deyə bilərik ki, Azərbaycanın sülh müqaviləsinin imzalanması üçün Ermənistanda konstitusiya dəyişikliyinin aparılmasının vacibliyini vurğulayan tələbi tam əsaslıdır.

*

Qeyd edək ki, N.Paşinyan ötən həftə Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddiasının olmadığını vurğulayan fikirlərlə paralel olaraq 2024-cü ilin sentyabrında ölkənin konstitusiya məhkəməsinin çıxardığı qərardan söz açmışdı. Bu, təsadüf sayıla bilməz. Yəni Nikol ərazi iddiasının olmadığı fikrini məhz həmin qərarla əsaslandırmağa cəhd göstərmişdi.

Nəzərə alaq ki, sözügedən qərar İstiqlaliyyət bəyannaməsinin əsas qanunda yer almayan müddəalarının etibarsızlığını nəzərdə tutur. Görünür, Simonyan indi məhz buna görə Ermənistan konstitusiyasının beynəlxalq ekspertizaya göndərilməsindən danışır. Yəni o da Paşinyan kimi hesab edir ki, konstitusiya məhkəməsi əsas qanunu işğalçı mahiyyətdən uzaqlaşdırıb. Halbuki, belə yanaşma yolverilməzdir, manipulyativ xarakter daşıyır.

Məsələ ondadır ki, Ermənistan konstitusiyasında İstiqlaliyyət bəyannaməsinə birbaşa, özü də kifayət qədər, yüksək tonlu istinad məntiqi var. 1990-cı ilin avqustunda qəbul edilmiş bəyannamənin preambulasında bildirilir ki, sənəd Ermənistan SSR Ali Sovetinin və Dağlıq Qarabağ Milli Şurasının 1989-cu il dekabrın 1-də çıxardığı Ermənistan SSR-in və Dağlıq Qarabağın birləşdirilməsi haqqında qərarına söykənir və 1918-ci il mayın 28-də yaradılmış müstəqil Ermənistan Respublikasının demokratik ənənələrini inkişaf etdirmək, demokratik, hüquqi cəmiyyət yaratmaq əzminin ifadəsidir. Elə isə daha bir sual meydana çıxır: Ermənistan Konstitusiya Məhkəməsinin qərarı belə bir istinadı aradan qaldıra bilərmi? Əgər məqsəd manipulyativ interpretasiya ilə nəyəsə nail olmaqdırsa, o zaman məsələn, biz də deyə bilərik ki, Ermənistan konstitusiya məhkəməsinin qərarı ölkənin mövcudiyyətini şübhə altına alıb və Ermənistan dövləti özünü buraxdığını rəsmən açıqlamalıdır. Yeri gəlmişkən, ötən ilin sentyabrında ölkədə bu barədə söz açanlar tapılırdı və sayları az deyildi.

Bəli, Simonyan və onu kimilər anlamalıdırlar ki, Azərbaycana təminat lazımdır. Mövzumuz rəsmi Bakının Ermənistan konstitusiyasının dəyişdirilməsi tələbi ilə bağlıdırsa, təminat referendumdur. Bu gün təkcə simonyanların, paşinyanların və digər yanların primitiv siyasi gedişlərinin nəticəsində isə Ermənistana inam və etibar yoxdur. Deməli, referendum həm də bunu qaytarmalıdır.

Azərbaycan dövləti və xalqı əmin olmalıdır ki, bütövlükdə erməni cəmiyyəti 1988-ci ilin ab-havasından, xəstəliyindən qurtulub. Yəni hay cəmiyyəti həmilqla Ermənistan konstitusiyasının İstiqlaliyyət bəyannaməsindəki işğalçılıq və qəsbkarlıq ruhundan xilas olduğunu göstərməlidir. Sübuta yetirməlidir ki, Paşinyanın təbirincə desək, simonyanlar başqasının torpağında vətən axtarmaq eşqinə düşməsinlər.

Sonda bir məqama da diqqət yetirərək bildirək ki, haqqında söz açdığımız referendum Ermənistanın özünə də son dərəcə vacibdir. Ölkənin 44 günlük müharibədə hansı acınacaqlı və rüsvayçı məğlubiyyətlə üzləşdiyini bütün dünya gördü. Söhbət Simonyanın ekspertiza məntiqindən düşmüşkən isə erməni cəmiyyəti işğalçılıq mərəzindən qurtuluşu həm də ona görə rəsmən bildirməlidir ki, gələcəkdə başqasının torpağında tikəsi ələ gəlməyən homo-sapiyenslərin şəxsiyyətlərini müəyyənləşdirmək üçün məhkəmə tibbi ekspertizasına ehtiyac yaranmasın.

*Ə.CAHANGİROĞLU*
*XQ*

XQ və "Ulduz" jurnalının "Ayrı söhbət" layihəsi

# Arif Babayev: sənətin də, söhbətin də arifi

**"Xalq qəzeti" ilə "Ulduz" ədəbi-bədii jurnalının "Xalq qəzeti" TV ilə yayımlanan və qəzetdə təqdim edilən "Ayrı söhbət" layihəsinin növbəti qonağı görkəmli xanəndə, Xalq artisti Arif Babayevdir.**

"Ulduz"un baş redaktoru Qulu Ağsəs ustad sənətkar, musiqi professoru Arif Babayevlə söhbəti onun evində aparıb. "Xalq qəzeti" TV-də efirə getmiş həmin söhbəti təqdim edirik.

***– Arif müəllim, xoş gördük, necəsiniz?***

– Xoş gəlmisiniz. Səsim biraz zəifləyib, qalan hər şey yaxşıdır. Çox şad oldum gəlişinizə.

***– Sizin səsiniz yaddaşımızda musiqi möhürü kimi həkk olunub. Heç nə sizin səsinizə xələl gətirə bilməz.***

– Səsi gərək qoruyasan, külək, soyuq hava ona pis təsir edir. Konsert zamanı soyuq olanda xırıltı yaranır və bu da çətinlik törədir. Ona görə də xanəndəlik çox çətin sənət sayılır. Uzun illərdir mən buna şahidəm, çox çətindir.

***– Siz ömrünüzü idmançı kimi yaşamısınız. Necə ki, idmançı öz formasını qoruyur, siz də səsinizi saxlamaq üçün sağlam həyat sürmüsünüz. Nə gəldi yeməmisiniz, vaxtında yatıb-durmusunuz, səsinizə qulluq etmisiniz.***

– Dedikləriniz tamamilə doğrudur, səsi səhnədə əsgər kimi qorumaq lazımdır.

***– Arif müəllim, deyirlər, siz səsi peşəkarlıqdan üstün tutursunuz.***

– Səs Allah vergisidir, o, təkcə sənin yox, həm də xalqın, tamaşaçınındır. Peşəkarlığı məktəbdə öyrənmək olur, amma səs ya var, ya yoxdur. Onu qorumaq, sənətə çevirmək gərəkdir.





***– Siz xalq mahnılarının, muğamların və bəstəkar nəğmələrinin mahir ifaçısısız. Hansısa bir məclisdə sizdən aşıq havası oxumağı istəyən olubmu?***

– Bəli, həm də çox oxumuşam. Saz yaxşı çalınanda, mən də oxuyanda, sanki, özümlə danışıram.

***– Operada aşıq rolu da oynayanda, yəqin oxumusunuz da...***

– Bəli, baş rollardan biri olan Aşıq Qəribi oynamışam və aşıq kimi oxumuşam.

***– Sizi ağırtaxtalı sənətkar kimi tanıyırlar. Həm müəllimlər, həm də tələbələr, sanki, sizdən çəkinirlər. Azərbaycanın ilk muğam professoru və kafedra müdirisiniz. Bu, sizin xarakterinizi daha da ciddiləşdirib. Nizam-intizamlı, sözübütöv insansınız. Sizi operadan başqa yerdə təsəvvür edə bilmirik. Aktyorluq və Arif Babayev necə uyuşur?***

– Operalarda çox oynamışam. Üzeyir bəyin əsərləri həmişə cavandır. O yaşayıb və daim yaşayacaq. Bu operalar həm də xanəndəni aktyora çevirir. Səhnədə rol aparmaq ayrı, oxumaq isə başqa olsa da, gərək onları birləşdirməyi bacarasan.

***– Məcnun rolunu oynamaq bu baxımdan çətindir. Çünki bunun üçün aktyorluq bacarığı lazımdır.***

– Əlbəttə, öyrənmək lazımdır. Uzun illərdir operadayam. Səhnədə necə olmaq, xanəndə kimi necə oxumaq lazımdır, çox gözəl bilirəm. Bunu tələbələrimə də öyrətmişəm.

***– Bəzən deyirlər ki, əvvəlki səslər indi yoxdur. Xüsusilə Qarabağ səsləri. İndi, şükürlər olsun, Qarabağ qayıdıb. Sizcə, yenidən o səsləri eşidəcəyikmi? Əbülfəzin, Qədirin, Arifin, Səxavətin, Şahmalının səsləri kimi... Yəni, torpaq, hava, su səsin yaranmasında vacibdir...***

– Niyə də olmasın? Həyatı bilmək olmaz. Deyirlər ki, bəzi səslər əvəzsizdir. Ancaq gözəl ifa edən, yaradıcılıqla məşğul olan, gələcəyin xanəndəsi cavanlarımız olub, olacaq da. Hazırda elə cavan uşaqlarımız var ki, onlar tamaşaçılar tərəfindən xanəndə kimi sevilirlər.

***– Qarabağa getdiniz. Xəyalınızdakı Ağdam, doğulub-böyüdüyünüz Sarınacılı və gedib gördüyünüz yerlər sizdə necə hisslər yaratdı? TV verilişində sizin səfərinizə baxdım və gördüm ki, siz ermənilərin törətdiyi vəhşiliyi, barbarlığı bu dərəcədə təsəvvür etmirmişsiniz.***

– Bəli, doğulduğum yerdir Ağdam. Lənətə gəlmiş ermənilər işğal etmişdilər torpağımızı. Ürəyimiz dağlanmışdı. Mən həmişə fikirləşirdim ki, torpaqlarımız alınacaq. Çox şükür ki, dövlət başçımız İlham Əliyevin müdrik siyasəti sayəsində torpaqlarımız işğaldan azad olundu, insanlarımız sevindi və mən bunu görə bildim. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa, ordumuza isə güc-qüvvət versin. Biz onların sayəsində öz torpaqlarımızda rahat gəzə bilirik. Neyləyək, erməni viran qoyub, biz ondan da yaxşısını tikirik.

***– Uzun illərdən sonra Şuşaya şənliyə getdiniz. Sizcə, Şuşa çox dəyişibmi?***

– Quldurlar, qarətçilər Şuşanı da xeyli dağıdıblar. Şükürlər olsun ki, artıq yenidən tikilir və Şuşa daha gözəl şəhər olacaq.

***– Bu yaşda evdə öz-özünüzə zümzümə edirsinizmi?***

– Bəli, hərdən segahlardan zümzümə edirəm. Elə şeylər olur ki, onu məşq edirəm. Məsələn muğamı, onun şöbələrini yadıma salıram. İstəyirəm ki, bildiklərimi ömrümün axırına kimi tələbələrə çatdırım. Mən bunlarla təsəlli tapıram, sevinirəm.

***– Sizi bütün tələbələriniz sevir. Bəs, Arif Babayevin sevdiyi tələbələri kimlərdir?***

– Bütün tələbələrimi sevirəm, onlara fərq qoymuram. Onların gözəl səsləri var.

***– Görsəniz ki, bir nəfər sizin kimi oxuyur...***

– Ola bilər, buna yalnız sevinərəm. O, Arif Babayevi yaşadar. Amma xanəndə sənətə başlayanda kimisə təqlid etsə də, sonra o öz yolu ilə getməlidir.

***– Ağdam şəhəri tikildikdən sonra orada Arif Babayev adına musiqi məktəbi açılmağını eşitsəniz...***

– Allah Prezidentimizin canını sağ eləsin. Orada böyük işlər görülür, muğam mərkəzi də tikilir. Bəli, çox istərdim ki, belə bir təşəbbüs olsun. Ömrümün 80 ilini bu sənətə sərf eləmişəm. Əlbəttə, istəyirəm ki, həyatımı dəyişdikdən sonra, xalqım, musiqisevərlər məni unutmasınlar.

***– İnternetlə aranız necədir? Sosial şəbəkələrdən istifadə edirsinizmi?***

– Arada vaxt edəndə "YouTube" kanallarına baxıram, ancaq başqa sosial şəbəkədən istifadə etmirəm.

***– Bilirsiniz ki, süni intellektlə insan da yaradırlar – robot danışır, hətta robot şeir yazır, mahnı bəstələyir. Yüz il sonra ola bilərmi ki, muğamlarımızı robotlar ifa etsin?***

– O barədə məlumatım yoxdur, ola bilsin ki, belə bir ifa yaratsınlar.

***– Arif müəllim, siz 16-cı mərtəbədə yaşayırsınız, bəs, sənətin neçənci mərtəbəsindəsiniz?***

– Orada muğam yoxdur, orada mən özüm yaşayıram. Dostlarım, yoldaşlarım və tələbələrim gəlir, məni ziyarət edirlər. Sağ olsunlar, çox razıyam. Yaxşı tələbələrim var. Onlardan biri – Səbuhi İbayev Qarabağ Universitetinin vokal və muğam kafedrasının müdiri təyin olunub. Zəng vurub təbrik elədim. Digərləri də var, adlarını yaxşı xatırlamıram.

***– Sizə necə, Qarabağ Universitetindən dəvət gəlsə, gedərsinizmi?***

– Onu gələcək göstərər. Sağ olsun, qədirbilən dövlətim, indiyə qədər mənə verilən dəyər var, çox razıyam. Lazım gəlsə Xankəndinə də gedərəm. Bir də ki, tələbəm ordadırsa, mən də ordayam, sənətim ordadır.

***– Vikipediyada sizin tərcümeyi-halınıza baxıram, gənc ikən fəxri adlar almısınız – Əməkdar artist və Xalq artisti, professor... Demək olar ki, dövlət tərəfindən əksər ordenlərlə, medallarla təltif olunmusunuz. Amma aydın məsələdir ki, Arif Babayevin çətin, ağır günləri də olub.***

– Həyatın çətin günləri olduğu kimi, xoş günləri də var. Niyə gileylənim? Qarabağ yenidən qurulur, çox sevinirəm, alqışlayıram.

***– Ağdamda sizə ev verilsəydi...***

– Mənim Ağdamda evim var idi. İndi niyə olmasın.

***– Ağdam alınandan sonra mən "Ağam!.. Adam!.. Ağdam!.." adlı şeirimi yazdım. Ağdamlı müğənnilər, xanəndələr, dirijor Əyyub Quliyev, ağdamlı Seyid və digərləri o şeiri səsləndirmişdilər. İstəyirəm sizin üçün də oxuyum.***

– Oxu.

***– "Sən öl"ü, "sağ ol"u bəlli,***
***yaranandan üzü bəri***
***yasında Yasin oxunan,***
***toyunda tüfəng atılan – şəhərim!..***
***Şükür külünə,***
***şükür qayıdış gününə!***
***Sevincdən ağlımız çaşıb,***
***yüz min dəliynən gəlirik.***
***Bir "Uzundərə" havası çal,***
***çıx Bərdə yoluna –***
***Uzundərəynən gəlirik!..***

– Çox sağ olun, gözəl yazmısınız.

***– Pandemiya vaxtı AzTV-də bu barədə veriliş çəkəndə sizi tapa bilmədik. İstərdim ki, bir gün gəlib sizi çəksinlər və o şeirdən 2 bənd də olsa səsləndirəsiniz.***

– Baş üstə!

***– Bir gün "Moskva" qəzeti Rəşid Behbudovdan müsahibə alırmış. Sual olunur ki, Rəşid müəllim, siz SSRİ Xalq artistisiniz, fəxri adlarınız var. Həyatınızda necə, narazı olduğunuz nə isə varmı? O da bu sualın qəsdən verildiyini düşünür. Deyir ki, mən hər şeydən razıyam. Müxbir əl çəkməyib dirəşəndə sənətkar deyir: Bəli, narazıyam, o da boyumun qısa olmasıdır. Sizin isə boyunuz, maşallah, ucadır. Amma yenə də, narazı olduğunuz nə isə varmı?***

– Var. Elə muğamlarımız var ki, düşünürəm, kaş bunu başqa cür ifa edəydim.

***– İfa etmədiyiniz üçün təəssüfləndiyiniz mahnı varmı?***

– O qədər xalq mahnıları var ki... "Segah" üstündə xalq mahnıları var. Gərək işlənsin, oxunsun.

***– Hazırda mahnı bəstələyirsinizmi?***

– Bəli, bəstəkarlıq iddiasında olmasam da, mahnılarımı ifa ediblər, indi də xalq mahnıları kimi yaşadılır. Qoy, oxusunlar, yaşasın, mən də dinləyim.

***– Bu yaşda eviniz həm də iş yerinizdir. İndi nəsə ifa edə bilərsinizmi?***

– Bağışlayın, bunun üçün səhhətim yaxşı olmalıdır. Hələ ki, mümkün deyil.

Segah üstə bir çox mahnılarım var: "Bəh-Bəh", "Gül açdı", "Apardı sellər Saranı", "Gəlmədi" və s. Hazırda tələbələrim də onları ifa edir. Dinləyirəm. Baxıram, sevinirəm.

***– Bəlkə, yeni bəstələrinizdən də verəsiniz, oxusunlar.***

– Əlbəttə, verirəm, oxuyurlar.

***– İndiyə qədər sizi tarda ən yaxşı müşayiət edən, sözsüz anlayan kim olub?***

– Sərvər İbrahimov, Həsən Dadaşov. Onlarla uzun müddət işləmişəm.

***– Bir dəfə demişdiniz ki, indiki tarzənlər arada mahnını çox uzadırlar. Belələri ifaçını çaşdırırlar, yorurlar...***

– O olmamalıdır. Bəli, müşayiət etmək çox çətindir. Bəzi xanəndələr də oxuyanda tarzənlərə müdaxilə edirlər. Hər şeyin öz yeri var. Adlarını çəkməsəm də, gənc tarzənlərimiz, ifaçılarımız var ki, onlar gələcəyin böyük sənətkarı olacaqlar, adları tarixə düşəcək.

***– Arif müəllim, xanəndələrdən kimə həvəslə qulaq asırsınız?***

– Hamıya qulaq asıram. Xüsusən Cabbara, Seyidə, Xan Şuşinskiyə... Allah hamısına rəhmət eləsin! Cavanlarımızdan da yaxşı xanəndələrimiz var. Yaxşı oxuyurlar.

***– "Ayrı söhbət" verilişinin qonaqları sonda XQ-yə hədiyyə verirlər. Haqqımda yazılan kitablar var. Mən də onlardan birini öz imzamla sizə hədiyyə edirəm.***

***– Arif müəllim, çox sağ olun ki, bizə kifayət qədər vaxt ayırdınız.***

– Siz də çox sağ olun ki, gəldiniz. Səhhətimdə narahatlıq olsa da sizi görməyimə çox şad oldum.

***– Bir daha təşəkkür edirik.***

*Söhbəti apardı:*
***Qulu AĞSƏS,***
***şair-publisist,***
***"Ulduz" jurnalının baş redaktoru***

# Məhkəmədə 10 nəfərdən çox zərərçəkmiş ifadə verib



**Azərbaycan Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesinin baxış iclası martın 18-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

İclasın əvvəlində Ruben Vardanyanın müdafiəçisi Avraam Berman məhkəməyə vəsatət verərək iclas protokolları və onlara əlavə edilmiş audioyazı ilə tanış olmaq üçün şərait yaradılmasını xahiş edib.

İttiham tərəfi vəsatətə etiraz etməyib.

Hakim Zeynal Ağayev vəsatəti təmin edərək təqsirləndirilən şəxsə və müdafiəçiyə məhkəmə iclas protokolları ilə təkrarən tanış olmaq üçün şərait yaradılacağını bildirib.



Daha sonra iş üzrə zərərçəkmiş şəxslər dindirilib.

Zeynal Ağayev dindirmədən əvvəl zərərçəkmiş şəxslərə qanunvericiliklə nəzərdə tutulmuş hüquq və vəzifələrini izah edib.

Ardınca zərərçəkmiş şəxslər Rahib Fətəliyev, Səxavət Rəcəbov, Fərid Məmmədov, Sənan Mirzəliyev, Samir Məlikov, Ceyhun Xankişiyev, Ələsgər Cəfərov, Səfa Məmmədov, Əliş Şamıyev, Eldar Hüseynov, Elvin Tağıyev və digərləri bildiriblər ki, onlar Ruben Vardanyanı media və sosial şəbəkələr vasitəsilə tanıyıblar, Azərbaycanın vaxtilə Ermənistan tərəfindən işğal edilmiş suveren ərazilərində – Kəlbəcər və Xocalı rayonlarında hərbi xidmətdə olarkən Ermənistanın hərbi təxribatı zamanı müxtəlif təyinatlı silahlardan açılmış atəş, o cümlədən əl qumbaralarının partlaması nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alıblar.

Zərərçəkmişlərin hər biri təqsirləndirilən şəxs Ruben Vardanyana ən ağır cəzanın verilməsini məhkəmədən xahiş edib.

Dindirmədən sonra zərərçəkmiş şəxslər dövlət ittihamını müdafiə edən prokurorların xidmət yerləri, hərbi təxribatların törədildiyi konkret ərazilər, hadisə nəticəsində yetirilmiş xəsarətlərin ağırlıq dərəcəsi və lokalizasiyası barədə suallarını cavablandırıblar.

Sonra martın 11-də keçirilən məhkəmə prosesi zamanı ifadə vermiş zərərçəkmiş şəxslərin barələrində keçirilmiş məhkəmə-tibbi ekspertizasının rəyləri elan edilib.

Məhkəmənin növbəti iclası aprelin 1-nə təyin olunub.

***XQ***

# Uşaqların gül üzləri solmasın!

**"Bir uşağın haqqının qorunması gələcəyin ədalətli və insanpərvər olmasına verəcəyimiz töhfədir". Bu sözləri Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva "Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranış (bullinq)" mövzusunda təlimin açılış mərasimində deyib.**



Aynur Sofiyeva bildirib ki, bullinq bu gün bütün dünyada təkcə bir fərdi və ailəni deyil, bütün cəmiyyəti narahat edən problem, xüsusən, uşaqların hüquqlarını pozan gözəgörünməz, amma gerçək təhdiddir. O, uşaq hüquqlarının qorunmasının, təminatının, eləcə də inkişafının dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu qeyd edib. Sədr müavini ölkəmizdə bu istiqamətdə həyata keçirilən işlərin daim gücləndirildiyini və uğurlu nəticələr əldə edildiyini vurğulayıb.

"Azərbaycan Respublikasının Uşaqlara dair 2020–2030-cu illər üçün Strategiyası"nda dövlətin uşaq məsələləri ilə bağlı hədəflərinin müəyyənləşdirildiyini bildirən Aynur Sofiyeva qeyd edib ki, komitə bununla əlaqədar bir neçə vacib sənəd layihəsi hazırlayıb və qəbul olunub. O, "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun müasir çağırışlara uyğun olaraq yenidən təkmilləşdirildiyini söyləyib.

Dövlət Komitəsinin fəaliyyətinin gələcək xəritəsinin müəyyənləşdirilməsində həyata keçirilən təhlil və araşdırmaların əhəmiyyətini vurğulayan sədr müavini, Azərbaycanda məktəblərdə bullinqlə bağlı sorğular keçirilərək "Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranış: bullinqin aşkarlanması üzrə analitik hesabat" adlı tədqiqat hazırlandığını bildirib.

Təlim Türkiyənin Sakarya Universitetinin müəllimi professor Mehmet Zafer Danışın yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranış, uşaqların bullinqə məruz qalması, bullinqin növləri və s. haqqında geniş açıqlaması ilə davam edib. Müzakirələrdə Bakı və Abşeron–Xızı Regional Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən ümumtəhsil müəssisələrinin psixoloqları, Penitensiar Xidmətin və Sosial Xidmətlər Agentliyinin əməkdaşları iştirak ediblər.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

Qədim qaynaq və inanclarımız

# "Tura bayramı"ndan gələn ümumtürk təntənəsi

**Novruz haqqında ilkin məlumatlara Turan-sak mifologiyasında və onunla bağlı olan arxeoloji qaynaqlarda rast gəlinir. Rus arxeoloqu A.Martınov yazır: "Skif (sak) dövründə Avrasiya çöllərində yerli kultlarla yanaşı, qədim əsaslara söykənən ümumi kultlar da formalaşmışdır: əcdad, heyvan, Günəş, bitki, bir qədər sonra, e.ə.VI əsrdən isə od (atəş) kultu. Onlar dünya, kainat, xeyir və şər ideyalarının mübarizəsini, Günəşin ilahiləşdirilməsi kimi təsəvvürləri əks etdirirdilər".**



Əcdad kultu kimi keçirilən bayram o zaman "Tura bayramı" adlanırdı. Qədim Turan xalqlarından olan və XX əsrdək qədim mifoloji (bütpərəstlik) inanclarını saxlayan çuvaşlar indi də həmin bayrama "Tura bayramı" deyirlər. Zərdüşt peyğəmbər özü də turanlı idi. O, e.ə.VI əsrdə çoxsaylı Turan inanc və miflərində islahatlar aparmaq, onları vahid sistem əsasında ümumiləşdirmək qərarına gəlir. Xeyir və şər qüvvələr arasında gedən mübarizəni öz təliminin mərkəzinə qoyan Zərdüşt turanlıların öz əcdadı hesab etdikləri Tura tanrısını baş tanrı Ahura Məzda (Hikmət sahibi) ilə əvəz etmək istəyirdi.

Zərdüştün təlimində il 2 fəsildən – yay və qışdan ibarət idi. Belə hesab edilirdi ki, yayda Xeyir tanrısı Ahura Məzda, qışda isə Şər tanrısı Əhrimən üstün gəlir. Yay fəsli 21 martdan, yəni gecə ilə gündüzün bərabərləşdiyi gündən 22 sentyabra qədər olan dövrü əhatə edirdi. İlin ilk günü "Ahura Məzda günü" adlanırdı. Ancaq Zərdüştün həmvətənləri onun təlimini qəbul etmədilər və onu əcdadların inanclarına müxalif çıxmış bir adam kimi Turandan qovdular.

Zərdüşt 10 il sərgərdan gəzdikdən sonra indiki Əfqanıstan ərazisinə gəlir. Burada İran şahı I Daranın canişini və atası olan Viştaspa onun təlimini qəbul edir. "Ahura Məzda bayramı" ifadəsi də bir neçə əsrdən sonra burada "Hörmüzd bayramı" forması alır.

Ərəb işğalından və İslamın qəbulundan sonra isə müsəlman ruhaniləri başqa dinin tanrısının adına olan təqvim bayramı keçirməyi qadağan edirlər və bayrama "Novruz" ("Yeni gün") adı verirlər.

Beləliklə, biz görürük ki, zərdüştilik dininin özü kimi, onun əsas bayramı olan Novruz da qədim turanlıların dünyanın yaranması barədəki təsəvvürlərinin, mif və müxtəlif kultların əsasında formalaşmışdır. Bu təlim e.ə. VI əsrdən b.e. VII əsrinə qədər Mərkəzi Asiya, İran və Azərbaycanda rəsmi din olmuşdur.

Ancaq VII əsrdə baş verən ərəb işğalından sonra zərdüştilik dini qadağan edilir və onun kahinləri təqib olunurlar. Məlumdur ki, hər bir dinin ayin və mərasimlərini qoruyan və yaşadan onun kahinləridir. Qeyd edilən ərazilərdə islam dini yayıldıqdan sonra zərdüştilik dini ortadan çıxır. Ancaq Novruz bayramı o qədər gözəl və cazibədar idi ki, xalq onu öz yaddaşında saxlayaraq yaşadır.

Böyük bir ərazidə şifahi yaddaş əsasında nəsildən nəslə ötürülən mərasimlərin təhriflərə uğraması və ya onun ayrı-ayrı ünsürlərinin yaddaşlardan silinməsi qaçılmazdır. Məsələn, 1990-cı illərin əvvəllərinə qədər rayonlarımızda müxtəlif adlar altında 6 çərşənbə mərasimi keçirilirdi. Novruz bizdə rəsmi dövlət bayramı kimi qəbul edildikdən sonra bu rəngarəngliyi aradan qaldırmaq və sistemləşdirmək üçün folklorşünaslarımıza göstəriş verilmişdi. Onlar isə Novruzun qədim tarixini bilmədiklərinə görə fars Novruzuna məxsus 4 ünsürü (su,od, yel, torpaq) seçdilər.

Bu ünsürlər isə farslarda zərdüştilikdən əvvəl mövcud olmuş Mitra (Mehr) dininə məxsusdur. Çünki farslar zərdüştiliyi qəbul edərkən Mitra dininə aid olan bir sıra ayin və ünsürləri də ona daxil etmişdilər. Azərbaycan uzun müddət zərdüştiliyin mərkəzi olduğuna görə burada Novruz bayramından əvvəl 6 çərşənbə günü qeyd edilirdi, 7-ci od ünsürü isə Novruz günü qeyd edilirdi.

Onların həqiqi mənaları isə aşağıdakı hikmətli mifə əsaslanır: Ahura Məzda öz işıqlı dünyasının 7 ünsürdən (yumurta qabığı formasında olan və digər ünsürləri öz əhatəsinə alan səma, su, Yer (torpaq), bitki, buğa, insan, od) ibarət düzəltmiş və onları Əhrimənin hücumundan qorumaq üçün 6 qoruyucu mələk də yaratmışdır. Sonuncu od (Günəş) ünsürünün qoruyucusu isə Ahura Məzdanın özü idi.

Qışın ortalarında şər qüvvələr o qədər azğınlaşırlar ki, insanlar onların törətdikləri soyuq və xəstəliklərə dözməyərək, kömək üçün hər çərşənbə günü bir qoruyucu mələyə müraciət edirlər. İnsanlar özlərinin ölmüş əcdadlarının ruhlarını da köməyə çağırırlar və onları yaxşı qarşılamaq üçün hazırlıq işləri görürlər (evlər, həyət və küçələr təmizlənir, bayram süfrəsi üçün lazımi azuqələr, təzə paltarlar alınır və s.).

Nəhayət, axır çərşənbə günü qaranlıq düşəndə mələklər və əcdadların ruhları "gəlib çıxırlar". Ruhlar öz evlərini və qohumlarını tanıyıb, onlara tez çatsınlar deyə hündür yerlərdə tonqal qalayıb üstündən tullanırlar. Ruhlar gələndən sonra isə onların şərəfinə qonaqlıq başlanır və ruhlar da öz paylarını almaq üçün qapı və ya bacalardan torba atırlar. Səhəri günü isə ruhların qəbri üstünə gedib, oraları da təmizləyir və üstünə yemək qoyurlar.

Axır çərşənbə ilə Novruz arasında olan günlərdə isə xeyir və şər qüvvələrin mübarizəsi gedirdi və bu mübarizəni əks etdirən müxtəlif tamaşalar ("Kosa və Keçəl" və s.) göstərilirdi. Nəhayət, 21 martda şər qüvvələr qovulur və Novruz günü bu qələbə bayram edilirdi. Bir sıra digər xalqlarda isə yalnız axır çərşənbə və Novruz günləri bayram kimi qeyd olunur.

Bununla yanaşı, Novruz mərasimləri əksər ölkələrdə, əsasən, oxşar formada keçirilir. Məsələn, Özbəkistanda, Qazaxıstanda, Qırğızıstanda, Tacikistanda və Türkmənistanda bayram ərəfəsində evi üzərlik tüstüsünə tuturlar ki, şər ruhları evdən qovsunlar. Evlər, həyətlər, ölmüş yaxınların qəbirləri təmizlənir, səliqə və sahmana salınır ki, qonaq gələn ruhlar razı qalsınlar. Küsənlər barışır, adamlar öz borclarını qaytarırlar. Adamlar tonqal qalayıb, üstündən tullanırlar. Qızlar niyyət tuturlar və s.

Güney azərbaycanda 7 qoruyucu mələyin (onlara "spentə" deyilir) şərəfinə bayram süfrəsinə "s" hərfi ilə başlanan 7 nemət qoyulur. Süfrədə magik məna daşıyan digər əşyalar da (şam, güzgü, yumurta, səməni və s.) yer alır. Yemək məhsullarından daha çox plov, ət, pendir, halva, müxtəlif quru meyvələr və şirniyyat hazırlanır. Bayram günləri müxtəlif yarışlar və gəzintilər təşkil edilir.

Hazırda Novruz Azərbaycandan əlavə, Qazaxıstanda, Özbəkistanda, Qırğızstanda, Tükmənistanda, Tacikistanda, İranda, Gürcüstanda, Türkiyədə, Albaniyada, Makedoniyada dövlət bayramı sayılır. bu bayram Əfqanıstanda, Uyğurstanda, Başqırdıstanda, Tatarıstanda və Dağıstanda da qeyd edilir.

Göründüyü kimi, Novruz çoxdan özünün qədim dini mahiyyətini itirmiş və tamamilə ümumxalq bayramına çevrilmişdir. Sönük keçən müsəlman bayramlarından fərqli olaraq, Novruz insanlara fərəh və sevinc gətirir, yeni ildə arzuların həyata keçəcəyinə inam bəxş edir.

2013-cü ildə UNESCO bu bayramı "Beynəlxalq Novruz Günü" adı altında bəşəriyyətin qeyri-maddi mədəni irsi siyahısına daxil etmişdir. BMT də 21 mart gününü Beynəlxalq Novruz Günü kimi tanımışdır.

***Kamil HÜSEYNOĞLU,***
***filologiya elmləri doktoru, professor***

Fotoreportaj

# Bakı bulvarında bahar ovqatı

**Novruz bayramı günlərində Bakı Bulvarı şəhər sakinlərinin və qonaqların ən çox üz tutduğu məkanlardan birinə çevrilir. Dənizkənarı Bulvar İdarəsi bu il də bayrama özəl hazırlıqlar görərək ərazini Novruzun ruhuna uyğun şəkildə hazırlayıb.**





Bu dəfə bayram tərtibatı ənənəvi məkanda deyil, fərqli istiqamətdə, lalələrin xüsusi kompozisiya ilə əkildiyi yerə yaxın gəzinti zolağında qurulub. Azneft dairəsindən Qız Qalasına qədər olan hissə Novruz atributları ilə zənginləşdirilib. Burada bayramın rəmzi olan səməni, dörd çərşənbəni simvolizə edən gəlinciklər, milli ornamentlərlə bəzədilmiş dekorativ kompozisiyalar, nağıl qəhrəmanlarının heykəlcikləri, əlvan güllər, işıq instalasiyaları və digər Novruz rəmzləri quraşdırılıb. "Muğam üçlüyü", "Yuxayayan xanımlar", "Milli geyimli rəqqasələr" bu qəbildəndir. Möhtəşəm səməni, bəzəkli yumurtalar, bayraqcıqlar göz-könül oxşayır.

Bulvarda təşkil olunan bayram yarmarkası da ziyarətçilərə xüsusi ab-hava bəxş edir. Köşklərdə çeşidli şirniyyat məhsulları, sular satılır. Burada Novruza məxsus ləziz təamlarla yanaşı, tətbiqi sənət nümunələri, milli suvenirlər və əl işləri də təqdim olunur. Sevdiklərinə hədiyyə vermək istəyənlərin də geniş seçim imkanı var.

Bayramla əlaqədar istirahət günlərində Bakı bulvarında daha böyük qələbəlik olacaq. Musiqili proqramlar, milli idman oyunları, Novruzun simaları olan Keçəl, Kosa, Bahar qızı, axşam atəşfəşanlıqları şəhər sakinlərinə və turistlərə əsl bayram əhvalı yaşadacaq.

***Əli ƏLİYEV,***
***Elşən AĞALAR (foto)***
***XQ***







# Naxçıvanda Novruz şənlikləri



**Əsrlərdən bəri hər il Novruz şənliklərinin şahidi olmuş qədim Naxçıvan builki İlaxır çərşənbəsini "Əcəmi Seyrəngahı" Mədəniyyət və İstirahət Kompleksində Bahar festivalı ilə qarşılayıb.**

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət və hökumət nümayəndələri festivalın açılışında iştirak ediblər.

Milli geyimli "Bahar qız" bayram münasibətilə iştirakçılara təbriklərini çatdırıb, festivalı açıq elan edib. El ağsaqqalı Dədə Qorqud baharın gəlişi münasibətilə xeyir-dua verib, bayram tonqalını alovlandırıb.

"Şərur" Xalq Yallı Ansamblı tərəfindən milli rəqslərimizindən ibarət bədii kompozisiya təqdim olunub, Naxçıvan Dövlət Uşaq Teatrının aktyorları Novruz bayramının milli atributlarından sayılan "Kosa və keçəl" səhnəciyini, Naxçıvan Dövlət Kukla Teatrının kollektivi isə "Saçları səməni oğlan" tamaşasını nümayiş etdirib. Festivalda muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektləri tərəfindən ictimai-iaşə xidməti də təşkil edilib.

Fuad Nəcəfli sakinləri bayram münasibətilə təbrik edərək bildirib ki, xalqımızın milli dəyərləri içərisində xüsusi yeri olan Novruz bayramı ölkəmizdə iqtisadi yüksəlişlə həmahəng qeyd olunur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə xalqımız Novruzu sabitlik, inkişaf və rifah şəraitində qarşılayır.

Bahar festivalı Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının rəqs nömrələri və Azərbaycan Respublikasının Xalq artisti Gülyaz Məmmədovanın ifaları ilə davam edib.

Qədim diyarda Bahar festivalı martın 23-dək davam edəcək.

*

**Həmin gün Ordubad şəhərində yerləşən XVII əsrə aid Cümə məscidi təmir-bərpadan sonra istifadəyə verilib. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət, hökumət və ictimaiyyət nümayəndələri açılış mərasimində iştirak ediblər.**



"Qurani-Kərim"dən ayələr oxunduqdan sonra Fuad Nəcəfli Cümə məscidinin istifadəyə verilməsi, Novruz və Ramazan bayramları münasibətilə rayon ictimaiyyətini təbrik edib, məscidə "Qurani-Kərim" hədiyyə edib. O bu əlamətdar hadisənin sülhün, əmin-amanlığın təmin olunması naminə dövlətə, dövlətçiliyə xidmət edəcəyini vurğulayıb.

Axund Yusif Rüstəmov Cümə məscidinin təmir-bərpadan sonra istifadəyə verilməsini rayonun ictimai həyatında mühüm tarixi hadisə kimi dəyərləndirib, qarşıdan gələn Novruz, Ramazan bayramları münasibətilə təbriklərini çatdırıb.

Rayon ağsaqqalı Fərrux Nağızadə məscidin bərpasına görə rayon ziyalıları adından minnətdarlıq edib.

***Səbuhi HƏSƏNOV,***
***XQ***

**Naxçıvan**

# Naxçıvanda Çanaqqala sevgisi



**Naxçıvan Muxtar Respublikasında 18 Mart Çanaqqala Zəfərinin 110-cu ildönümü münasibətilə toplantı keçirilib.**

Naxçıvan şəhərindəki Şəhidlər xiyabanında keçirilən anım mərasimində Türkiyənin Naxçıvan Muxtar Respublikasındakı Baş konsulu Asip Kaya, Əlahiddə Ümumqoşun Ordu komandanı, general-mayor Kənan Seyidov, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin rəisi Vüsal Ələkbərli, Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Cabbar Musayev, ictimaiyyət və media nümayəndələri, Naxçıvanda təhsil alan türkiyəli tələbələr iştirak ediblər.

Mərasimdə şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra tədbir iştirakçıları türk şəhidlərinin xatirəsinə ucaldılmış abidə önünə əklil və gül dəstələri qoyub. Çanaqqala şəhidlərinin, eyni zamanda torpaqlarımızın azadlığı uğrunda şəhid olanlar vətən oğullarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, ardınca hər iki qardaş ölkənin Dövlət himnləri səsləndirilib.

Anım tədbirində Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya bildirib ki, şəhidlərimizin sarsılmaz Vətən sevgisi, xalqımızın, o cümlədən iki qardaş ölkənin birliyi və bərabərliyi ən böyük qürurumuz, zənginliyimiz və gücümüzdür. Konsul qeyd edib ki, tarixi qəhrəmanlıqlarla dolu olan millətimiz 110 il əvvəl Çanaqqalada böyük bir tarix yazıb və torpaqlarımızın işğalına heç vaxt razı olmayacağını dünyaya nümayiş etdirib.

***XQ***

BEYNƏLXALQ HƏYAT

# Qırmızı dəniz alov saçır

**ABŞ prezidenti Donald Tramp "Yəməndə Husi terrorçularına qarşı qəti və güclü hərbi əməliyyatlara başlamaq" əmrini verib. Onun sözlərinə görə, hava hücumlarının məqsədi Qırmızı dəniz və Ədən körfəzində təhlükəsiz naviqasiyanı bərpa etməkdir. Bombardmanlar nəticəsində azı 3 nəfərin öldüyü bildirilir. Husilər isə hücumu cavabsız qoymayacaqlarına söz veriblər.**



2025-ci il martın 16-na keçən gecə ABŞ silahlı qüvvələri Yəməndə husilərin mövqelərinə qarşı genişmiqyaslı əməliyyata başlayıb. Hücumlar ölkənin paytaxtı Səna, Taiz və Saada da daxil olmaqla bir neçə əyaləti əhatə edib. Zərbələr raket və dron sistemlərini, həmçinin Husilərin hava hücumundan müdafiə obyektlərini hədəf alıb. Analitiklərin fikrincə, Husilərə qarşı indiki hava hücumları Ağ evin hazırkı rəhbərinin İrana maksimum təzyiq göstərmək taktikasının bir hissəsidir. Başqa sözlə, Tramp husilərə zərbələr endirir ki, Tehranı nüvə ambisiyalarından vaz keçməyə vadar etsin.

Bununla belə, amerikalı ekspertlər hesab edirlər ki, husilərə qarşı son bombardman (oxşar zərbələr sabiq prezident Co Bayden administrasiyası dövründə dəfələrlə həyata keçirilib) onların müqavimətini qırmaq üçün kifayət deyil. "Atlantic Council" analitik mərkəzinin xatırlatdığına görə, 2015-ci ilin martından 2022-ci ilin martına qədər Səudiyyə Ərəbistanının rəhbərlik etdiyi ərəb koalisiyası Yəməndə husilərə qarşı 75 mindən çox hava hücumu həyata keçirmişdi. Bu hücumlarda Amerika və Avropa döyüş təyyarələri də iştirak etmişdi. Ancaq o zaman husiləri məğlub etmək mümkün olmadı, əksinə, hücumlara cavab olaraq husilər Səudiyyə Ərəbistanının enerji obyektlərinə, hava bazalarına və digər hərbi və mülki obyektlərinə zərbələr endirmişdilər.

2022-ci ildə Səudiyyə Ərəbistanı husilərlə atəşkəs razılaşması əldə etmək məcburiyyətində qaldı. Nəticədə Ər-Riyad 2024-cü ildə husilərə qarşı ABŞ və Böyük Britaniyanın hava əməliyyatlarına qoşulmadı. Analitiklər deyirlər ki, husilərin uzun müqavimət tarixi nəzərə alınarsa, belə ehtimal etmək olar ki, raket zərbələri onların müqavimətinin qarşısını almayacaq. Son məlumatlara görə, ABŞ qrup rəhbərliyinin əsas mərkəzləri kimi tanınan istehkamlara raket zərbələri endirib.

Mütəxəssislərin sözlərinə görə, husilərin bazalarına, komanda məntəqələrinə və hava hücumundan müdafiə sistemlərinə hücumlar onları qısa müddətdə zəiflədə bilsə də, qrup qısa zamanda qüvvələrini bərpa etdiyini dəfələrlə təsdiqləyib. Buna görə də, analitiklər iddia edirlər ki, Səudiyyə Ərəbistanının rəhbərlik etdiyi koalisiyanın, indi isə ABŞ və Böyük Britaniyanın davamlı hücumlarından sonra belə, husilər bölgə üçün əhəmiyyətli bir təhlükə olaraq qalacaqlar.

Bundan başqa, ekspertlər qeyd edirlər ki, ABŞ-ın şənbə günü Səna və Yəmənin digər yerlərini bombalaması husilərlə müharibənin növbəti genişlənməsini göstərir. Qrupun ordusunu zəiflətmək məqsədi daşıyan hücum husilərin Qırmızı dənizdəki gəmiçiliyə davamlı hücumlarına və daha geniş regional təcavüz və təhdidlərə birbaşa cavabdır. Bu hücumların keçmişdəkilərdən fərqi odur ki, şənbə günü edilən hücumlar bilavasitə husi rəhbərliyinə qarşı yönəlib. Hücumlar bu mərhələdə nəticə verməsə də, ABŞ belə bir əməliyyat həyata keçirməklə husi rəhbərliyinə güclü çəkindirmə siqnalı göndərdi. Bununla belə, husilərin müqavimət göstərməsi ehtimalı var, yəni ABŞ-ın mühafizə siyasətinin effektiv olması üçün vaxt lazımdır.

***S.ELAY***
***XQ***


# REQUESTF ORE XPRESSIONSO FI NTEREST

## (Financial Auditor)

**Country:** Republic of Azerbaijan
**Name of project:** "Construction of The Main Irrigation Canal from The Maiden Tower Reservoir Project"
**Type of service:** Financial Auditor
Mode of Financing: Instalment sale and IsDB grant
Financing No. AZE-1024

The Government of the Republic of Azerbaijan has received financing from the Islamic Development Bank toward the cost of the "Construction of The Main Irrigation Canal from The Maiden Tower Reservoir Project", and intends to apply part of the proceeds for consultant services. The services include **Audit of Project's Financial Statement and preparation of its Report**. Please refer to the General Procurement Notice for this project that appeared in IsDBs website, dated 19 December 2024.

The primary objective of the audit engagement is to enable the auditor to express a professional opinion as to whether (i) the Project Financial Statements (PFS) show true and fair view of the Project's financial position for the period starting from the first disbursement date (expected date 15/05/2025) until the end of the project (expected date 15/05/2030) and funds receipts and expenditures incurred during the period then ending. (ii) Expenditures reimbursed on basis of Statements of Expenditures are eligible to Bank financing and are reflected on the PFS, and for this purpose, the auditor shall carry out whatever necessary examinations of the statements and underlying records and control systems. The Audit opinion should also state whether the Procurement Guidelines of the Islamic Development Bank have been properly applied and in accordance with the Project's Financing Agreement No. AZE- 1024: (iii) the Executing Agency is compliant with the covenants of the financing agreements and the applicable laws and regulations; (iv) the Special Account (if any) presents fairly the availability of funds and the transactions made are in accordance with the provisions of the financing agreement; and (v) assess the adequacy of the internal control mechanisms and (vi) provide an opinion on the availability and utilization of counterpart financing (Government share of project financing)

The Azerbaijan State Water Resources Agency, Administration of Facilities under Construction PLE now invites eligible consultants to indicate their interest in providing the services. The shortlisting criteria are as follows for the assignment: The auditor should be registered as certified public accountant with the appropriate professional body in the country and have substantial experience in auditing major projects in the country, including projects funded by international financial institutions or multilateral development banks. In the case of government auditing, the audit team should be adequately staffed with qualified auditors having relevant background and experience in auditing. The same audit principles should be applied if the audit is conducted by private or government auditors. The auditor must have a certificate issued by reputable international companies showing compliance with ISO 27001:2013 version of Information Security Management System.

The key audit team shall comprise at minimum:

a. An Audit Manager with at least 10 years of experience in auditing and has sound knowledge of IFI/MDBs financing procedures. He/ she should be a member of an ACCA.

b. A Team Leader with a minimum of 7 years of experience in auditing. He/ she should be a member of ACCA; and

c. An Assistant Auditor with 3-5 years of experience and professional qualifications.

Interested firms must provide information indicating that they are qualified to perform the services (brochures, description of similar assignments, experience in similar conditions, availability of appropriate skills among staff, etc.).

**The detailed Terms of Reference (TOR) for the assignment is attached to this request for expressions of interest (ANNEX 1).**

A consultant will be selected in accordance with the **Least Cost Selection (LCS)** method set out in the Guidelines for the Use of Consultants under Islamic Development Bank Financing (current edition).

Interested consultants may obtain further information at the address below during office hours ***09:00 to 17:00*** **(local time).**

Expressions of interest must be delivered to the address below by April 7th 2025.

Azerbaijan State Water Resources Agency, Administration of Facilities under Construction PLE
Attention: Mr. Fuad Abishev, Deputy Chairman of the Board
69 A Moscow Ave, Baku, Azerbaijan, AZ1012, 5th floor
Tel: +994 50 2229397
Fax: +994 12 4935165
E-mail: fuad.abishev@toom.gov.az

**Important note:** Participants may obtain TOR digitally published in isdb.org and dgmarket.com websites.


# Sumqayıt Saraya qovuşur

## *Yeni körpü açılışa hazırdır*



**Sumqayıt şəhərini Abşeron rayonunun Saray qəsəbəsi ilə birləşdirən, Samur-Abşeron kanalı üzərində yerləşən yeni körpüdə aparılan tikinti işləri yekunlaşdırılıb.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən mətbuata bildirilib ki, obyektin tikintisinə 2024-cü ilin dekabr ayında başlanılıb və 3 ay müddətində inşaat işləri tamamilə başa çatdırılıb.

Bundan öncəki qəzalı körpü 2 hərəkət zolaqlı olub. Yeni körpü 3 aşırımdan və 4 hərəkət zolağından ibarətdir. Körpü 104 metr uzunluğunda və 21,6 metr enində inşa olunub. Həmçinin, körpünün sağ və sol hissələrində piyada səkiləri tikilib. Körpü 4 dayaq üzərində inşa edilib və orta dayaqlarda 1,5 metr diametrli 6 sütun yerləşir.

Ümumilikdə körpü 12 sütundan ibarət olub, hər dayaq iki cərgəli svaylar üzərində qurulub. Svayların uzunluğu 14 metr, diametri isə 1 metrdir və ümumilikdə 80 svaydan istifadə olunub.

***XQ***


Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

**"Azərbaycan Milli Konservatoriyası" PHŞ**

*aşağıdakı kafedralarda vakant vəzifələrə*

MÜSABİQƏ ELAN EDİR

**Muğam (Xanəndə) kafedrası üzrə:**
Professor – 2 yer
Dosent – 2 yer

**Etnomusiqişünaslıq kafedrası üzrə:**
Professor – 2 yer
Dosent – 1 yer

**Fortepiano kafedrası üzrə:**
Professor – 1 yer
Dosent – 1 yer
Baş müəllim – 1 yer

**İnstrumental muğam kafedrası üzrə:**
Dosent – 1 yer

**Xalq çalğı alətləri kafedrası üzrə:**
Dosent – 1 yer



"Bakı Elektrik Quraşdırma-2" ASC səhmdarlarının nəzərinə!

11 may 2025-ci il saat 10.00-da, "Bakı Elektrik Quraşdırma-2" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Səhmdar cəmiyyətin 2024-cü il üçün fəaliyyətinin yekunlarına aid idarə heyətinin hesabatı və müəssisənin balansının təsdiqi.

2. Digər məsələlər.

Yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

Əlaqə telefonu-050 -327-20-02.

Ünvan – Bakı şəhəri, Nizami rayonu, Ə.Nəvai küçəsi 11.

***İdarə heyəti***



"Naftalan –Avtonəqliyyat" ASC səhmdarlarının nəzərinə!

5 may 2025-ci il saat 11.00-da "Naftalan –Avtonəqliyyat" ASC səhmdarlarının növbəti illik iclası keçiriləcəkdir.

Gündəliyə aşağıdakı məsələlər daxildir:

1." Naftalan –Avtonəqliyyat" ASC-nin 2024 –cü il üçün illik hesabatının və maliyyə balansının təsdiqi.

2. "Naftalan–Avtonəqliyyat"ASC-nin idarə heyətinin üzvlərinin və sədrinin seçilməsi.

3. "Naftalan –Avtonəqliyyat"ASC-nin idarə heyətinin əmrlərinin təsdiqi.

4. Digər məsələlər.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 60 (30754) 19 mart 2025-ci il, çərşənbə

İdman

## Astarada cüdo zalı



**Astara Olimpiya İdman kompleksinin nəzdində cüdo zalı açılıb.**

Bu barədə Azərbaycan Cüdo Federasiyasının mətbuat xidməti məlumat yayıb.

Açılış mərasimində federasiya prezidentinin müşaviri Natiq Bağırov, dünya və Avropa çempionatlarının mükafatçısı Orxan Səfərov, qurumun regionlarla iş üzrə məsul şəxsləri Musa İsmayılov, Ruslan Yunusov, Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin rəisi Teymur Babazadə və digər rəsmi şəxslər iştirak ediblər.

Cüdo zalı müasir standartlara cavab verən tatami və digər zəruri avadanlıqlarla təchiz edilib.

## Şahmatçımız liderlər qrupunda



**Rumıniyanın Eforie Nord şəhərində kişilər arasında şahmat üzrə Avropa çempionatı davam edir.**

İsveçrə sistemi üzrə keçirilən və 11 turdan ibarət yarışda 3 turdan sonra şahmatçımız Misrətdin İskəndərov liderlər qrupunda yer alır. Azərbaycanlı qrosmeyster növbəti turda Daniil Yuffa (İspaniya) ilə qarşılaşacaq. Digər şahmatçılarımız Məhəmməd Muradlı, Read Səmədov və Əhməd Əhmədzadə liderlərdən yarım xal geri qalırlar.

Qitə çempionatında 40 ölkədən 376 şahmatçı iştirak edir.

## "Odlar yurdu" qalibdir



**Almaniyanın Maqdeburq şəhərində fəaliyyət göstərən "Odlar yurdu" boks klubu rekorda imza atıb.**

Klub yüksək səviyyəli bir yarışda ilk dəfə 4 üzvü ilə təmsil olunub və onların hər biri fəxri kürsüyə çıxıb. Federal Boks Birinciliyində klubun daha iki boksçusu – Zieae Raveş və Yousifi Rohullah 60 kiloqram çəkidə böyüklər arasında keçirilən yarışlarda gümüş medal qazanıblar. Ötən həftə 13 yaşlı Dmitro Turkules və 15 yaşlı Bleoren Halili bu turnirdə bütün rəqiblərinə qalib gələrək qızıl medalla təltif edilib.

Klubun rəhbəri, peşəkar boksçu Azad Əzizov bu nəticələri klubun inkişafı və gələcək uğurları üçün böyük bir nailiyyət olaraq qiymətləndirib. Qazanılan qələbələrin həm Azərbaycanın təbliğinə, həm də yeniyetmə idmançıların digər reytinqli yarışlarda iştirakına böyük töhfə olduğunu bildirib.

*L.QURBANOVA*
*XQ*

*"Bakı İxtisaslaşdırılmış Nəqliyyat" ASC ona məxsus olan 105.074 ədəd adi, adlı səhmlərin dövriyyədən çıxarıldığını elan edir.*

*"Qızıl Qum" kooperativinin dairəvi möhürü itdiyi üçün etibarsız sayılır.*

*2025-ci il fevralın 3-də ümumi yığıncağın qərarı ilə İmişli rayonunda fəaliyyət göstərən "Göbəktala" və "Gavurarx" Sudan İstifadəedənlər Birlikləri birləşərək, "RƏSULARX-2" Sudan İstifadəedənlər Birliyini təsis etmişlər.*

Futbol tariximizdən

**Getdikcə sürətini artırıb, 3-cü ayının finişinə yaxınlaşan 2025-ci ilin baharı Sovet İttifaqı çempionatlarında "Neftçi" formasında meydana çıxmış daha bir futbolçu üçün əlamətdar dövrdür. Ötən əsrin 80-ci illərində güclülər dəstəsində Bakı komandasının müdafiə xəttində çıxış etmiş Novruz Əzimov bu gün 65 yaşının tamam olması münasibətilə yaxınlarından, futbol ictimaiyyəti nümayəndələrindən təbrikləri qəbul edəcək. "Xalq qəzeti" də təkcə futbol meydanlarında fərqlənməyib, Birinci Qarabağ müharibəsində də cəsarətlə döyüşmüş bugünkü yubilyarı unutmayıb.**

# "Neftçi"nin 907-ci qolunun müəllifi

## *Qarabağın isə könüllü müdafiəçisi*

Statistikaya görə, SSRİ çempionatlarının güclülər dəstəsində "Neftçi"nin vurduğu sonuncu, 907-ci qolun müəllifi məhz N.Əzimov olmuşdur. Azarkeşlər bu qola 1988-ci il noyabrın 19-da Azərbaycan paytaxtı futbolçularının Kiyevin Respublika stadionunda yerli "Dinamo" kollektivi ilə görüşündə şahidlik etmişlər.

Komandamız üçün həm də 51-ci çempionatın sonuncu oyunu olan həmin görüşün tomsklı hakimi N.Yurovun start işarəsindən cəmi 10 dəqiqə sonra hücuma qoşulan Əzimov hesabı açmışdır. Ancaq erkən qol 90 dəqiqənin tamamında qonaqlar üçün zəif təsəlli olmuş, Ukraynadan xal ilə qayıtmaq üçün "Neftçi"yə kömək etməmişdir. Kiyevlilər Anatoli Demyanenko və Gennadi Litovçenko qalan 80 dəqiqə ərzində hərəyə bir top vurub, "Dinamo"ya 2:1 hesablı çətin qələbə qazandırmışlar.

"Neftçi" ölkə çempionatlarının güclülər dəstəsində son oyununda Elxan Həsənov, Novruz Əzimov, Yaşar Vahabzadə, Rasim Abuşov, Andrey Fedorovski, Vitali Alxasov, Yunis Hüseynov (Vladislav Lemiş, 72), Vəli Qasımov, Vidadi Rzayev (Vladislav Qədirov, 85), Məşallah Əhmədov və Samir Ələkbərovdan ibarət heyətlə çıxış etmişdir.

Futbola dair kitablar bizə həm də Əzimovun "Neftçi" üçün SSRİ çempionatlarının güclülər dəstəsində sonuncu turnirdə 17 oyunda iştirak etdiyini xatırladır.

O, futbolda bir oyunçu kimi çıxışlarını başa vurduqdan sonra məşqçilik fəaliyyətinə başlayaraq, müstəqillik illərində respublikamızın bir neçə klubunu çalışdırmış, həmçinin Moldova çempionatının baş liqasında oynayan "Dinamo-Avto" klubunun baş məşqçisi olmuşdur.

İdman həvəskarlarımız 1992-ci ilə təsadüf etmiş Azərbaycanın ilk müstəqil çempionatının start turlarından birində "Neftçi"nin Sumqayıtın "Xəzər" kollektivi ilə görüşündən (1:0) sonra Novruzovun könüllü olaraq Birinci Qarabağ müharibəsində cəbhəyə gedib, erməni işğalçılara qarşı fədakarlıqla döyüşdüyünü də eşitmişlər. Həmin respublika birinciliyində "Neftçi" çempion olduqda Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA) qərara alıb ki, cəsur döyüşçü bu çempionatda cəmi bir oyunda iştirak etməsinə baxmayaraq, ona da qızıl medal təqdim olunsun. Futbolçunun könüllü olaraq cəbhəyə getməsi, döyüşlərdə göstərdiyi şücaət diqqətdən kənarda qalmamışdı.

Biz yazılarımızda o uzaq illərdəki "Neftçi"nin bir neçə futbolçusunun doğum gününü yada salıb, onlar haqqında hörmət və ehtiramla söhbət açmışıq. Bu gün isə Novruz Əzimovun günüdür. Yubileyi mübarək olsun!

***



Bu gün dərc etdiyimiz foto 1987-ci ildə Türkiyənin İzmir şəhərində yerli "Altayspor" və "Neftçi" komandaları arasında yoldaşlıq görüşü (0:1) başlanmazdan əvvəl lentə alınmışdır. Şəkildə ayaq üstə duranlar sırasında sağdan birinci N.Əzimovdur.

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

XQ-nin fotoqaleriyası

# Xeyir-bərəkət ətirli Novruz



Foto Elşən AĞALARINDIR

HAVA

# Külək, yağış və duman...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, martın 19-da Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq.**

Əsasən yağmursuz keçəcək. Lakin gecəyə doğru bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi, şimşək çaxacağı ehtimalı var. Güclü şimal-qərb küləyi əsəcək. Gecə 14-17°, gündüz 17-19° isti olacaq. Atmosfer təzyiqi 754 mm civə sütunundan 761 mm civə sütununa yüksələcək, nisbi rütubət 65-75 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 10-15°, gündüz 18-23°, dağlarda gecə 0-3°, gündüz 3-6° isti olacaq.



**Qəzənfər QASIMOV**
**XQ**

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3373
SİFARİŞ 612
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV
Çapa imzalanmışdır 00:00